RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 261 (9140) ÇƏRŞƏNBƏ, 30 noyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Tatarıstan Şərqi Zəngəzurda sənayeləşmədə fəal iştirak edir



→ 2

## Azərbaycan ilə Türkmənistan arasında ticarət dövriyyəsi daha da artacaq



→ 2

## *Məhəmməd bin Abdullah Əl Qərqavi:* "İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə əldə edilən nailiyyətlər dost və qardaş BƏƏ-ni sevindirir"



→ 2

## Siyasi sistemin qanunvericilik bazası təkmilləşdirilir

### "Siyasi partiyalar haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edildi

Spiker Sahibə Qafarova növbəti məsələlərin birinci oxunuşda olan qanun layihələri olduğunu qeyd edərək deputatlardan birinci oxunuşun tələblərini nəzərə almalarını xahiş edib. Bildirib ki, gündəliyin 22-ci məsələsi "Siyasi partiyalar haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

Qanun layihəsi barədə məlumat verən Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli hazırda qüvvədə olan müvafiq qanunun 30 il əvvəl qəbul edildiyini deyib və Azərbaycanın həmin dövrü ilə indiki dövrü arasında müqayisə apararaq bu müddətdə ölkənin ictimai-siyasi həyatında baş verən köklü dəyişiklikləri diqqətə çatdırıb. Xüsusən də torpaqlarını işğaldan azad edən qalib Azərbaycanın beynəlxalq münasibətlər sistemində söz sahibi olduğunu vurğulayan Fəzail İbrahimli yeni reallıqların və tələblərin, həmçinin keçən dövr ərzində Azərbaycanda qanunvericiliyin təkmilləşdirilməsində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlərin yeni qanunda təsbit olunmasının zərurətindən danışıb.

→ 3



## "Dəmir yumruq" Ermənistandan və onun havadarlarından konkret seçim tələb edir

# Hərb, yoxsa sülh?!

Yenə də gündəliyi Azərbaycan Prezidenti müəyyənləşdirir. Bütün ağrılı məqamlara, işğalın ağır fəsadlarına, törədilmiş erməni vəhşiliklərinə baxmayaraq, İlham Əliyev bölgənin gələcəyi naminə sülh gündəliyi təqdim edir. Həm də Ermənistanın düşdüyü sosial-iqtisadi bataqlıqdan qurtulması üçün yol göstərir.

Noyabrın 25-də Bakıda, ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransda İlham Əliyev bir daha aparılan danışıqlara toxunaraq vurğuladı ki, Praqa görüşünün kommünikesinə əsasən, Ermənistan ilk dəfə olaraq rəsmi şəkildə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıyıb və bu həm də Azərbaycanın Qarabağ üzərində suverenliyi deməkdir. Həmçinin Praqa bəyanatında keçmiş sovet respublikalarının inzibati sərhədlərini faktiki formalaşdıran 1991-ci il Almatı Bəyannaməsinə istinad edilir və bu da o deməkdir ki, Qarabağ ermənləri üçün hansısa statusun olması ilə bağlı hər hansı spekulyasiyadan söhbət gedə bilməz: "Beləliklə, Avropa İttifaqı formatına qayıtmaq vacib idi, çünki biz Brüsseldəki bu qarşılıqlı əlaqələr sayəsində iki yola ayrılmağa razılaşdıq. Biri Ermənistan-Azərbaycan sülh müqaviləsi üzrə danışıqlar, ikinci yol isə bizim Qarabağdakı erməni azlığın nümayəndələri ilə iki məsələnin həlli ilə bağlı danışıqlarımız - onların hüquqları və təhlükəsizliyidir. Bu razılaşdırıldı və buna görə də demək istədiyim odur ki, bu, nəticəyönümlü tədbir idi. Praqadakı görüşün formatı isə bir qədər fərqli idi. Çünki Fransa Prezidenti Makron bizim qrupumuza qoşuldu və mən burada bu məsələni şərh etməyi dayandırıram. Bir daha deyirəm, Praqa görüşünün nəticəsi bizim üçün uğurlu idi. Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdı".

→ 4

## İlham Əliyev sülh düşmənlərini təcrid edir

### Azərbaycan bütün müstəvilərdə Ermənistan və Fransanın pozuculuq cəhdlərinin qarşısını alır

Vətən müharibəsindən sonra Fransa dərk etdi ki, artıq işğal haqqında danışmaq və ya Azərbaycana hansısa yolla təzyiq göstərmək mümkün deyil. Fransa anlayır ki, bu müharibədə Bakı həm də Parisi məğlub edib, Azərbaycanın Fransanın Ermənistanın işğalına dəstək siyasətini darmadağın edib. Fransa siyasi dairələrində onu da bilirlər ki, bu ölkənin qanunvericilik orqanında hansısa sənədlərin qəbulunun heç bir faydası yoxdur. Elə Ermənistanda da anlayırlar ki, bu yolla böyük bacı kiçik bacısına yalnız təsəlli verir.

Bütün bunların nəticəsi olaraq danışıqlar prosesində iştirakı qeyri-mümkün olan, başqa cür desək, Azərbaycan tərəfindən bu prosesdən təcrid olunan Fransa indi Ermənistanın sorosçu hakimiyyətinin təmsilçilərini davamlı şəkildə Parisə dəvət edir, onlara verdiyi təlimatlarla sülh müzakirələrini əngəlləməyə çalışır.

→ 4

## Tehranın ASALA terrorçuları ilə işbirliyi ifşa olunur

### İran generalı Qasım Süleymani də erməni terrorçularına dəstək verib

→ 5

## Məscid dağıdanları qucaqlayan İran...

### Rəsmi Tehran yanlışlarından nəticə çıxarmalıdır

→ 5

## İlham Əliyev Azərbaycana regional və beynəlxalq üstünlüklər qazandırıb

### İran və Ermənistan heç bir əngəl yarada bilməz

→ 5

## Qarabağ və Zəngəzurun bərpasına mühüm dəstək



### Bu prosesdə iştirak edən şəxslərə vergilərdən 10 illik azadolma və əlavə imtiyazlar tətbiq ediləcək

Layihədə təklif olunan dəyişiklik işğaldan azad edilmiş ərazilərdə qeyri-dövlət qeyri neft-qaz sektoru üzrə 10 il müddətində məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması mexanizmini, o cümlədən tətbiq ediləcək kontingent və şərtləri müəyyən edir. Sosial sığorta haqlarının subsidiyalaşdırılması 2023-2026-cı illərdə 100 faiz, 2026-2029-cu illərdə 80 faiz, 2029-2031-ci illərdə 60 faiz, 2031-2033-cü illərdə 40 faiz miqdarında təmin ediləcək.

→ 4

## Birləşmiş Ərəb Əmirlikləri Azərbaycandan öyrənir

### "ASAN xidmət" modelinə xarici ölkələrdə maraq böyükdür

→ 6

## 9 ayda 20,7 milyard dollarlıq müsbət saldo

### Xarici ticarətdə ixrac idxalı 2 dəfə üstələyir

→ 8

## İqtisadi cəhətdən sərfəli, texniki baxımdan təhlükəsiz

### Orta dəhliz daha çox kimə lazımdır

→ 6

# Tatarıstan Şərqi Zəngəzurda sənayeləşmədə fəal iştirak edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Rüstəm Minnixanov Azərbaycana böyük nümayəndə heyəti ilə səfər etdiyini vurğuladı. O, nümayəndə heyətinin tərkibində çoxsaylı şirkətlərin təmsilçilərinin də olduğunu diqqətə çatdırdı, Rusiyanın regionları ilə Azərbaycan arasında əməkdaşlıq çərçivəsində Tatarıstanın da ölkəmizlə əlaqələrinin inkişaf etdiyini məmnunluqla bildirdi.

Bakının gözəlliyindən məmnunluğunu bildirən Rüstəm Minnixanov ölkəmizin sürətli inkişafını qeyd edərək Azərbaycanın sənaye potensialının artırılması istiqamətində görülən işləri vurğuladı. Dövlət başçısı qeyd etdi ki, iki ölkənin prezidentləri arasındakı dialoq əməkdaşlığımızın bütün sahələrdə inkişaf etdirilməsi üçün əsas istiqamətləndirici amildir. Azərbaycan Prezidenti cari il ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlərin önəminə toxundu, özünün Rusiyaya səfərlərinin, iki ölkənin qanunverici orqanları və hökumətləri səviyyəsində səfərlərin əhəmiyyətini vurğuladı. Ölkələrimiz arasında münasibətlərin inkişafında regionlararası təmasların vacibliyini diqqətə çatdıran Prezident İlham Əliyev bu xüsusda Azərbaycan ilə Tatarıstan arasında əlaqələrin hərtərəfli inkişafını qeyd etdi.

Görüşdə "KamAZ"ın Azərbaycanda istehsalı məmnunluqla vurğulandı, bu xüsusda işğaldan azad edilmiş Cəbrayılda ötən ilin oktyabrında Prezident İlham Əliyevin iştirakı ilə Araz vadisi sənaye zonasında "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlinin qoyulmasının önəmi qeyd olundu.

Görüşdə Azərbaycanda və Tatarıstanda fəaliyyət göstərən sənaye zonaları arasında əməkdaşlığa toxunuldu, bu məsələlərin Bakıda keçirilən biznes forumda daha geniş müzakirə ediləcəyi bildirildi.

Söhbət zamanı Azərbaycan-Rusiya hərtərəfli əlaqələri çərçivəsində Azərbaycan ilə Tatarıstan arasında da energetika, neft-kimya, sərmayələr, nəqliyyat, logistika, sənaye korporasiyaları, humanitar, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparıldı.

# Azərbaycan ilə Türkmənistan arasında ticarət dövriyyəsi daha da artacaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Türkmənistanın Baş nazirinin ticarət kompleksi üzrə müavini Batır Atdayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Batır Atdayev Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını və ehtiramını Prezident İlham Əliyevə çatdırdı. O qeyd etdi ki, Azərbaycan Prezidentinin bu ilin iyununda Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana səfərinə ölkəsində böyük önəm verilir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sərdar Berdiməhəmmədova çatdırmağı xahiş etdi. Görüşdə Azərbaycan-Türkmənistan ikitərəfli əlaqələrinin inkişafından məmnunluq bildirildi, ölkələrimiz arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın bu gün Bakıda keçiriləcək iclasında müzakirə ediləcək məsələlər qeyd olundu, energetika, nəqliyyat, logistika, malların qarşılıqlı təchizatı məsələləri barəsində fikir mübadiləsi aparıldı. Söhbət zamanı Azərbaycan ilə Türkmənistan arasında ticarət dövriyyəsinin artdığı qeyd edildi, qarşıdakı dövrdə bu dövriyyənin daha da genişlənməsi üçün birgə layihələrin həyata keçirilməsinin vacibliyi vurğulandı. Eyni zamanda gəmiqayırma, gəmi təmiri və digər sənaye sahələrində əməkdaşlıq imkanları müzakirə edildi.

# Baş nazir Əli Əsədov Tatarıstan Prezidenti Rüstəm Minnixanov ilə görüşüb

Noyabrın 29-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanov ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Tatarıstan arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq bildirilib, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə ikitərəfli əlaqələrin perspektivləri müzakirə edilib. Rüstəm Minnixanovun səfəri çərçivəsində Bakıda keçirilmiş Azərbaycan-Tatarıstan işgüzar forumunun əhəmiyyəti vurğulanıb. Tərəflər əmin olduqlarını bildiriblər ki, Azərbaycan ilə Tatarıstan arasında əməkdaşlıq bundan sonra da qarşılıqlı faydalı Azərbaycan-Rusiya tərəfdaşlığının daha da möhkəmlənməsinə şərait yaradacaq.

## *Məhəmməd bin Abdullah Əl Qərqavi:*

# "İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə əldə edilən nailiyyətlər dost və qardaş BƏƏ-ni sevindirir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Kabinet işləri naziri Məhəmməd bin Abdullah Əl Qərqavini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Məhəmməd bin Abdullah Əl Qərqavi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın və vitse-prezident Şeyx Məhəmməd bin Rəşid Əl-Maktumun salamlarını və xoş sözlərini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə və vitse-prezidentinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı iki ölkənin liderləri arasında səmimi dostluq münasibətlərinin olmasının əlaqələrimizin inkişafında mühüm əhəmiyyət kəsb etdiyi vurğulandı.

Məhəmməd bin Abdullah Əl Qərqavi Bakının gözəlliyinə və təmizliyinə heyran olduğunu bildirdi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin dost və qardaş ölkə olaraq BƏƏ-ni sevindirdiyini diqqətə çatdırdı. Qonaq ölkələrimizin aidiyyəti nazirlikləri və dövlət təşkilatları arasında da yaxın əməkdaşlıq əlaqələrinin qurulduğunu vurğuladı.

Azərbaycana səfəri çərçivəsində "ASAN xidmət" mərkəzi ilə tanışlığını, bu konsepsiyanı böyük maraqla qarşıladığını, burada vətəndaşlara çox səmərəli və operativ xidmət göstərildiyinin şahidi olduğunu deyən Məhəmməd bin Abdullah Əl Qərqavi vətəndaş məmnunluğu prinsipi əsasında fəaliyyət göstərən "ASAN xidmət"in Azərbaycan Prezidentinin uzaqgörən və mükəmməl təşəbbüslərindən biri olduğunu məmnunluqla qeyd etdi, bu sahədə əməkdaşlığın vacibliyini bildirdi.

Birləşmiş Ərəb Əmirliklərinin əldə etdiyi nailiyyətlərin də dost və qardaş ölkə olaraq Azərbaycanı sevindirdiyini diqqətə çatdıran dövlət başçısı BƏƏ rəhbərliyi ilə dostluq münasibətlərini qeyd etdi və ölkələrimiz arasında əməkdaşlığın əhəmiyyətini vurğuladı. İkitərəfli əlaqələrimizin çox yaxşı səviyyəsindən çıxış edərək bərpaolunan enerji sahəsində əməkdaşlığın genişləndirildiyini deyən dövlət başçısı bu xüsusda BƏƏ-nin aparıcı şirkətlərindən olan "Masdar"ın Azərbaycanda investisiya qoyuluşu layihəsini qeyd etdi.

Prezident İlham Əliyev işğal dövründə ərazilərimizdə Ermənistanın törətdiyi dağıntılardan danışdı, hazırda Azərbaycanın həmin ərazilərdə ən müasir şəhərsalma konsepsiyası tətbiq olunmaqla həyata keçirdiyi bərpa-quruculuq işləri barədə məlumat verdi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163 № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, №4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208; № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703; Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 554-VIQD nömrəli, 29 iyun tarixli 573-VIQD nömrəli və 8 iyul tarixli 581-VIQD nömrəli qanunları) 279-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 279.0.1-ci maddədən ", qaza və enerjiyə qənaət sistemlərində" sözləri çıxarılsın.

2. 279.0.2 - 279.0.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"279.0.2. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində nəzərdə tutulmuş enerji auditinin aparılması ilə bağlı tələblərin pozulmasına;

279.0.3. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə uyğun olaraq enerji idarəçisinin (menecerinin) təyin edilməməsinə;

279.0.4. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə uyğun olaraq enerji effektivliyi potensialının qiymətləndirilməsinin nəticələri nəzərə alınmaqla, enerji istehsalçıları üçün müəyyən edilmiş enerji resurslarından səmərəli istifadəyə dair öhdəliklərin yerinə yetirilməməsinə;".

3. 279.0.5-ci maddə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2022-ci il*

# Azərbaycan regionda ABŞ-nin mühüm tərəfdaşıdır

## İki dövlət arasında hərbi əməkdaşlıq qənaətbəxşdir

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ABŞ-yə səfər çərçivəsində bu ölkənin hərbi rəhbərliyi və "Ştatla Tərəfdaşlıq Proqramı" çərçivəsində Oklahoma ştatında bir sıra görüşlər keçirib.



Müdafiə Nazirliyindən qəzetimizə verilən məlumata görə, Azərbaycan nümayəndə heyəti noyabrın 28-də ölkəmizin ABŞ-dəki səfirliyində olub. Sonra Baş Qərargah rəisi ABŞ-nin Birləşmiş Qərargahlar Rəisləri Komitəsi rəisinin birinci müavini admiral Kristofer Qreydi ilə görüşüb. Görüşdə Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlığın perspektivləri və regional təhlükəsizlik məsələləri müzakirə olunub.

ABŞ Müdafiə Nazirliyinin (Pentaqon) yaydığı məlumatda bildirilib ki, tərəflər görüşdə regional təhlükəsizlik məsələlərini və ikitərəfli əlaqələri müzakirə ediblər. Görüşdə o da qeyd olunub ki, Azərbaycan regionda ABŞ-nin mühüm tərəfdaşıdır.

***"Azərbaycan"***

## Milli Məclisin iclasında

# Siyasi sistemin qanunvericilik bazası təkmilləşdirilir

### "Siyasi partiyalar haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edildi





Noyabrın 29-da Milli Məclisin spikeri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. Əvvəlcə iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Komitə sədri Zahid Oruc, deputatlardan Etibar Əliyev, Razi Nurullayev, Aydın Mirzəzadə, Vüqar İskəndərov, Sahib Alıyev, Fazil Mustafa, Tamam Cəfərova, Qüdrət Həsənquliyev, Naqif Həmzəyev çıxışlarında ölkədə və dünyada baş verən önəmli hadisələrdən söhbət açıblar.

Sonra parlamentin spikeri diqqətə çatdırıb ki, iclasın gündəliyinə 28 məsələ daxil edilib, ilk iki məsələ birinci oxunuşda olan qanun layihələridir.

### Ombudsmanın statusunda dəyişiklik

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə konstitusiya qanunu layihəsini (ikinci oxunuş) təqdim edib. Birinci vitse-spiker sənədin zəruriliyindən danışaraq diqqətə çatdırıb ki, layihədə Konstitusiya Qanununa BMT çərçivəsində qoyulan tələblərin icrası və ombudsmana "A" statusunun verilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulub.

Qeyd edilib ki, həm komitə iclasında, həm də plenar iclasda deputatlar bir sıra hüquqi məsələlərə də toxunublar. Bu məsələlər konstitusiya qanununun konstitusiyanin əsas mətninə uyğunlaşdırılması ilə bağlıdır. Bununla əlaqədar olaraq layihədə bir sıra dəyişikliklər təklif olunur. Belə ki, qanun layihəsinin 1.1-ci maddəsindən "qanunlarına" sözü, 3.2-ci maddəsindən isə "əvvəllər" sözü çıxarılır. Eyni zamanda 13-2.2-ci maddədə milli preventiv qrupun üzvlərinə münasibətdə "əvvəllər" sözü çıxarılır. Komitə sədri düzəlişlərin qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırıldığını deyib.

Sonra İnsan hüquqları komitəsinin sədri Zahid Oruc sənəd barədə rəhbərlik etdiyi komitənin rəyini bildirib.

Deputatlar Qüdrət Həsənquliyev, Fazil Mustafa, Hikmət Məmmədov, Erkin Qədirli sənəd barədə fikirlərini söyləyiblər. Birinci vitse-spiker Əli Hüseynli səsləndirilən fikirlərə münasibət bildirib, bəzi məqamlara aydınlıq gətirib.

Konstitusiya qanununun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini diqqətə çatdırıb. Bildirib ki, əsasnaməyə təklif olunan dəyişikliklər miqrasiya orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, onların maddi təminatının yaxşılaşdırılması və vahid əməkhaqqı sisteminin tətbiq edilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Birinci vitse-spiker, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihələri barədə məlumat verib. O, hər iki layihənin Avropa Şurası Konvensiyasının müsadirə edilən əmlakla bağlı maddəsinə uyğun olaraq hazırlandığını bildirib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycan Respublikasının 1995-ci il 10 yanvar tarixli 947 nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edərək ikinci oxunuşdan sonra əlavə təklifin olmadığını söyləyib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrinə də müsbət münasibət bildirilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Dəyişikliklər qanunun 3-cü maddəsinin yeni 2-2-ci hissəsində qeyd olunan qrantların reyestrinin aparılması qaydasını müəyyən edir. Dəyişikliklərə əsasən, həmin maddə ilə müəyyən edilmiş qrantların reyestrinin hansı qaydada aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyənləşdiriləcək.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə də məlumat verib. O bildirib ki, sənəd aksizli və məcburi nişanlama ilə nişanlanmalı malların dövriyyəsinin tənzimlənməsi, bu malların idxalı, istehsalı, satışı və dövriyyəsinə vergi nəzarətinin təmin edilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Daha sonra iclasda Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında və "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda təqdim edilib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, hər üç qanun layihəsi daşınmaz əmlak üzərində hüquqların qeydiyyatının elektron vasitələrlə idarə olunması ilə bağlıdır. Qeyd edilib ki, sənədlərin birinci və ikinci oxunuşu zamanı hər hansı təklif daxil olmayıb.

Qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Komitə sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Tibbi sığorta haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Bildirib ki, adıçəkilən qanunlara təklif olunan dəyişikliklər vergitutma məqsədi ilə davranışların dəqiqləşdirilməsi ilə bağlıdır. Sənəd Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 3 dekabr 2021-ci il tarixli qanuna uyğun olaraq hazırlanıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda "Büdcə sistemi haqqında", "İşsizlikdən sığorta haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi (üçüncü oxunuş) də müzakirə edilib. Qeyd edilib ki, qanun layihəsi büdcədənkənar fondların maliyyə hesabatlarının verilməsi ilə bağlıdır. Layihə "Büdcə sistemi haqqında" qanunda dəyişiklik edilməsi barədə" 2021-ci il 24 dekabr tarixli qanunun icrası məqsədilə hazırlanıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

### Baytarlıq arayışının alınması ilə bağlı dövlət rüsumu ləğv edilir

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Sənəd sahibkarlığa dövlət dəstəyinin artırılması, istehlakçıların hüquqlarının qorunması, heyvan mənşəli məhsullarda kəskin qiymət artımının qarşısının alınması məqsədilə baytarlıq yükünün daşınması üçün tələb olunan baytarlıq arayışının alınması ilə bağlı dövlət rüsumunun ləğv edilməsi ilə əlaqədar hazırlanıb.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məsələ ilə əlaqədar komitənin müsbət rəy verdiyini söyləyib.

Sonra Tahir Rzayev "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) haqqında məlumat verib. Təklif olunan dəyişikliyə əsasən, baytarlıq yükünün daşınması üçün tələb olunan arayışın alınmasına görə dövlət rüsumu ləğv olunur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İclasda Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. Təklif olunan dəyişikliklər dövlət idarəetməsinin təkmilləşdirilməsi məqsədi ilə yeni yaradılan dövlət orqanlarında vəzifə tutan dövlət qulluqçularının inzibati vəzifələrinin müvafiq təsnifata aidiyyətinin müəyyənləşdirilməsi məqsədi daşıyır.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra parlamentin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti məsələsi Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. O qeyd edib ki, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır və bir oxunuşda baxılaraq qəbul ediləcək.

Əmək və sosial siyasət komitəsinin üzvü Sevinc Hüseynova həmin qanun layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, layihə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" 2022-ci il 13 may tarixli Qanunun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanunun tətbiq edilməsi barədə" Azərbaycan Prezidentinin 2001-ci il 19 iyul tarixli Fərmanında dəyişiklik edilməsi haqqında" Prezidentin 2022-ci il 8 iyun tarixli Fərmanının icrasının təmin edilməsi barədə" Nazirlər Kabinetinin 2022-ci il 14 iyun tarixli Sərəncamının birinci hissəsinin icrası məqsədilə hazırlanıb.

Qanun layihəsi qəbul edilib.

### İnstitusional dəyişikliklər "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulunu zəruri edir

Spiker Sahibə Qafarova növbəti məsələlərin birinci oxunuşda olan qanun layihələri olduğunu qeyd edərək deputatlardan birinci oxunuşun tələblərini nəzərə almalarını xahiş edib. Bildirib ki, gündəliyin 22-ci məsələsi "Siyasi partiyalar haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

Qanun layihəsi barədə məlumat verən Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli hazırda qüvvədə olan müvafiq qanunun 30 il əvvəl qəbul edildiyini deyib və Azərbaycanın həmin dövrü ilə indiki dövrü arasında müqayisə apararaq bu müddətdə ölkənin ictimai-siyasi həyatında baş verən köklü dəyişiklikləri diqqətə çatdırıb. Xüsusən də torpaqlarını işğaldan azad edən qalib Azərbaycanın beynəlxalq münasibətlər sistemində söz sahibi olduğunu vurğulayan Fəzail İbrahimli yeni reallıqların və tələblərin, həmçinin keçən dövr ərzində Azərbaycanda qanunvericiliyin təkmilləşdirilməsində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlərin yeni qanunda təsbit olunmasının zərurətindən danışıb.

Fəzail İbrahimli bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə həyata keçirilən ardıcıl və sistemli islahatlar nəticəsində dövlət və cəmiyyət həyatında baş verən böyük dəyişikliklər prosesinə Milli Məclis qanunvericilik müstəvisində öz töhfəsini verməyə bilməzdi. Beləliklə, parlamentdə təmsil olunan siyasi partiya nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı Milli Məclisin Sədri Sahibə Qafarovaya müraciət ediblər. Parlamentin Sədri siyasi partiyaların təklifini dəstəkləyib və yeni qanun layihəsinin hazırlanması haqqında tapşırıq verib.

Fəzail İbrahimli İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələri tərəfindən qanun layihəsinin hazırlanması prosesi barədə məlumat verib. O, layihə hazırlanarkən dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənildiyini, ölkənin siyasi sisteminin və milli xüsusiyyətlərinin, bununla yanaşı, Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi haqqında tövsiyələrinin nəzərə alındığını bildirib. F.İbrahimli bu məsələ ilə bağlı Milli Məclisin ölkədə fəaliyyət göstərən siyasi partiyalara müraciət etdiyini və 47 siyasi partiyadan 250-dən çox təklifin daxil olduğunu, həmçinin Sosial Tədqiqatlar Mərkəzinin qanun layihəsi ilə bağlı sorğu həyata keçirdiyini diqqətə çatdırıb.

Vitse-spiker bildirib ki, bütün bunlar ümumiləşdiriləndən sonra qanun layihəsi geniş ictimaiyyətin müzakirəsinə təqdim olunub. Sonra qanun layihəsi ilə bağlı siyasi partiya təmsilçilərinin və Qeyri-Hökumət Təşkilatlarının nümayəndələrinin iştirakı ilə geniş dinləmələr və müzakirələr keçirilib. Aparılan müzakirələrdə səslənən fikirlər, irəli sürülən təkliflər nəzərə alınmaqla, qanun layihəsi üzərində iş davam etdirilib və sənəd yenilənmiş variantda müzakirəyə çıxarılıb. O bildirib ki, sənədin yenilənməsi zamanı layihədə 66 dəyişiklik edilib.

Sonra qanun layihəsi ilə bağlı çıxış edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanmasının "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərindən irəli gəldiyini, dünya təcrübəsində və ölkə qanunvericiliyində baş verən dəyişikliklərlə bağlı olduğunu diqqətə çatdırıb.

Əli Hüseynli qanun layihəsinin Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olmasını, habelə birləşmək azadlığı hüququnu özündə tam ehtiva etdiyini vurğulayıb. O, komitədə sənədin geniş müzakirə edildiyini, komitənin rəyinin müsbət olduğunu bildirib və belə bir əminlik ifadə edib ki, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi qəbul olunduqdan sonra ölkədə siyasi islahatların həyata keçirilməsinə, siyasi sistemin təkmilləşdirilməsinə öz töhfəsini verəcək.

Sonra iclasda parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxış edib. O, dövlətin idarə olunmasında və hakimiyyətin formalaşmasında əsas institutlardan biri olan partiyalarla bağlı yeni qanun layihəsinin demokratik prinsiplərə əməl edilməklə, şəffaflıq şəraitində hazırlandığını qeyd edib. O bildirib ki, Yeni Azərbaycan Partiyasının yubiley mərasimində Prezident İlham Əliyevin nitqi 30 illik ictimai-siyasi tariximizin xronikası, eləcə də siyasi qüvvələrin yaranması və keçdiyi inkişaf yolunun dolğun şəkildə qiymətləndirilməsi idi. Ölkə rəhbəri yeni dövlət quruculuğunu güclü partiyalar sistemi ilə birgə gördüyünü bəyan edib. Zahid Oruc vurğulayıb ki, Prezidentin çıxışını alqışlarla qarşılayan yüzlərlə məsləkdaşları ilə bərabər, 50-yə qədər partiya rəhbərinin siyasi-ideoloji baxışlarındakı fərqlərə baxmayaraq, yeni qalib siyasi sistemi və yeni milli hədəfləri dövlətlə bir görməsi tarixi hadisə idi. Qeyd olunub ki, ona görə də dövlət idarəçiliyində baş verən yeni institusional dəyişikliklər "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulunu zəruri edir.

"Siyasi partiyalar haqqında" yeni qanunun qəbulunu zəruri edən digər məqamlara da toxunan komitə sədri Azərbaycanın sağlam, rəqabətədavamlı, demokratik, sivil siyasi mübarizə ənənəsini yaratmağa qadir olan siyasi qüvvələrə ehtiyac duyduğunu deyib. Zahid Oruc çıxışında layihəyə edilən dəyişikliklər nəticəsində müzakirələr zamanı bəzi məqamlarla bağlı narahatçılıq doğuran məsələlərin aradan qaldırılması, layihəyə yeni müddəaların salınması barədə ətraflı məlumat verib. O, yalnız mənəvi baxımdan deyil, həm də siyasi və hüquqi cəhətdən köhnələn əvvəlki qanunun yenisi ilə əvəz olunmasının siyasi partiyaları yeni keyfiyyət və kəmiyyət mərhələsinə çıxaracağını bildirib.

Sonra qanun layihəsi ətrafında müzakirələr başlayıb. Komitə sədri Ziyafət Əsgərov fikirlərini açıqladıqdan sonra iclasda fasilə elan olunub.

Fasilədən sonra "Siyasi partiyalar haqqında" qanun layihəsi ilə bağlı müzakirələr davam etdirilib. Müzakirələrdə komitə sədrləri Tahir Rzayev, Siyavuş Novruzov, deputatlar Elşən Musayev, Fəzail Ağamalı, Fazil Mustafa, Azay Quliyev, Azər Badamov, Elman Nəsirov, Razi Nurullayev, Tahir Kərimli, Hikmət Məmmədov çıxış ediblər, sənədlə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

Milli Məclisin Sədri Sahibə Qafarova işçi qrupuna səslənən fikirləri və təklifləri nəzərdən keçirməyi tapşırıb.

Müzakirələrin sonunda qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, dəyişikliyə əsasən, dayanma və ya durma qaydalarının pozulması ilə bağlı bütün növ inzibati xətalara görə məsuliyyətin foto və ya videoqeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrdən istifadə edilməklə elektron qaydada tərtib edilən qərarlar əsasında müəyyən edilməsi qaydası nəzərdə tutulur.

### Sürəti saatda 50 kilometrdən artıq olan bütün nəqliyyat vasitələrində dövlət qeydiyyat nişanı olacaq

Kamal Cəfərov "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı da məlumat verib. Deputat çıxışında yol-nəqliyyat hadisələri ilə bağlı bəzi statistik rəqəmləri diqqətə çatdırıb. O diqqətə çatdırıb ki, moped sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması, qəzaların baş verməsi və bu qaydaları pozanların cəzasız qalması hallarının qarşısının alınması üçün "Yol hərəkəti haqqında" qanuna dəyişiklik edilməsi təklif olunur. Dəyişikliyə əsasən, maksimal sürəti saatda 50 kilometrdən artıq olan bütün nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanı ilə təmin edilməsi və sürəti saatda 50 kilometrdən çox olan nəqliyyat sürücülərinin sürücülük vəsiqəsi alması təklif olunur. Deputat bu prosesin asan və şəffaf həyata keçirilməsi üçün xüsusi komissiyanın yaradıldığını söyləyib.

Hər iki qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Bildirib ki, qanuna təklif olunan dəyişikliklər valyuta sahəsində münasibətlərin tənzimlənməsi ilə bağlı yeni effektiv mexanizmlərin tətbiqi ilə bağlıdır. Qanuna valyuta əməliyyatları barədə vahid informasiya sistemi ilə bağlı yeni maddə əlavə olunur.

Komitə sədri Azərbaycan Respublikasının "Banklar haqqında", "Poçt haqqında", "Fərdi məlumatlar haqqında" qanunlarında və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, layihə "Valyuta tənzimi haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsinə uyğun olaraq hazırlanıb. Sənədə əsasən, banklar və poçt rabitəsinin milli operatoru valyuta nəzarəti agenti hesab olunduqlarına görə, apardıqları valyuta əməliyyatları barədə məlumatı Mərkəzi Bankda yaradılmış vahid informasiya sisteminə daxil etməlidirlər.

Birinci vitse-spiker, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bu məsələ ilə bağlı diqqətə çatdırıb ki, İnzibati Xətalar Məcəlləsinə yaradılması nəzərdə tutulan informasiya sisteminə məlumatların təqdim edilməməsinə, yaxud düzgün təqdim edilməməsinə görə inzibati məsuliyyəti nəzərdə tutan dəyişiklik təklif olunur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Daha sonra "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) təqdim edilib. Bildirilib ki, qanuna yeni maddənin əlavə olunması nəzərdə tutulub. Əlavəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təsdiqedici sənədi əsasında ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazilərin rezidentləri tərəfindən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq olunmuş istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən 10 il müddətinə gömrük rüsumundan azad edilir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva gündəliyin son məsələsi - Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, qanun layihəsi "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli Qanununun icrası ilə əlaqədar hazırlanıb.

Layihədə təqdim edilmiş qanunlara və məcəllələrə təklif edilən dəyişikliklər Konvensiyaya uyğun olaraq qabaqlayıcı tədbirlər, qurbanlara yardım və maddi cinayət hüquqi normalarından irəli gələn öhdəliklərin milli qanunvericilikdə yerinə yetirilməsini nəzərdə tutur. Bu dəyişikliklər Konvensiyaya uyğun olaraq, uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın bütün formalarının qarşısını almaq və uşaqları qorumaq, eyni zamanda belə zorakılığın qurbanı olmuş şəxslərə yardımın göstərilməsi üçün zəruri qanunvericilik bazasının yaradılmasını nəzərdə tutur.

Cinayət Məcəlləsinə təklif edilən dəyişikliklərdə isə Məcəllənin şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər fəslində nəzərdə tutulan bəzi cinayət tərkibləri təkmilləşdirilir. Bununla yanaşı, qeyd edilən cinayət əməlləri yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə həmin maddələrin sanksiyalarının sərtləşdirilməsi nəzərdə tutulur.

Jalə Əliyeva qanun layihəsinin Ailə, qadın və uşaq məsələləri komitəsində və Əmək və sosial siyasət komitəsində müzakirə olunaraq plenar iclasa tövsiyə edildiyini söyləyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev bu komitələrin məsələ ilə bağlı rəylərini diqqətə çatdırıblar.

Sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




# Hərb, yoxsa sülh?!

## "Dəmir yumruq" Ermənistandan və onun havadarlarından konkret seçim tələb edir

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ətrafında danışıqlar davam edir. Azərbaycan qalib tərəf kimi prosesi öz diktəsi ilə idarə edir, Ermənistan isə müxtəlif bəhanələr gətirməklə öz aləmində vaxt uzadır. Amma bu ölkə anlamır ki, Azərbaycan torpaqlarını artıq işğaldan azad edib, nə "Dağlıq Qarabağ" var, nə də "status".

İndi reallıq budur ki, Azərbaycan işğaldan azad etdiyi torpaqlarla bağlı özü qərar verir, Ermənistan kimi kiminsə qulu-vassalı deyil.

Tərəflər arasında aparılan sülh danışıqları həm Rusiyanın, həm də Avropa İttifaqının vasitəçiliyi ilə reallaşır. Tərəflər arasında intensiv təmaslar yaradılıb. Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə 3, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsləri ilə 5 görüş keçirilib.

Bu formatlarda tərəflər arasında keçirilən görüşlərdə müəyyən razılaşmalar əldə olunub, müvafiq bəyanatlar da imzalanıb. Praqa və Soçidə keçirilən son iki görüşdə imzalanan bəyanatlar isə digər sənədlərdən bir qədər fərqlənib. Düzdür, imzalanan bütün bəyanatlarda Azərbaycanın diplomatik üstünlüyü özünü göstərib. Son iki bəyanatda yer alan müddəalara əsasən isə Ermənistan Qarabağın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiqləyib. Qəbul edilmiş bəyanatlar da isbat etdi ki, danışıqlar tam olaraq rəsmi Bakının diktəsi fonunda keçir və sənədlər Azərbaycanın istəklərinə uyğun formada qəbul olunur.

Göründüyü kimi, yenə də gündəliyi Azərbaycan Prezidenti müəyyənləşdirir. Bütün ağrılı məqamlara, işğalın ağır fəsadlarına, törədilmiş erməni vəhşiliklərinə baxmayaraq, İlham Əliyev bölgənin gələcəyi naminə sülh gündəliyi təqdim edir. Həm də Ermənistanın düşdüyü sosial-iqtisadi bataqlıqdan qurtulması üçün yol göstərir.

Noyabrın 25-də Bakıda, ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransda İlham Əliyev bir daha aparılan danışıqlara toxunaraq vurğuladı ki, Praqa görüşünün kommünikesinə əsasən, Ermənistan ilk dəfə olaraq rəsmi şəkildə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıyıb və bu həm də Azərbaycanın Qarabağ üzərində suverenliyi deməkdir. Həmçinin Praqa bəyanatında keçmiş sovet respublikalarının inzibati sərhədlərini faktiki formalaşdıran 1991-ci il Almatı Bəyannaməsinə istinad edilir və bu da o deməkdir ki, Qarabağ ermənilər üçün hansısa statusun olması ilə bağlı hər hansı spekulyasiyadan söhbət gedə bilməz: "Beləliklə, Avropa İttifaqı formatına qayıtmaq vacib idi, çünki biz Brüsseldəki bu qarşılıqlı əlaqələr sayəsində iki yola ayrılmağa razılaşdıq. Biri Ermənistan-Azərbaycan sülh müqaviləsi üzrə danışıqlar, ikinci yol isə bizim Qarabağdakı erməni azlığın nümayəndələri ilə iki məsələnin həlli ilə bağlı danışıqlarımız - onların hüquqları və təhlükəsizliyidir. Bu razılaşdırıldı və buna görə də demək istədiyim odur ki, bu, nəticəyönümlü tədbir idi. Praqadakı görüşün formatı isə bir qədər fərqli idi. Çünki Fransa Prezidenti Makron bizim qrupumuza qoşuldu və mən burada bu məsələni şərh etməyi dayandırıram. Bir daha deyirəm, Praqa görüşünün nəticəsi bizim üçün uğurlu idi. Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdı".

Bunun ardınca isə İlham Əliyev son zamanlar aparılan danışıqlara Fransanın müdaxilə etməsini və Azərbaycana qarşı qərəzli qətnamə qəbul etməklə Ermənistana dəstək göstərməsini faktlar əsasında ortaya qoydu. Eyni zamanda bildirdi ki, Ermənistan və onun havadarlarının istəyi sülh sazişinin imzalanması deyil, danışıqlar prosesinin uzanmasıdır: "Sülh prosesi sülh sazişinin imzalanmasına gətirib çıxaracaq və onlar etiraf etməli olacaqlar ki, Qarabağla bağlı heç nə yoxdur və istər Moskvada, istər Soçidə və ya Brüsseldə qəbul edilən bütün sənədlərdə Qarabağa istinad edilmir. Ona görə də ola bilsin ki, Ermənistan tərəfi heç bir nəticəyönümlü ssenari olmadan prosesi sonsuz etmək üçün işğal zamanı da istifadə etdiyi köhnə taktikadan istifadə etmək qərarına gəlib. Beləliklə, əgər bu onların seçimidirsə, biz nə edə bilərik. Biz onları imzalamağa məcbur edə bilmərik. Bu o deməkdir ki, sülh müqaviləsi olmayacaq, bu o deməkdir ki, sülh olmayacaq və sülh yoxdursa, onda nə olacaq?!"

Həqiqət budur ki, qalib tərəf kimi Azərbaycan sülh sazişinin imzalanması üçün əlindən gələni, öhdəsinə düşəni reallaşdırmağa tam hazır vəziyyətdədir. Yəni İlham Əliyev Vətən müharibəsində əldə edilən zəfərdən sonra bölgədə sülh və əməkdaşlığa nail olmaq üçün postmüharibə dövründə də sülh kontekstində regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir. Savaşdan sonra hərbi potensialını gündən-günə gücləndirən, sərhəddəki mövqelərini daha da möhkəmləndirən Azərbaycan sülhün, qarşılıqlı olaraq bir-birlərinin ərazi bütövlüyünü tanıyaraq Cənubi Qafqazda sabitliyin bərqərar olması üçün addımlar atır. Bununla yanaşı, prosesin alternativinin nə ilə nəticələnəcəyini də Ermənistana göstərməklə deyir ki, sülh sazişinin imzalanmaması Ermənistan üçün böyük fəlakət olacaq.

İlham Əliyevin bu mesajı Ermənistana 2 yol göstərir. Ya 5 prinsipi qəbul edib sülh sazişi imzalanmalı, ya da "dəmir yumruq" yenidən işə düşməlidir. Təbii ki, 44 günə diz çökən Ermənistan bir daha ağır zərbə almaq istəməz. Bu, Ermənistanın hərtərəfli çöküşü, məhvi ilə nəticələnməsi deməkdir. Görünən odur ki, Ermənistan rəhbərliyi ölkənin daha acınacaqlı duruma düşməməsi üçün Azərbaycanın bütün tələblərini yerinə yetirməklə sülh sazişini imzalamağa məcburdur. Yəni Ermənistanın qurtuluşu sülh sazişindən keçir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# İlham Əliyev sülh düşmənlərini təcrid edir

## Azərbaycan bütün müstəvilərdə Ermənistan və Fransanın pozuculuq cəhdlərinin qarşısını alır

"Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransda Prezident İlham Əliyev bəyan etdi ki, Fransa Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında iştirak edə bilməz. Bəli, Prezident Makronun və bu ölkənin qanunvericilik hakimiyyətinin məlum davranışlarından sonra Fransa danışıqlar prosesində iştirak etmək imkanını tam itirib.



### Fransanın avantüraları Ermənistana yaxşı heç nə vəd etmir

Fransa müharibəyə qədər vasitəçilik missiyasını həyata keçirən ATƏT-in keçmiş Minsk qrupunun həmsədri olsa da, heç vaxt danışıqlar prosesində ədalət və obyektivlik nümayiş etdirməmişdi. Bu gün Azərbaycanı haqsız olaraq ittiham edən, ölkəmizə qarşı məkrli qətnamələr qəbul edən bu ölkənin siyasi dairələri Azərbaycan torpaqlarının işğal olunması ilə bağlı bir dəfə də olsun Ermənistana qarşı adi fikir belə səsləndirməmişdilər. Nə Fransa rəhbərliyi, nə də bu ölkənin artıq mövcud olmayan Minsk qrupundakı həmsədrləri bircə dəfə də olsun Azərbaycanın işğala məruz qaldığını ifadə etməmişdilər.

Bu gün dönüb tarixə nəzər salanda görürük ki, Ermənistana görə yaxasını cıran Fransanın əsl məqsədi, əslində, Azərbaycan torpaqlarının işğal edilməsinə dəstək vermək olub. Elə ona görə də Vətən müharibəsi günlərində Azərbaycan BMT Nizamnaməsinə uyğun öz torpaqlarını işğaldan azad edəndə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini güc yolu ilə təmin edəndə buna qarşı çıxan Fransa oldu. Vətən müharibəsi günlərində maskası cırılan, özünü ifşa edən Paris hətta BMT-də respublikamıza təzyiq vasitəsi kimi sənədin qəbuluna cəhd göstərsə də, Azərbaycanın uğurlu diplomatiyası nəticəsində fiaskoya uğradı.

Vətən müharibəsindən sonra Fransa dərk etdi ki, artıq işğal haqqında danışmaq və ya Azərbaycana hansısa yolla təzyiq göstərmək mümkün deyil. Fransa anlayır ki, bu müharibədə Bakı həm də Parisi məğlub edib, Azərbaycan Fransanın Ermənistanın işğalına dəstək siyasətini darmadağın edib. Fransa siyasi dairələrində onu da bilirlər ki, bu ölkənin qanunvericilik orqanında hansısa sənədin qəbulunun heç bir faydası yoxdur. Elə Ermənistanda da anlayırlar ki, bu yolla "böyük bacı" "kiçik bacı"sına yalnız təsəlli verir.

Bütün bunların nəticəsi olaraq danışıqlar prosesində iştirakı qeyri-mümkün olan, başqa cür desək, Azərbaycan tərəfindən bu prosesdən təcrid olunan Fransa indi Ermənistanın sorosçu hakimiyyətinin təmsilçilərini davamlı şəkildə Parisə dəvət edir, onlara verdiyi təlimatlarla sülh müzakirələrini əngəlləməyə çalışır. Elə Paşinyanın bu il dekabrın 7-də keçirilməsi nəzərdə tutulan növbəti görüşdə E.Makronun iştirakını tələb etməsi də danışıqlar prosesini pozmağa hesablanmış addımdır.

Fransanın 30 ilə yaxın Ermənistana verdiyi dəstəyin nəticəsi göz önündədir. Ermənistan deyəndə inkişafdan geri qalan, regional inteqrasiyadan təcrid edilən, müharibədə məğlub olan vassal bir ölkə göz önünə gəlir. Ona görə Parisin və ya digərinin İrəvana yeni avantüraları da ermənilərə yaxşı heç nə vəd edə bilməz.

### İrəvan KTMT-də boykot edilir

Azərbaycan Prezidenti Fransa ilə yanaşı, Ermənistanı da təcrid edir. Amma bir qədər fərqli formada. Belə ki, İrəvan təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) da çıxılmaz vəziyyətə salındı.

Məsələ ondadır ki, Ermənistan istisna olmaqla, Azərbaycan KTMT-nin digər üzvləri ilə yüksək siyasi əlaqələrə malikdir. Bakının Belarusla olduqca yüksək siyasi və iqtisadi münasibətləri var. Bir-birindən coğrafi uzaqlıqda yerləşmələrinə, ayrı-ayrı mədəniyyətlərin daşıyıcıları olmalarına baxmayaraq, Azərbaycanla Belarus etibarlı tərəfdaş və yaxın dost olan dövlətlərdir.

Qazaxıstan və Qırğızıstan isə türk dövlətləridir. Həm Qazaxıstan, həm də Qırğızıstan Azərbaycan və Türkiyə ilə birlikdə Türk Dövlətləri Təşkilatının qurucu üzvləridir. Bu dövlətlərlə Azərbaycanı ortaq milli-mədəni dəyərlər, soy-kök birləşdirir. Bu yaxınlarda Türk Dövlətləri Təşkilatının Özbəkistanın Səmərqənd şəhərində keçirilən IX Zirvə Görüşü bu dövlətlər arasında dostluq və qardaşlıq münasibətlərinin təcəssümü oldu.

KTMT-nin digər üzvləri olan Rusiya və Tacikistanla Azərbaycanı hərtərəfli yüksək münasibətlər birləşdirir.

Xatırlayırıq ki, hələ 2020-ci ilin Tovuz döyüşləri zamanı geri otuzdurulan Ermənistan dərhal riyakarcasına Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etmişdi. Lakin KTMT Ermənistanın baş naziri Nikol Paşinyanın müraciətini cavabsız qoymuş, onu pərt vəziyyətinə salmışdı. Eləcə də bu ilin sentyabr ayında Ermənistanın növbəti təxribatından sonra Paşinyan dərhal KTMT ilə əlaqə saxlamışdı. KTMT yenə də Ermənistanın təxribatlarına uymamışdı. Təşkilatın Ermənistanın təxribatçı addımlarına qarşılıq verməməsinin əsas səbəbi isə təbii ki, onun üzvü olan dövlətlərin Azərbaycanla olan dostluq münasibətləridir. Bu dostluq elə bir səviyyədədir ki, onun sayəsində Ermənistan hətta bir neçə gün əvvəl evsahibliyi etdiyi KTMT-nin iclasında da dəstək ala bilmədi. "Hətta üzv olmadığımız təşkilatlarda da bizim dostlarımız az deyil və son illərin, ayların hadisələri onu bir daha göstərir. Məsələn, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı. Biz bu təşkilatın üzvü deyilik, Ermənistan bu təşkilatın üzvüdür və bu təşkilat xətti ilə Azərbaycana qarşı əsassız iddia qaldırmaq fikrində idi, faktiki olaraq bu təşkilata üzv olan ölkələri Azərbaycanla üz-üzə qoymaq istəyirdi. Bu, böyük təxribatdır və böyük cinayətdir. Ancaq bu təşkilatın digər üzvləri bu təxribata getmədilər. Bəziləri isə öz çıxışlarında Ermənistanı elə günə qoydular ki, Ermənistanda bu günə qədər də bunu yaddan çıxara bilmirlər", - deyə Prezident İlham Əliyev bildirib.

Ermənistanın KTMT-yə güvənməklə Azərbaycana qarşı hansısa niyyətlərini həyata keçirə bilməsi mümkün deyil. Əksinə, Ermənistan hətta bir neçə gün əvvələ qədər sədrlik etdiyi bu təşkilatda Azərbaycan tərəfindən təcrid vəziyyətinə salınır, pərt edilir. Azərbaycanın dostları tərəfdaşlığa sadiq qalaraq iştirak etmədiyimiz bu təşkilatda ölkəmizin haqlı mövqeyini qətiyyətlə müdafiə edirlər.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Qarabağ və Şərqi Zəngəzurun bərpasına mühüm dəstək

## Bu prosesdə iştirak edən şəxslərə vergilərdən 10 illik azadolma və əlavə imtiyazlar tətbiq ediləcək

Zəfərlə bitən Vətən müharibəsindən ötən iki il müddətində Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda quruculuq və bərpa işləri ilə əlaqədar mühüm layihələr gerçəkləşdirib. Artıq qələbədən sonra Böyük qayıdışa start verilib və Zəngilan rayonunun Ağalı kəndinə sakinlər köçürülüb.

İşğaldan azad edilən ərazilərdə hazırda iki beynəlxalq hava limanı fəaliyyət göstərir: Füzuli və Zəngilan hava limanları. Üçüncü beynəlxalq Hava limanının isə Laçında sürətli tikintisi gedir. Tarixi ərazilərimizdə yol, enerji, su və digər kommunikasiya layihələrinin həyata keçirilməsi davam etdirilir. Ötən iki il ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən quruculuq bərpa işləri ilə əlaqədar dövlət büdcəsindən bütövlükdə 5 milyard manata yaxın vəsait ayrılıb.

Gələn ilin büdcə siyasətinin qarşısında duran əsas çağırışlardan biri Böyük qayıdışın tərkib hissəsi kimi Qarabağ və Şərqi Zəngəzurda əhalinin dayanıqlı məskunlaşması üçün ilkin şərtlərin yaradılmasıdır. Buna görə də işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin daha geniş həcmdə davam etdirilməsi, keçmiş məcburi köçkünlərin öz əzəli yurdlarına mərhələli şəkildə qayıtması və məskunlaşması, bunun üçün sosial-məişət, təhlükəsizlik və məşğulluq şəraitinin yaradılması üzrə tədbirlərin həyata keçirilməsi, həmin ərazilərdə dövlət idarəetmə qurumlarının təşkili və fəaliyyəti ilə bağlı 2023-cü ilin dövlət büdcəsinin layihəsində müvafiq maliyyə təminatı yaradılıb. Belə ki, 2023-cü ildə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait ayrılması nəzərdə tutulur. Bu da 2022-ci illə müqayisədə 330 milyon manat və ya 12,4 faiz çoxdur.

### Vergi təşviqləri həyata keçiriləcək

Eləcə də işğaldan azad edilən ərazilərdə əmək fəaliyyəti ilə məşğul olan şəxslərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülür. Artıq gələn ildən işğaldan azad edilmiş ərazilər üzrə vergi təşviqlərinin verilməsi ilə bağlı məsələlər də qanunla təsbit olunub.

Belə ki, Milli Məclisdə müzakirə edilən Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə əsasən, məcəlləyə 5 istiqamətdə 42 dəyişiklik edilməsi nəzərdə tutulub.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, sənəddə işğaldan azad edilmiş ərazilər üzrə vergi təşviqlərinin verilməsi qərara alınıb. Məcəlləyə bununla bağlı yeni fəslin əlavə edilməsi təklif olunur. Əlavədə işğaldan azad edilmiş ərazinin rezidentlərinin 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilməsi, habelə bu azadolmanın işğaldan azad edilmiş ərazinin rezidentinin həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil edilməsi nəzərdə tutulur. Bununla yanaşı, ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazinin rezidentləri tərəfindən istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalının 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azad edilməsi, hüquqi şəxslərin səhmdarlarının dividend gəlirlərinin 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində vergidən azad edilməsi və bir sıra digər güzəştlər təklif olunub.

Miqrasiya Məcəlləsinə təklif olunan dəyişikliyə əsasən, işğaldan azad edilmiş ərazilərdə əmək fəaliyyətinə




cəlb edilənlərə münasibətdə iş icazəsinin müddəti hər dəfə 2 ildən çox olmamaq şərtilə uzadıla bilər.

### Mütəxəssislər üçün birdəfəlik müavinət müəyyən olunub

İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən qeyri-dövlət sektoru üzrə neft-qaz sahələrində fəaliyyəti olmayan sığortaedənlər tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması da nəzərdə tutulur. Bununla bağlı "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi nəzərdə tutulur. Bu barədə Milli Məclisin noyabrın 25-də keçirilən plenar iclasında məlumat verən Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, layihədə təklif olunan dəyişiklik işğaldan azad edilmiş ərazilərdə qeyri-dövlət qeyri neft-qaz sektoru üzrə 10 il müddətində məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması mexanizmini, o cümlədən tətbiq ediləcək kontingent və şərtləri müəyyən edir. Sosial sığorta haqlarının subsidiyalaşdırılması 2023-2026-cı illərdə 100 faiz, 2026-2029-cu illərdə 80 faiz, 2029-2031-ci illərdə 60 faiz, 2031-2033-cü illərdə 40 faiz miqdarında təmin ediləcək.

Eyni zamanda "Sosial müavinətlər haqqında" qanunda da dəyişiklik edilməsi nəzərdə tutulub. Dəyişikliyə əsasən, işğaldan azad edilmiş ərazilərdə işləyən mütəxəssisə Əmək Məcəlləsinə əsasən, bu ərazilərdə işləmək üçün azı bir il müddətinə bağlanılmış əmək müqaviləsi olduqda ilkin maddi-məişət şəraitinin dəstəklənməsi üçün 2023-cü il yanvarın 1-dən 5 il müddətinə birdəfəlik müavinət müəyyən olunacaq.

Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində isə məcəlləyə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssis" anlayışı əlavə olunması nəzərdə tutulub. Bu barədə məlumat verən Musa Quliyev bildirib ki, həmin mütəxəssislərə məcəllə ilə güzəşt və imtiyazlar müəyyən olunacaq. Təklif olunan dəyişiklikdə mütəxəssislərin 2023-cü ildən 5 il müddətində əsas və əlavə məzuniyyət müddətindən asılı olmayaraq, əlavə 5 gün ödənişli məzuniyyət hüququ əldə etməsi qeyd olunub. Məcəllənin müvafiq maddəsinə 2023-cü il yanvarın 1-dən 5 il müddətində işğaldan azad edilmiş ərazilərdə işləyən mütəxəssislərin əmək haqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların tətbiq edilməsi ilə bağlı dəyişiklik nəzərdə tutulub.

Sözügedən qanun layihələri artıq ikinci oxunuşda qəbul olunub.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***




# İlham Əliyev Azərbaycana regional və beynəlxalq üstünlüklər qazandırıb

## İran və Ermənistan heç bir əngəl yarada bilməz

**Prezident İlham Əliyevin güclü siyasi iradəsi sayəsində formalaşan yeni inkişaf modeli Azərbaycanı beynəlxalq aləmdə güclü və nümunəvi dövlət kimi tanıdır. Prezidentin təşəbbüsü ilə həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsinə nail olunub, Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinin mərkəzinə, eləcə də Avropanın enerji təminatçısına çevrilib.**



*Zəfərimiz iqtisadi əməkdaşlıq imkanlarını artırıb*

Bu barədə danışan Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova deyib ki, son illərdə regional, o cümlədən də şərq-qərb, şimal-cənub istiqamətli əməkdaşlıq əlaqələrinin inkişafında ölkəmizin rolu əvəzedilməzdir: "Vətən müharibəsində qazanılmış zəfər yeni dövrdə iqtisadi əməkdaşlıq potensialının daha da gücləndirilməsinə yol açıb. Bu gün Çindən başlayan yol məhz Azərbaycan vasitəsilə Qərbə doğru uzanır. Azərbaycanın yeni geosiyasi nizamda tutduğu bu yer düzgün siyasi kursa əsaslanır. Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasət kursu ölkəmizin beynəlxalq arenadakı cari regional lider rolunu və yerini müəyyənləşdirib".

Ə.Kazımova qeyd edib ki, Azərbaycanın Avropanın enerji təminatında iştirakı ilə bağlı çoxvektorlu siyasət yürütməsi böyük uğurlarla müşahidə olunur. O bildirib ki, bu gün Azərbaycan Avropanın enerji təminatında mühüm mərkəz qismində iştirak edir.

"Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan Trans-Adriatik boru kəməri təxminən iki il əvvəl tamamlanıb. Bununla belə tələbat gündən-günə artır. Cənab Prezident də öz çıxışında vurğuladı ki, artıq bu gün biz həcmin iki dəfə - 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər artırılmasına tələbatı görürük: "Bunun üçün bütün pay sahiblərinin konsolidasiya olunmuş mövqeyi və sərmayəsi lazım olacaq. Azərbaycan TAP-da yalnız 20 faiz paya sahibdir. TANAP-ın 16 milyard kubmetrdən 32 milyard kubmetrə genişlənməsi gözlənilir. Azərbaycan özünün enerji siyasətini şaxələndirməklə mühüm üstünlüklər əldə edir. Bu ilin iyul ayında Azərbaycan Avropa Komissiyası ilə enerji təchizatını iki dəfə artırmaq üçün anlaşma memorandumu imzalayıb. Azərbaycanın enerji potensialı da kifayət qədər zəngindir. Qarşıdakı illərdə istismara verilməsi planlaşdırılan yeni qaz yataqlarımız mövcuddur", - deyə partiya sədri bildirib.

*Regionun nəqliyyat-infrastruktur layihələrinə maneə yaradıla bilməz*

Partiya sədri qeyd edib ki, qlobal layihələrin reallaşması üçün ilkin növbədə daxili sabitlik olmalıdır. Onun dediyinə görə, Orta dəhlizin tam istismara verilməsinə nail olmaq üçün təhlükəsizlik və iqtisadi potensial ən vacib şərtlərdəndir: "Prezident İlham Əliyev "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransdakı çıxışında da bildirdi ki, istənilən genişmiqyaslı layihənin icrası üçün önəmli elementlərdən biri sabitlikdir: "Azərbaycanda uzun illərdir ki, sabitlik var və bu, bizim iqtisadi inkişafımızın əsas amillərindən biridir. İndi Azərbaycanın beynəlxalq arenada oynadığı rol da həmçinin bizim daxili siyasətimiz sayəsində əmələ gəlmişdir. Çünki güclü iqtisadiyyat, siyasi, iqtisadi sabitlik və hökumət siyasətimizin proqnozlaşdırılması - bütün bu amillər körpülərin və mümkün qədər çox ölkə ilə daha yaxın münasibətlərin qurulması ilə yanaşı, bugünkü reallığa gətirib çıxarıb".

Ə.Kazımovanın sözlərinə görə, daxili iqtisadi mühitin inkişafı istiqamətində atılan addımlar yeni dövrdə Azərbaycana mühüm üstünlüklər qazandırıb: "İllərdir ki, yeni infrastrukturların qurulması istiqamətində əsaslı işlər görülür. Cənab Prezident bildirib ki, Azərbaycan infrastrukturun inkişafına uzun illər ərzində sərmayə yatırır. İndi isə dəmir yolları əlaqələrimizə, yol infrastrukturumuza baxdıqda Azərbaycanda hər şeyin hazır olduğunu görürük. Bu kimi amillər ölkəmizin geosiyasi və geoiqtisadi əməkdaşlıq platformasındakı fəaliyyətinə mühüm üstünlüklər qazandırır".

Partiya sədri deyib ki, "Şimal-Cənub" dəhlizi kimi, digər nəqliyyat layihələri də "Şərq-Qərb" dəhlizinə əsaslı dəstək və uğur qazandıracaq: "Azərbaycanın hər iki dəhlizin iştirakçısı olmasının səbəbləri isə ölkəmizin bu dəhlizlərlə bağlı əksər nəqliyyat və logistika infrastrukturunun hazır olmasından irəli gəlir. Ölkəmizdə ən müasir nəqliyyat-kommunikasiya sistemləri inşa edilir. Yeni iqtisadi nizamda özünəməxsus yer tutan Azərbaycan yükləri öz ərazisindən operativ nəql etmək potensialına malikdir. Təbii ki, bunun üçün yeni tankerlər, bərələr və yük gəmiləri lazımdır. Dövlət başçısının da qeyd etdiyi kimi, Bakıda gəmi infrastrukturu və yeni gəmiqayırma zavodlarının olması ölkəmizin mövcud istiqamətdəki potensialını artırır".

Ə.Kazımova onu da qeyd edib ki, ölkəmiz "Şərq-Qərb", "Şimal-Cənub" dəhlizləri, dəmir yolu və ya magistral yol, hava limanları, donanma, yaxud dəniz limanı vasitəsilə imkanlarını daha da genişləndirib: "Dəhliz marşrutunun iştirakçısı olan ölkələrin hər birinin belə hazırlıqlı olması mühüm şərtdir. Təbii ki, burada təhlükəsizlik amili də vacib elementlərdən biri kimi çıxış edir. Bəzi region ölkələrinin, məsələn, İranın və ya Ermənistanın bu prosesə mane olmaq cəhdləri heç bir işə yaramayacaq. Dövlət başçısı da bildirib ki, İran və ya Ermənistan regionun nəqliyyat-infrastruktur layihələrinə əngəl törədə bilməz. Ermənistan regionda faktiki olaraq dalana dirənmiş ölkədir. Ermənistandan heç bir nəqliyyat marşrutu keçmir. Onların nəqliyyat şəbəkəsi köhnəlib və onlara məxsus deyil. İran isə özü regional kommunikasiya layihələrində maraqlı olmalıdır, çünki bu layihələr heç kimin əleyhinə deyil, hamının xeyrinədir. Odur ki, Azərbaycanın regionda yaratdığı yeni əməkdaşlıq platforması iqtisadi imkanların genişlənməsinə əsaslı zəmin yaradıb".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# Tehranın ASALA terrorçuları ilə işbirliyi ifşa olunur

## İran generalı Qasım Süleymani də erməni terrorçularına dəstək verib

**Erməni terrorçusu, ASALA-nın keçmiş üzvü Martiros Jamkoçyan Yerablurdakı hərbi məzarlıqda olarkən "Qraparak" qəzetinə verdiyi müsahibədə bəlkə də bilməyərəkdən bəzi ifşaedici faktlar açıqlayıb.**

O, ermənilərin "qəhrəman" adlandırdıqları, tanınmış quldur Monte Melkonyanla İran xüsusi xidmət orqanları arasında işbirliyi barədə danışaraq bildirib ki, 1992-ci ilin yazında Monte ilə birlikdə Xocavənddə azərbaycanlı kəndlərinin "təmizlənməsi" ilə məşğul olub.

Bu barədə məlumat verən "Caliber.az" saytının xəbərinə görə, Martiros Jamkoçyan 1958-ci il iyunun 21-də Livanın paytaxtı Beyrutda anadan olub. O, kiçik yaşlarından erməni terror təşkilatı ASALA-ya qoşulub. 1981-ci il iyunun 9-da İsveçrənin Cenevrə şəhərinin mərkəzində Jamkoçyan türk konsulluğunun əməkdaşı Mehmet Yerquza odlu silahdan atəş açaraq qətlə yetirib. İsveçrə məhkəməsi terrorçunu 10 il müddətinə azadlıqdan məhrum edib. Jamkoçyan həbsxanadan çıxdıqdan sonra Ermənistana, oradan isə tezliklə Qarabağa köçüb və ölkəmizin ərazisində Monte Melkonyanın komandanlığı altında qanunsuz fəaliyyət göstərən dəstənin tərkibində etnik təmizləmədə və dinc azərbaycanlı əhalinin qətlə yetirilməsində fəal iştirak edib.

"Yolboyu türk (azərbaycanlı - red.) kəndləri var idi və qrupumuz bu əraziləri təmizləməyə başladı. Dəstəmiz bütün regionda ən çox sayda hərbi texnika və silaha malik idi" deyən terrorçu eyni zamanda maraqlı epizoddan - Monte Melkonyanın İran tərəfi ilə əməkdaşlığından danışıb: "Qubadlının azad edilməsindən (Qubadlının işğalını nəzərdə tutur. 1993-cü il avqustun 31-də baş verib, Monte Melkonyan artıq gorbagor olub - red.) əvvəl farslar Monteyə zəng edirdilər, onunla hesablaşırdılar. Bu bir sirdir və mən onu bu gün sizə açıram. Farslar Monte ilə görüşmək üçün Gorusa gəldilər. Onlar bilirdilər ki, əməliyyat hazırlanır. Həmin vaxt biz Laçın şəhərində idik, oradan Zəngilana, Qubadlıya, Horadizə hücumu davam etdirmək üçün tank diviziyamızın bir hissəsini buraya gətirmişdilər. Farslar bu əməliyyatdan xəbər tutdular, bütün bunları kimin təşkil etdiyini öyrəndilər. O zaman İranın marağı ondan ibarət idi ki, müharibənin Arazın o tərəfinə keçməməsi üçün bizimlə əməkdaşlıq etsin və bununla bağlı bizdən zəmanət alsın. Bu, 1993-cü ilin əvvəlində oldu. Beləliklə, dostlarımız və düşmənlərimiz kiminlə iş gördüklərini bilirdilər. Ona görə də bizimlə hesablaşır, danışıqlar aparırdılar. Əlbəttə, biz farslara zəmanət verdik ki, əsgərlərimizin İran istiqamətində atəş açmasına, həmin istiqamətdə geri çəkilən azərbaycanlılara atəş açılmasına imkan verməyəcəyik və belə də oldu".

Erməni terrorçunun açdığı bu "sirr" Tehranın ikiüzlü siyasətini bir daha nümayiş etdirir. Azərbaycanın ərazi bütövlüyünü sözdə dəstəkləyən, Azərbaycan və İran xalqları arasında tarixi, dini və mədəni bağlardan söhbət açan İran Qarabağda erməni terrorçuları ilə əməkdaşlıq edib.

Burada bir müddət əvvəl Türkiyə mətbuatında dərc edilən yazını da xatırlatmaq yerinə düşər. Belə ki, 2020-ci il yanvarın 6-da İran dövlət televiziyasında çıxış edən siyasi şərhçi Cehanbehş İzedi bir neçə gün əvvəl Bağdadın hava limanına endirilən raket zərbələri nəticəsində öldürülən İran İnqilabı Keşikçiləri Qvardiyası ("Sepah") "Qüds" qanadının komandanı, general Qasım Süleymani haqqında danışarkən bəzi faktları açıqlamışdı. Onun sözlərinə görə, Süleymani Birinci Qarabağ müharibəsində ermənilərə yardım edib. Onun fikrincə, bu dəstək İranın lehinə, türk birliyinin daha da güclənməsini əngəlləmək məqsədi daşıyıb: "1990-cı illərdə Qarabağın işğaldan qurtarılması, Naxçıvan ilə Azərbaycan arasındakı torpaqların geriyə - Azərbaycana verilməsi bölgədə türkçülüyün güclənməsinə xidmət edəcəkdi. Bizim mənafeyimizə uyğun olmayan birlik formalaşacaqdı və bölgədəki güc nisbəti dəyişəcəkdi. Buna görə də Qasım Süleymani müvafiq addımlar atdı və bu səbəbdən də torpaqlar Ermənistanın nəzarətində qaldı".

Bu, unudulmayan reallıqdır ki, 1992-ci il mayın 8-də Azərbaycan Şuşanı məhz İranın vasitəçilik mərhələsində itirib. Həmin vaxt iki ölkə rəhbərinin Tehranda görüşdüyü zaman Ermənistan hiyləgərcəsinə hücuma keçərək Şuşanı işğal etmişdi.

Elə İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin Araz çayı boyu Xudafərin Su-Elektrik Stansiyasının bəndinə doğru irəlilədiyi zaman baş vermiş hadisəni də bu prosesin davamı kimi qiymətləndirmək olar. Belə ki, ən qısa və təhlükəsiz yolla Zəngilana yaxınlaşarkən hərbçilərimiz İran ordusunun hissələri ilə qarşılaşmışdı. İran tərəfinin müharibə zamanı Azərbaycan Ordusunun bölmələrinin hərəkətləri ilə bağlı ermənilərə kəşfiyyat məlumatları ötürməsi də onun Ermənistanın işğalçılıq siyasətinə və Qarabağdakı tör-töküntüsünə hörmətlə yanaşmasından, ona dəstək göstərməsindən xəbər verir.

Xatırladaq ki, Monte Melkonyan 1993-cü ilin iyununda Ağdam rayonunun Mərzili kəndində qəhrəman kəşfiyyatçı İbad Hüseynli tərəfindən məhv edilib. Bundan sonra Ermənistanda 3 günlük matəm elan olunub və o, Ermənistanın milli qəhrəmanı elan edilib.

İbad Hüseynli 9 oktyabr 1994-cü il tarixdə Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib. 2020-ci il dekabr ayının 9-da isə Prezident İlham Əliyev tərəfindən ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Məscid dağıdanları qucaqlayan İran...

## Rəsmi Tehran yanlışlarından nəticə çıxarmalıdır

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra İran ilə münasibətlərdə gərgin dövrlər çox yaşanıb. Lakin yaxın qonşuluq və iqtisadi-ticari əlaqələrin qarşılıqlı faydalı xarakter daşıması gərginliklərin dərinləşməsinə imkan verməyib.



Otuz il Ermənistanın işğalı altında qalan torpaqlarımız 44 günlük Vətən müharibəsi nəticəsində azad edildi. Azərbaycanın bu qələbə nəticəsində torpaqlarını işğaldan azad etməsi bir sıra müsəlman ölkələrindən fərqli olaraq İran tərəfindən narahatlıqla qarşılandı. Yaxın qonşumuz və müsəlman "təəssübkeşi" kimi çıxış edən İran öz narahatlığını nədənsə çox kəskin şəkildə büruzə verdi.

Azərbaycan Prezidenti işğaldan azad olunan ərazilərə səfəri zamanı Xudafərin körpüsünü dostluq körpüsü, İran-Azərbaycan sərhədini isə dostluq və qardaşlıq sərhədi adlandıraraq yaxın qonşumuza xoş mesajlar vermişdi. Bununla yanaşı, bir sıra İran şirkətlərinə də Qarabağın bərpasında iştirak etmək imkanı yaradıldı. Rəsmi Bakı 30 ilə yaxın bir dövrdə Azərbaycanın tarixi torpaqlarının işğalına İranın susqunluğuna, Şuşada və İrəvanda azərbaycanlılara məxsus məscidlərin təmir edilərək fars məscidləri kimi qələmə verilməsinə, 44 günlük Vətən müharibəsi dövründə rəsmi Tehranın Ermənistana silah-sursat ötürməsinə baxmayaraq, qonşuluq münasibətlərini davam etdirmək niyyətini dəfələrlə bəyan etmişdi. Lakin İran Azərbaycana qarşı heç bir əsası olmayan qondarma iddialar irəli sürməyə başladı. Sözdə islam dəyərlərinə üstünlük verən İran nədənsə ermənilərin 67 məsciddən 65-ni dağıtmalarına göz yumdu, amma Azərbaycanın İsrail ilə əlaqələrini böyük hay-küylə qarşıladı. İki müstəqil dövlətin diplomatik əlaqələrinin üçüncü tərəfə nə kimi mənfi təsir göstərəcəyini soruşsan, heç bir İran siyasətçisi tutarlı arqument irəli sürə bilməz.

Ermənistanın Qafan şəhəri çox balaca bir yaşayış məntəqəsidir və bu şəhərdə tez-tələsik konsulluq açmaq İranın nəyinə lazımdır?! Din qardaşlarına tarixboyu olmazın müsibətlər yaşadan Ermənistanın kiçik bir şəhərində diplomatik zərurət olmadığı halda konsulluq açan İran Azərbaycanın İsrail kimi müstəqil bir dövlətdə səfirlik açmaq qərarına hansı üzlə etiraz edir?!

Bu sualı cavablandırmaq heç də çətin deyil. Ermənistan heç vaxt müstəqil siyasət yürütməyib və həmişə özünə himayədar axtarışında olub. Azərbaycana məğlub olduqdan sonra Ermənistan rəsmiləri İrana üz tutaraq tarixi dostluqdan danışmağa başlayıblar. Regionda sülhün yaradılması istiqamətində Soçidə Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin görüşündən sonra dərhal Tehrana rəsmi səfər edən baş nazir Nikol Paşinyanı qucaqlayan rəsmilər nə demək istəyiblər görəsən... Rəsmi Tehran bəyan edir ki, regionda dövlətlərin sərhədlərinin dəyişməsi qəbuledilməzdir və bu, İranın qırmızı cizgisidir. Əgər sərhədlərin dəyişməsi Tehran üçün qəbuledilməzdirsə, 30 il ərzində Ermənistan sərhədləri dəyişərək Azərbaycan ərazilərini işğal etdiyi vaxt niyə səsini çıxarmırdı... Deməli, Ermənistan müsəlmanların yaşadığı yeri işğal edib sərhədi dəyişə bilər və bu, İran üçün qəbuledilməndir. Lakin Azərbaycan öz ərazilərini işğaldan azad edəndə İran üçün qəbuledilməzdir. Haradadır İranın minillik incə diplomatiyası... Səbəb nədir ki, regionda heç bir müsəlman dövləti ilə yola getməyən İran Ermənistana əvvəlkindən daha çox dəstək olur.

İranın qeyri-konstruktiv siyasətinin mahiyyətini anlamaq üçün əvvəlcə bu ölkənin siyasi quruluşuna və daxildə baş verən hadisələrə nəzər yetirmək lazımdır. İranın daxili siyasətinə nəzər saldıqda burada siyasi qüvvələrin iki əsas qanadda cəmləşdiyini görərik. Bunlardan biri islahatçılardır ki, hakimiyyətdə təmsil olunduqda İranın dünya ilə inteqrasiyasını gücləndirmək, sanksiyaların aradan qaldırılması üçün konsensus əldə etmək istəyindədirlər. Digər qanad isə mühafizəkarlardan ibarətdir. Bu qanadın bariz nümayəndəsi İbrahim Rəisidir ki, o da bu gün İranın Prezidentidir. Bu siyasi düşərgənin nümayəndələri radikal islamçılardan ibarətdir. Təsadüfi deyil ki, bu qanadın nümayəndəsi hakimiyyətə gəldikdən sonra əxlaq polisinə böyük səlahiyyətlər verildi. Bunun da nəticəsində 22 yaşlı qız baş örtüyünü düzgün örtmədiyinə görə öldürüldü. Bunların xarici siyasət xətti isə dünya ilə inteqrasiya deyil, Yaxın Şərqi siyasi monopoliyaya almaq və öz dini ideologiyasını yaymaqdan ibarətdir. Bu xətti radikal qanadın hakimiyyətdə təmsil olunan nümayəndələri xüsusi xidmət orqanlarının vasitəsilə qonşu dövlətlər arasında yaymağa cəhd edirlər.

Məlum olduğu kimi, bir neçə gün əvvəl Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti xüsusi əməliyyat keçirərək İran xüsusi xidmət orqanının nəzarəti altında yaradılmış qanunsuz silahlı birləşməni və casus şəbəkəsini ifşa etdi. Bu əməliyyatlar nəticəsində ümumilikdə 24 nəfər saxlanıldı. Bu, həmişə ona xeyirxah münasibət bəsləyən Azərbaycana İranın "mehriban dostluq və qardaşlıq" niyyətinin göstəricisidir. Yaxud İran silahlı qüvvələrinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki sərhədində - Araz çayı boyunca hərbi təlimlər keçirməsi, bununla Azərbaycanı qorxutmağa çalışması onun müsəlman təəssübkeşi olmadığını təsdiq edir. İranın Vətən müharibəsi dövründə Azərbaycan Ordusunun Araz çayı boyunca uğurlu əməliyyatına mane olmaq cəhdi də unudulmayıb.

Hazırda İran ciddi ictimai-siyasi böhranla üz-üzədir. İnqilabdan ötən 40 il ərzində əhaliyə sözdən başqa bir şey verə bilməyən klerikal hakimiyyət çıxılmaz vəziyyətə düşüb. Sentyabrdan başlanan kütləvi aksiyalar İranın bütün şəhərlərini bürüyüb və üçüncü aydır davam edir. Əxlaq polisi tərəfindən zorakılığa məruz qalan 22 yaşlı qızın ölümü ilə başlayan kütləvi etirazlar heç də qadın hüquqları ilə əlaqəli deyil. Məsələnin mahiyyəti ondan ibarətdir ki, yuxarıda deyildiyi kimi, İran dövləti 40 il ərzində xalqına quru vəddən başqa bir şey verə bilməyib. Öz imkan və potensialını real dəyərləndirə bilməyən İran uzun illərdir geosiyasi ambisiyalarla yaşayaraq bu istiqamətdə siyasət yürüdür. Nüvə proqramını həyata keçirməklə dünyada hegemonluq etmək iddiasındadır. Bu səbəbdən də enerji resurslarından əldə olunan gəlirlər dövlət quruculuğuna, əhalinin firavanlığına, ümumilikdə ölkənin inkişafına deyil, Yaxın Şərqdə silahlı dəstələr saxlamağa və qonşu dövlətlərin, o cümlədən Azərbaycanın daxili işlərinə qarışmağa yönəldilir. İran Suriyada, İraqda, Livanda silahlı dəstələri maliyyələşdirərək dini-ideoloji xəttini həyata keçirməyə cəhd edir. Halbuki İranın bu siyasəti nəinki beynəlxalq aləm, hətta öz əhalisi tərəfindən də kəskin qınanır. Milli azlıqların hüquqsuzluğu, iqtisadi vəziyyətin ağır olması, siyasi ambisiyaların nəticəsində sanksiyalara məruz qalması və əhalinin sosial vəziyyətinin həddən artıq pisləşməsi insanların küçələrə çıxıb haqlarını tələb etməsi ilə nəticələnib. Ən başlıcası isə hakimiyyət bu etirazları nəzərə alıb vəziyyəti yaxşılaşdırmaq istəmir, əksinə, etirazçılara qarşı qəddarlıq, onların qətlə yetirilməsi və məhkəməsiz edam edilməsi xalqın, necə deyərlər, səbir kasasını daşdırıb.

Diqqəti bu problemlərdən yayındırıb cəmiyyətdə həmrəyliyə nail olmaq üçün İran gah qərbdəki, gah da şimaldakı qonşularına qarşı əsassız iddialar irəli sürür.

Azərbaycan Respublikası heç vaxt İran üçün təhlükə törətməyib və törətmir. Dəfələrlə ən yüksək siyasi səviyyədə bildirilib ki, Azərbaycanın İsrail və ya digər bir dövlətlə diplomatik münasibətləri qətiyyən İrana və ya üçüncü bir dövlətə qarşı yönəlməyib. Ölkəmiz xarici siyasətini milli maraqlarını nəzərə alaraq qurur və bu işdə kiminsə məsləhətinə ehtiyacı yoxdur. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycan öz ərazisindən üçüncü dövlətə qarşı istifadə olunmasına imkan verməyəcək.

Beləliklə, beynəlxalq təşkilatlar və qonşu dövlətlərlə münasibəti korlayaraq təqsiri üzərindən atmaq istəyən İran hakimiyyəti, ilk növbədə, öz siyasi xəttini korrektə etməlidir.

***AZƏRTAC***

# Partiya sədrləri nikbindirlər

## "Siyasi partiyalar haqqında" qanun layihəsində dəyərli təkliflər nəzərə alınıb

"Siyasi partiyalar haqqında" yeni qanun layihəsi Milli Məclisin dünən keçirilən plenar iclasında birinci oxunuşda müzakirə olundu. Buna qədər qanun layihəsinin ictimai dinləmələri keçirilib və məsələ yenilənmiş variantda parlamentə təqdim edilib.

Yenilənmiş variantda parlamentdə siyasi partiyalardan gələn təkliflər nəzərə alınıb, qanun layihəsinə ümumilikdə 66 düzəliş edilib. Belə bir mükəmməl qanun layihəsinin hazırlanması göstərir ki, islahatların davamı olaraq siyasi sistemin təkmilləşdirilməsi diqqət mərkəzindədir.

Mövzu ilə bağlı siyasi partiya rəhbərlərinin fikirlərini öyrəndik.

### Demokratik yanaşmanın göstəricisi

Milli Məclisin deputatı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə qeyd edib ki, yeni qanun layihəsinin qəbulu ölkədə çoxpartiyalı sistemin daha da inkişafına səbəb olacaq: "Siyasi mühit təmizlənəcək və iş peşəkarlara həvalə ediləcək. İctimai dinləmələrdə verdiyimiz təkliflərin nəzərə alınması, müddəaların ya dəyişdirilməsi, ya da layihədən çıxarılması demokratik yanaşmanın göstəricisidir. Bizim təkliflərimiz əsasən qanun layihəsinin, belə demək olarsa, yüngülləşdirilməsinə xidmət edir. Fikrimcə, məhdudiyyətlər minimuma endirilməli, partiyaların tənzimlənməsi işi elə onların özlərinə tapşırılmalıdır. Müzakirələr hələ də davam etdirilir, yəni layihənin son variantının daha mütərəqqi olacağına inam böyükdür".

Partiya sədri qeyd edib ki, dövlət siyasi partiyaların institutlaşmasında, onların siyasi arenada rolunun artırılmasında maraqlıdır: "Ona görə də həm cəmiyyətdə, həm də siyasi mühitdə partiyaların güclənməsinə təkan verəcək yeni qanunun qəbul edilməsinin vacibliyi hər kəs tərəfindən başa düşülür. Müzakirələr və ictimai dinləmələr isə olduqca zəruridir. Çünki məhz fərqli yanaşmalar qanun layihəsinin təkmilləşməsinə zəmin yaradır. Elə bu qanun layihəsinin qəbul edilməsini zəruri edən səbəblərdən biri də yeni reallıqlar fonunda fərqli fikirlərin və yanaşmaların ortaya çıxmasıdır. Ona görə də "Siyasi partiyalar haqqında" qanun yeni çağırışlara cavab verməlidir".

### Yeni reallıqların nəzərə alınması təqdirəlayiqdir





Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev deyib ki, "Siyasi partiyalar haqqında" qanun layihəsinin yeni versiyasında partiyaların təkliflərinin nəzərə alınması bizi məmnun edir: "Açıq-aydın görünür ki, yeni qanun layihəsi siyasi partiyaların yaradılmasını və fəaliyyətini stimullaşdırır. Nəticədə partiyaların peşəkar şəkildə formalaşmalarını və onların siyasi mühitdə aktiv fəaliyyət göstərmələrini təmin edəcək hüquqi baza yaradılır. Ümumilikdə yenilənmiş variantda bir sıra güzəştlər tətbiq edilib, təklif və iradlar nəzərə alınıb. Lakin fikrimcə, ölkədə nizamnaməsi və proqramları oxşar olan partiyaların birləşdirilməsi daha məqsədəuyğun olardı. Bu konteksdən yanaşsaq, qanun layihəsinin birinci variantında siyasi partiyalar üçün nəzərdə tutulan üzv və təsisçi sayı normal idi. Lakin bir sıra təklifləri nəzərə alaraq müəyyən dəyişikliklər edildi və say tərkibi azaldıldı. Əslində, say çoxluğu o demək idi ki, dövlət siyasi palitrada çoxüzvlü partiyaların olmasında, hər kəsin fikrini sərbəst ifadə etməsində maraqlıdır".

Partiya sədri bildirib ki, yeni qanun layihəsi vətəndaşların daha sərbəst fikir söyləməsinə zəmin yaradır: "Bu, ölkədə sağlam siyasi rəqabət formalaşdırmaqla partiya liderlərinin məsuliyyətini artırır. Qanun layihəsinin hazırlanması zamanı yeni reallıqların və dünyanın geosiyasi mənzərəsinin nəzərə alınması təqdirəlayiqdir. Onu da qeyd etmək lazımdır ki, yenilənmiş versiyada demokratik ruh daha aydın sezilir və lazımsız məhdudiyyətlər aradan qaldırılıb".

### Qanun layihəsinin yenilənmiş versiyası təkmildir

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə qeyd edib ki, uğurlu dəyişikliklər nəticəsində siyasi partiyaların fəaliyyətinin aktivləşdirilməsinə xidmət edən mütərəqqi qanunun qəbul olunacağına inanır: "Siyasi partiyalarla bağlı yeni qanunun qəbulu ilə bağlı məsələ artıq 3 ilə yaxındır ki, gündəmdədir. Siyasi partiyalar yeni qanun layihəsi ilə bağlı təkliflərini təqdim ediblər. İctimai dinləmələr zamanı digər partiya rəhbərləri kimi mən də bir sıra təkliflərimi səsləndirmişdim. Görünən odur ki, qanun layihəsinin yeni versiyasında müəyyən təkliflər nəzərə alınıb. Yenilənmiş variantda bir sıra müddəalar dəyişdirilib və ya layihədən çıxarılıb".

A.Əlizadə bildirib ki, siyasi partiyaların iştirakı ilə parlamentdə daha bir ictimai dinləmənin keçirilməsi yaxşı olardı. Onun sözlərinə görə, təkliflərin yenə də səsləndirilməsində fayda var.

"Qanun layihəsinin yenilənmiş versiyası olduqca təkmildir. Lakin partiya olaraq razılaşmadığımız məqamlardan biri partiya üzvlərinin hər birinin şəxsi identifikasiya kodunun reyestrə salınmasıdır. Fikrimizcə, bu, düzgün yanaşma deyil, çünki belə olan halda konstitusiya ilə müdafiə olunan şəxsi məlumatların gizliliyi prinsipi pozula bilər. Ona görə də həmin bəndin qanun layihəsindən çıxarılmasının tərəfdarıyıq. Partiyadaxili müzakirələrdən sonra bir sıra təkliflər verməyi planlaşdırırıq. Əlbəttə ki, ilkin layihə ilə müqayisədə indiki variant daha mütərəqqidir. Açığı, bütün siyasi partiyaların razı qalacağı qanunun qəbul olunacağına ümid edirəm", - deyə o söyləyib.

Partiya sədri deyib ki, yeni qanun partiyaların gələcək fəaliyyətinə müsbət təsir göstərəcək: "Siyasi partiyaların qeydiyyatı və fəaliyyəti bundan sonra yeni qanuna əsasən aparılacaq. Hesab edirəm ki, dövlət özü də siyasi partiyaların fəaliyyətinin əhatəli olmasında maraqlıdır. Partiyalar ölkənin siyasi gündəminə təsir etmək gücündə olmalıdırlar. Nəzərə almaq lazımdır ki, cəmiyyətdə alternativ fikirlər nə qədər çox olarsa, inkişafa aparacaq amillər də bir o qədər çox olar".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Bir gündə daha iki "nokaut"

## İlham Əliyevin yüksək nüfuzu fonunda Nikol Paşinyanın düşük durumu daha acınacaqlı görünür

Azərbaycan Prezidenti İlham Əliyev müasir dünya düzənində nadir keyfiyyətlərə malik olan, sözünün ağası kimi tanınan dövlət başçılarındandır. Hamı İlham Əliyevə inanır, etibar edir və bilir ki, o, verdiyi sözün sahibidir.

Bu il noyabrın 23-də - eyni gündə İrəvanda və Belqradda müxtəlif ölkələrin prezidentləri İlham Əliyevin hamıya əsl dost, qardaş olduğunu etiraf etdilər. İki paytaxtda keçirilən tədbirlər, müzakirə olunan mövzular fərqli olsa da, çıxış edənlərin hamısı Azərbaycanın dost ölkə, Prezident İlham Əliyevin sözünün ağası olduğunu bildirdilər. Bu isə Ermənistanın baş naziri üçün əsl siyasi "nokaut" idi.

Dərd o deyil ki, ümidsiz xəstəsən, borc içindəsən, ya da ki, yaşamağa heç bir stimulun qalmayıb. Dərd odur ki, sənə bu dərdləri adlamaq üçün yol göstərirlər, sən onu görmürsən, ya da görmək istəmirsən. Bax, indi Paşinyan həmin dərdi yaşayır.

Dünyaya səpələnib, uydurduqları yalanların eşqinə sərgərdan rəqslərdə ağlı qaçan 10 milyonluq erməni xalqının ideoloqlarının isə dərdi, daha doğrusu, faciəsi odur ki, kim olduqlarından xəbərsizdirlər. Bilmirlər ki, 100 ildən artıqdır böyük güclərin əlində oyuncaqdırlar. Qınamaq da olmur bu zavallıları: ruslar tovlayır, fransızlar əzizləyir, amerikalılar tumarlayırlar. Keçmiş Minsk qrupu da 30 il əlindən gələni etdi ki, Ermənistan işğal etdiyi əraziləri tərk etməsin. Amma alınmadı, it qovulan kimi qovuldular özgə torpaqlarından.

Nə faydası?! Bu gün də ermənilər Azərbaycanın inkişaf fonunda hansı uçurumlara yuvarlandıqlarını anlamırlar. Anlasaydılar, iki il davam edən sülh danışıqlarında "başbilənləri" Paşinyan dünən dediyini bu gün danmaz, gah qızışıb kələ, gah da sakitləşib quzuya dönməz, ard-arda iki dəfə siyasi "nokaut"a düşməzdi.

Serbiya Prezidenti Aleksandar Vuçiç İlham Əliyevlə birlikdə mətbuata bəyanatında dövlətlərarası münasibətlərdə gözlənilən yüksək diplomatik dildən fərqli bir tərzdə - yaxın dost və doğma qardaş kimi danışdı: "…İlham Əliyev bu gün Avropada ən populyar şəxsdir. Avropada necə dəyişikliklərin baş verməsi inanılmazdır. Adətən onlar onun üçün vaxt tapa bilmirdilər, indi isə bütün vaxtlarını ona ayırırlar, çünki onların Azərbaycan qazına və Azərbaycanın təklif edə biləcəyi hər şeyə ehtiyacları olduğundan o, orada çox sevilir. Lakin mən bilirəm ki, o, ağıllı insandır, hər şeyi görür, hər şeyi başa düşür, düzünü desəm, mən bir az paxıllıq edirəm".

Həmin gün Paşinyan KTMT-nin sammitində iştirak etmək üçün İrəvana gələn liderlərdən yalnız Rusiya Prezidentini qarşıladı və öz avtomobilini buraxıb Putinin maşınında geri qayıtdı. Xidməti avtomobilindən isə Ermənistan bayrağı götürüldü. Bəzi KİV yazdılar ki, Putin bu jestlə Paşinyana qandırdı ki, o, şuluqluq salsa, ərköyünlük etsə, daha betər "şapalaqlanacaq".

Azərbaycan Prezidentini isə vətənindən uzaqlarda doğma qardaş kimi qarşıladılar, onun böyük nüfuzu olduğunu etiraf etdilər. Belqradda Serbiya Prezidenti bildirdi ki, ona edilən zənglər yalnız Kosovo ilə bağlı təhdidlər üçündür, amma İlham Əliyevə ehtiyacları olduğu və onu sevdikləri üçün zəng edirlər: "Mən həqiqətən şadam ki, mənim böyük dostum və Serbiyanın böyük dostu necə uğur qazanıb və dəyişməyib, o, hər zaman öz ölkəsinin təhlükəsizliyini təmin edib, ona hörmət edilməsinə nail olub, öz ölkəsinin qayğısına qalır və öz ölkəsinin maraqlarını müdafiə edir".

Paşinyan İrəvanda keçirilən KTMT-nin sammitində çalışırdı ki, Ermənistanı təcavüzə məruz qalan zavallı dövlət kimi təqdim etsin. Çıxışında sənədlərə, müqavilələrə istinad etdi, Azərbaycanın ünvanına ağlasığmaz qaralar yağdırdı. Lakin yenə alınmadı. Yalançıya kim inanar ki?! Üstəlik, məgər Paşinyan bilmirdi ki, qarşısında oturan Qazaxıstan Prezidenti Tokayev vətənində milyonlarla qazaxın acından qırılması prosesinə ermənilərin rəhbərlik etmələrindən xəbərdardır?! Məgər Paşinyan anlamırdı ki, erməni quldur dəstələrinin Orta Asiyada necə vəhşiliklər törətdikləri unudulmayıb?! Fərqanə hadisələrinin, Qdlyanın pambıq oyunu altında Özbəkistana divan tutmasını heç kim yaddan çıxarmayıb axı…

Ona görə sammitdə onun artıq gözdən düşdüyünü hamının üzünün ifadəsindən oxumaq olurdu. Heyf ki, nala-mıxa vurmaqla gülünc vəziyyətdə qaldığını özü anlamadı.

Sammitdə Paşinyana ən ölümcül zərbəni isə Belarus Prezidenti A.Lukaşenko vurdu. Ermənistan baş nazirinin haqsız və ədalətsiz mövqedən danışdığını, qədərindən artıq ittihamlara meyilli olduğunu, KTMT-nin üzvlərinin ya dost, ya düşmən mövqeyini ortaya qoymağa çağırışını, yumşaq desək, düzgün saymadı. İzah etdi ki, "Azərbaycan bizə dost və qardaş ölkədir, biz sizinlə KTMT-nin, Azərbaycanla isə MDB-nin üzvüyük. Ona görə də qarşıdurmaya yox, əməkdaşlığa köklənən mövqelərin sərgilənməsi vacibdir".

Serbiya Prezidenti isə Belqradda Azərbaycan Prezidentinin ağzından çıxan sözü bütün imzalanan sənədlərdən üstün saydığını dedi. Budur, Azərbaycan Prezidenti İlham Əliyevin nüfuzunu, etibarlı tərəfdaş, təmənnasız dost və sözünə sadiq lider kimi şəxsiyyətini sübut edən həmkar qiyməti.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# İqtisadi cəhətdən sərfəli, texniki baxımdan təhlükəsiz

## Orta dəhliz daha çox kimə lazımdır

44 günlük Vətən müharibəsindən iki il keçməsinə baxmayaraq, Ermənistan 10 noyabr Bəyanatının bəzi bəndlərini yerinə yetirməkdən hələ də yayınır. Məlum olduğu kimi, həmin bəndlərdən biri də Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Ermənistanın bu dəhlizi açmamaq üçün çıxarmadığı oyun, gətirmədiyi bəhanə yoxdur.

Düzdür, N.Paşinyan KTMT-nin İrəvanda keçirilən iclasında bəyan etdi ki, o, Rusiya Prezidenti Vladimir Putinlə sözügedən dəhlizin açılması barədə razılığa gəlib. Lakin onun bu bəyanatına inanmaq çətindir. Çox sadə səbəbdən: N.Paşinyan sözünün sahibi deyil, bunun üçün gərək kişi olasan.

Məlumdur ki, Rusiya-Ukrayna müharibəsi birincinin Avropaya nəqliyyat marşrutunun bağlanmasına səbəb olub. Ona görə də şimal qonşumuz iqtisadi tənəzzüldən qurtarmaq üçün dünya bazarında yeni ticarət tərəfdaşları tapmağa məcburdur. Belə tərəfdaşlarla əlaqə qurmağın ən sərfəli marşrutu isə "Şimal-Cənub" dəhlizi üzərindən Türkiyə vasitəsilə Şərq və Şimali Afrika ölkələrinə çıxmaqdır. Bunun bir səbəbi də Rusiyanın Gürcüstanla olan gərgin münasibətlərinin ona Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə etməyə imkan verməməsidir.

Artıq bütün dünya tərəfindən Orta dəhliz beynəlxalq əhəmiyyətli marşrut kimi qəbul olunur. Birincisi, bu yolla yüklər sahiblərinə tez çatdırılır ki, bu da ən önəmli faktordur. İkincisi, dəhlizin texniki imkanları yüksəkdir. Üçüncüsü, marşrutun təhlükəsiz olması və keçdiyi ölkələrdə siyasi sabitliyin hökm sürməsidir.

Belə götürdükdə bu baxımdan Zəngəzur dəhlizinin açılmasında ən çox marağı olan ölkə Ermənistan olmalıdır. Ən azından o səbəbə ki, dünya iqtisadiyyatının sürətlə qloballaşdığı bir dövrdə Ermənistan dalan ölkəsinə çevrilib. Onun bu gün Gürcüstanı çıxmaq şərtilə heç bir ölkə ilə dəmiryolu əlaqəsi yoxdur. Elə dənizə çıxışı olmayan təcavüzkar qonşumuzla avtomobil nəqliyyatı ilə əlaqəsi olan ölkələrin də sayı çox deyil.

Amma nə olsun, tarix göstərir ki, ermənilər başlarına gələn hadisələrdən nəticə çıxaran deyillər. Bu gün Zəngəzur dəhlizinin açılmasında dünyanın aparıcı dövlətləri, o cümlədən Çin və Rusiya maraqlı olduqlarını gizlətmirlər. Ermənistan isə hələ də "sürtə-sürtə" qalıb, baxmayaraq ki, gec-tez bunu qəbul etməyə məcbur olacağını yaxşı bilir. Levon Ter-Petrosyanın dediyi kimi, "indi dünyada heç kim Ermənistanın fikrini soruşmur".

Yəqin elə bu səbəbdəndir ki, noyabrın 25-də ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransda Azərbaycanın dövlət başçısına ünvanlanan əsas suallar Zəngəzur dəhlizi ilə bağlı idi. Prezident İlham Əliyevin də cavabı aydın olmuşdur: "Biz Zəngəzur dəhlizini təşviq etməyə başlayanda Rusiya-Ukrayna müharibəsi hələ başlamamışdı və Çindən Avropaya ənənəvi marşrutlar vasitəsilə tranzit yolları bağlanmamışdı. İndi isə vəziyyət başqadır və Xəzərdən, eləcə də Zəngəzurdan keçən marşrutlar xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, bu vəziyyətdən hər bir ölkə qazana bilər. Çünki bu dəmir yolunun bir qolu Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Culfa şəhəri vasitəsilə İrana daxil olacaq. Ermənistan da buraya daxil olacaq. Beləliklə, Ermənistan İranla onun arasında olmayan və heç vaxt da olmayacaq dəmir yolu əlaqəsinə malik olacaq. Çünki Ermənistan-İran sərhədinin coğrafiyası və tunellərin tikilməsi zərurəti bu dəmir yolunun dəyərini bəlkə də minimum 3-5 milyard dollar edəcək. Bu layihəyə kim sərmayə qoyacaq? Heç kim. Ermənistanın İranla dəmir yolu əlaqəsi qurmağının yeganə yolu bizdən keçir. Ermənistanın Rusiya ilə dəmir yolu əlaqəsi qurmağının yeganə yolu bizdən keçir".

Dövlət başçısı da vurğulamışdır ki, bu marşrutun açılmasında Ermənistanın marağı daha çox olmalıdır. Hamıya məlumdur ki, bu ölkə qonşuları ilə apardığı yanlış siyasət sayəsində blokada vəziyyətindədir, dəmir yolu əlaqəsinin olmaması üzündən iqtisadiyyatını inkişaf etdirə bilmir. Çünki məhsulun istehsalı qədər onun ixracı da vacibdir. Ermənistan bunu nə qədər tez başa düşsə, bir o qədər xeyrinə olar.

Qonşu dövlətin "Zəngəzur dəhlizinin açılması üçün Azərbaycan onlara möhtacdır" düşüncəsi kökündən yanlışdır. Azərbaycanın alternativ marşrutu var, Ermənistanın isə belə imkanı yoxdur. Bu üzdən onların Azərbaycana təzyiq göstərib hansısa güzəştə nail olacaqları barədə fikirləri xam xəyaldır. Prezident İlham Əliyev: "Azərbaycan və Gürcüstan üçün əməkdaşlıq coğrafiyasını, Qara dəniz-Xəzər dənizi əlaqəsini, Mərkəzi Asiya-Avropa əlaqəsini nəzərə alaraq, biz onlarsız, Ermənistansız da keçinə bilərik. Əgər onlar faydalanmaq istəyirlərsə, biz hazırıq, əks halda bu, belə davam edəcək".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Birləşmiş Ərəb Əmirlikləri Azərbaycandan öyrənir

## "ASAN xidmət" modelinə xarici ölkələrdə maraq böyükdür

Respublikamızda həyata keçirilən islahatların əsas istiqamətlərindən biri də hökumət-vətəndaş münasibətlərində daha çevik mexanizmlərin tətbiqi ilə bağlıdır. Vətəndaşlara göstərilən xidmətlərin operativ, daha keyfiyyətli, rahat şəkildə və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsini təmin edən əsas addım isə "ASAN xidmət" modelinin yaradılması oldu.



### "ASAN Assosiasiyası"

Yarandığı gündən ölkə ictimaiyyətinin rəğbətini qazanan "ASAN xidmət" modeli tezliklə beynəlxalq ictimaiyyətin də diqqətini cəlb etdi. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və tabeliyində olan qurumlar öz fəaliyyəti çərçivəsində indiyədək 15 ölkə və 2 beynəlxalq təşkilatla müqavilə imzalayıb. Bu çərçivədə İtaliya, Böyük Britaniya, Türkiyə, Monteneqro, Estoniya, Koreya, İndoneziya, Mərakeş, Özbəkistan, Uqanda və digər ölkələrin müvafiq sahələr üzrə fəaliyyət göstərən qurumları, eləcə də ICESCO və Afrika Birləşmiş Şəhərlər və Yerli Hökumət Təşkilatı (UCLG Afrika) ilə imzalanmış anlaşma memorandumlarını qeyd etmək olar.

2019-cu ilin iyununda Bakıda keçirilən BMT Dövlət Xidmətləri Forumu çərçivəsində isə "Dövlət Xidmətləri Göstərən Qurumların ASAN Beynəlxalq Assosiasiyası"nın ("ASAN Assosiasiyası") yaradılması barədə ilkin niyyət bəyannaməsi imzalanıb. Bəyannaməni Azərbaycan, Türkiyə, BƏƏ, Əfqanıstan, İndoneziya, Mərakeş, Monteneqro və Uqandanın müvafiq qurumlarının rəhbərləri imzalayıblar.

"ASAN Assosiasiyası"nın əsas məqsədi dövlət xidmətləri və onun göstərilməsi sahəsində yaranan aktual problemlərin və müasir çağırışların həll edilməsi yollarını və vasitələrini müzakirə etmək, dövlət xidmətlərinin göstərilməsi strategiyası və onun həyata keçirilmə çərçivəsini yaratmaq məqsədilə mütəxəssislər və ekspertlərin institusional şəbəkəsini təşkil etməkdir.

2022-ci ilin may ayında Dövlət Agentliyi və UCLG Afrika təşkilatının təşəbbüsü, eləcə də Mərakeş Merlər Assosiasiyasının (AMPCC) tərəfdaşlığı ilə "UCLG Afrika - ASAN - AMPCC Yerli Afrika Dövlət Xidməti Mükafatı" təsis olunub. Mükafatın yaradılmasında əsas məqsəd Afrika qitəsinin yerli və regional hökumətləri tərəfindən yerli idarəetmə və ictimai xidmətlərin göstərilməsi zamanı qarşıya çıxan çətinliklərin azaldılması və ya aradan qaldırılmasına yönəlmiş yeni həllərin və uğurlu təcrübənin beynəlxalq səviyyədə tanıdılması və mükafatlandırılmasıdır.

### BƏƏ-də də "ASAN xidmət" təcrübəsi tətbiq olunacaq

"ASAN xidmət" təcrübəsinə müxtəlif ölkələr maraq göstərir. Onlardan biri də Birləşmiş Ərəb Əmirlikləridir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin dəvəti ilə ölkəmizə səfər etmiş Birləşmiş Ərəb Əmirliklərinin kabinet işləri naziri Məhəmməd bin Abdullah Əl Qərqavinin rəhbərlik etdiyi nümayəndə heyəti bu günlərdə "ASAN xidmət"in fəaliyyəti ilə tanış olub. Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti barədə verdiyi məlumatda bildirib ki, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından "ASAN xidmət"in yaradılması ilə səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlər əldə olunub.

Görüş zamanı qonaqlara həmçinin Dövlət Agentliyinin digər fəaliyyət istiqamətləri, sosial innovasiyalar sahələrində həyata keçirilən işlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, bu günədək agentliyə 58 milyondan çox vətəndaş müraciət edib. Eyni zamanda Dövlət Agentliyinin 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Mükafatına, 2019-cu ildə isə BMT-nin rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görülməsi də diqqətə çatdırılıb. Nümayəndə heyəti "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin, "Bilim Bakı" mərkəzinin, "ABAD"ın fəaliyyəti və səyyar "ASAN xidmət" avtobusu ilə də tanış olub.

Daha sonra Azərbaycan Respublikası hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri hökuməti arasında təcrübələrin mübadiləsi sahəsində əməkdaşlığa dair anlaşma memorandumunun imzalanması mərasimi keçirilib. Memorandum "ASAN xidmət" təcrübəsinin BƏƏ ilə, habelə qarşı tərəfin "Hökumət Akselerasiya Proqramı"nın Azərbaycanla paylaşılması üzrə əməkdaşlığı nəzərdə tutur.

"ASAN xidmət" modelinin məqsədi dövlət xidmətlərini əlçatan, rahat, asan və səmərəli etməkdən ibarətdir. Görünən odur ki, ölkəmizin uğurlu modelinə dünyada maraq getdikcə artır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının vətəndaş qəbulu mərkəzində 2022-ci ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 1,15 |
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 2,16,23 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 29 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 30 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Azərbaycan və Əlcəzair arasında neft-qaz sahəsində əməkdaşlıq sənədi imzalanıb

Energetika naziri Pərviz Şahbazov Əlcəzair Xalq Demokratik Respublikasına səfəri çərçivəsində bu ölkənin energetika və mədən naziri Mohamed Arkab ilə görüşüb.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə neft-qaz, neft-kimya və bərpaolunan enerji sahələrində, həmçinin "Sonatrach" və "Sonelgaz" şirkətləri ilə əməkdaşlıq müzakirə edilib.

Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin Əlcəzairdə keçirilən Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında Fəxri qonaq statusunda iştirakının ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyəti vurğulanıb. İki ölkə arasında oxşarlıqların, neft sahəsində tarixən mövcud əlaqələrin enerji sahəsində əməkdaşlığın yeni mərhələdə inkişafı üçün platforma olduğu qeyd edilib.

Energetika naziri Pərviz Şahbazov deyib ki, zəngin karbohidrogen ehtiyatlarına malik, mühüm qaz təchizatçıları olan Azərbaycanla Əlcəzair arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi üçün enerji sahəsində geniş potensial var: "Ölkələrimiz arasında yüksək-səviyyəli münasibətlər və karbohidrogen sahəsində zəngin təcrübə enerji əməkdaşlığının əhatə dairəsinin genişləndirilməsini, qarşılıqlı fəaliyyətin gücləndirilməsini aktuallaşdırır".

Görüşdə Azərbaycanla Əlcəzairin qlobal neft bazarının balanslaşdırılması məqsədilə "OPEC+" formatında uğurlu əməkdaşlığından bəhs edilib. Hər iki ölkənin neft-qaz, eləcə də bərpaolunan enerji, enerji keçidi üzrə həyata keçirdiyi fəaliyyət və planlaşdırılan layihələr barədə geniş fikir mübadiləsi aparılıb.

Sonra neft və qaz sahəsində ikitərəfli əməkdaşlığın inkişafı məqsədilə "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında neft və qaz sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

Memorandum quruda və dənizdə karbohidrogenlərin tədqiqi və istehsalı, karbohidrogen layihələrinin, neft - kimya sənayesinin inkişafı, enerji məhsullarının marketinqi, nəqliyyatı və paylanılması üzrə əməkdaşlığı nəzərdə tutur. Sənəd həmçinin "Azeri Light" və digər xam neft növlərinin tədarükü, "yaşıl enerji" (hidrogen) istehsalı layihələrinin tətbiqi və hidrogenin daşınması ilə bağlı araşdırmaların aparılması, neft-qaz sektoru üzrə tənzimləyici, idarəetmə müəssisələrinin təşkili və yaradılması, birgə layihələrin həyata keçirilməsi, təcrübə mübadiləsi istiqamətlərində fəaliyyəti əhatə edir. Memorandumdan irəli gələn məsələlərin icrası üçün Birgə İşçi Qrupunun yaradılması planlaşdırılır.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyətinin tərkibində SOCAR-ın vitse-prezidenti Yaşar Lətifov və "Neftqazelmitədqiqatlayihə" İnstitutunun direktoru Fəxrəddin İsmayılov da iştirak edir.

# Baş prokuror Litvanın Xüsusi İstintaq Xidmətinin rəhbəri ilə görüşüb

Noyabrın 29-da Baş prokuror Kamran Əliyev "Avropa Qonşuluq Aləti" çərçivəsində həyata keçirilən "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı tvininq layihəsi çərçivəsində rəhbər komitənin növbəti iclasında iştirak etmək məqsədilə ölkəmizdə işgüzar səfərdə olan Litvanın Xüsusi İstintaq Xidmətinin rəhbəri Jidrunas Bartkusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələri ilə hüquqi müstəvidə, o cümlədən aktivlərin bərpası sahəsində həyata keçirilən institusional və qanunvericilik islahatlarının davam etdirildiyini vurğulayaraq bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və maliyyə istintaqının yaradılması ilə bağlı baxılmaqda olan qanun layihələrinə dair ətraflı məlumat verib.

Görüşdə həmçinin cinayət yolu ilə əldə olunmuş əmlakın müəyyən edilərək izlənilməsi, üzərinə həbs qoyulması, müsadirəsi və sonrakı idarəolunması ilə bağlı görülən işlərin miqyasının genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətində Azərbaycan Prokurorluğunun benefisiarı olduğu tvininq layihəsinin mühüm əhəmiyyəti olduğu bildirilib, bu sahədə beynəlxalq əməkdaşlığın zəruriliyi qeyd edilib.

Kamran Əliyev Azərbaycan Prokurorluğunun beynəlxalq və regional təşkilatlarla, həmçinin digər ölkələrin prokurorluq və anti-korrupsiya qurumları ilə səmərəli əməkdaşlığın davam etdirilməsi və həmin qurumlar arasında Avropa İttifaqının institutlarının xüsusi yer tutmasını xüsusi vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Jidrunas Bartkus layihənin icrasına start verildikdən sonra görülən işlər barədə məlumat verməklə, əmlakların bərpası sahəsində ölkəmizin qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə Baş Prokurorluq tərəfindən hazırlanmış qanun layihələrinin işin səmərəliliyinin artırılmasında mühüm rolu olacağını vurğulayıb.

Qarşılıqlı maraq doğuran digər mövzular müzakirə olunaraq Azərbaycanla Litvanın hüquq-mühafizə orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mədəniyyət naziri Anar Kərimov ayın 29-da Yevlax Şəhər Heydər Əliyev Mərkəzində görüş keçirib.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Yevlax və Mingəçevir şəhər, Bərdə və Tərtər rayon sakinləri, eləcə də digər rayonlardan qəbula yazılmış vətəndaşlar iştirak ediblər.

Heydər Əliyev Mərkəzində nazirliyin məsul əməkdaşlarının iştirakı ilə vətəndaşların qəbulu keçirilib. Anar Kərimov vətəndaşların müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

# Ararat Mirzoyanın Azərbaycanla Ermənistan arasında danışıqların mahiyyətini yanlış məcraya yönəltmək cəhdi əsassızdır

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın noyabrın 28-də "Armenpress" xəbər agentliyinə müsahibəsi zamanı Azərbaycanla Ermənistan arasında danışıqların mahiyyətini, sülh müqaviləsinin hazırlanması, delimitasiya prosesi, mina təhdidi, habelə ərazi bütövlüyünün tanınması kimi məsələlər üzrə fikirləri yanlış məcraya yönəltmək və təhrif etmək cəhdi tamamilə əsassız və qəbuledilməzdir.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib.

A.Hacızadə deyib ki, Azərbaycan və Ermənistan liderləri arasında növbəti görüşdə iştirak üçün Ermənistan tərəfindən şərt irəli sürülməsi, belə bir görüşün yalnız Fransa Prezidentinin iştirakı ilə keçirilə biləcəyinin bir daha təsdiqlənməsi Ermənistan tərəfinin üzərinə götürdüyü öhdəliklərə sadiq olmadığını göstərir və liderlər arasında növbəti görüşün Praqada deyil, məhz avqustun 31-də eyni formatlı üçtərəfli görüşün Brüsseldə liderlər arasında razılaşdırıldığını unudub. Brüsseldə növbəti görüş barədə əldə edilmiş razılığa baxmayaraq, Azərbaycan tərəfinin xoş niyyətlə Praqada görüşə, o cümlədən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə yanaşı, Fransa Prezidentinin iştirakına razılıq verməsindən təəssüf ki, növbəti mərhələdə sui-istifadə edilib, Fransa tərəfinin obyektiv və ədalətli vasitəçi olmadığını göstərib. Ermənistan tərəfindən fərqli olaraq, Azərbaycan tərəfi Brüsseldə əldə edilmiş razılığa uyğun olaraq liderlər arasında danışıqlardan imtina etməyib və danışıqların davam etdirilməsi öhdəliyinə sadiqdir.

"Delimitasiya prosesinin hansı əsasda aparılması barədə razılığa gəldikdə qeyd olunmalıdır ki, Ermənistanın xarici işlər nazirinin iddiasının əksinə, həm Praqa, həm də Soçi görüşləri üzrə bəyanatlarda delimitasiyanın BMT Nizamnaməsində və Alma-Ata Bəyannaməsində qeyd edildiyi kimi, ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı tanınması əsasında həyata keçirilməsi nəzərdə tutulub. Ümumiyyətlə, BMT Nizamnaməsinə və Alma-Ata Bəyannaməsinə istinad qeyd edilən prinsiplər kontekstində verilib və bu görüşlərdə delimitasiyanın hansı xəritə əsasında həyata keçirilməsi barədə hər hansı bir müddəa olmadığı Ermənistan tərəfinə yaxşı məlumdur. Delimitasiya prosesi isə bütün hüquqi əhəmiyyəti olan sənədlərin təhlili əsasında həyata keçirilməlidir", - deyə A.Hacızadə diqqətə çatdırıb.

Diqqətə çatdırılıb ki, bu ilin sentyabr ayında delimitasiya olunmamış sərhəddə Ermənistan tərəfinin mina basdırması və hərbi mövqelərimizə qarşı təxribat törətməsi nəticəsində baş vermiş toqquşma nəticəsində Azərbaycanın guya Ermənistan ərazilərini işğal etməsi iddiasının heç bir əsası yoxdur. Otuz ilə yaxın bir dövrdə Azərbaycan ərazilərini işğal altında saxlayan, ölkəmizin 8 kəndini hələ də işğal edən, qüvvələrini Azərbaycan ərazisindən tam çıxarmayan, hərbi təxribatlarını və mina təhdidlərini davam etdirən Ermənistanın Azərbaycanı delimitasiya edilməmiş sərhəddə hər hansı mövqe tutmaqda və bununla komissiyanın işinə maneçilik törətməkdə təqsirləndirməsi heç bir məntiqə sığmır. 2020-ci il Vətən müharibəsindən sonra ölkəmizin Ermənistanla sərhədlərin delimitasiya olunması təklifinə uzun müddət heç bir cavab verməyən tərəfin məhz Ermənistan olduğu da unudulmamalıdır.

Qeyd edilib ki, Ermənistan xarici işlər naziri müsahibədə ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığı barədə suala müsbət cavab verməkdən belə çəkinib. Azərbaycan tərəfinin müharibədən sonra Ermənistana təklif etdiyi və uzun müddət Ermənistanın cavabsız qoyduğu dövlətlərarası münasibətlərin bərqərar olması və sülh müqaviləsi imzalanması üçün beş baza prinsiplərin əsasında qarşılıqlı şəkildə suverenlik və ərazi bütövlüyünün təsdiq olunduğu Ermənistan tərəfinə məlumdur. Azərbaycan ərazilərinin 30 il ərzində işğal olunmasına və hərbi əməliyyatlar zamanı bütün imkanlara baxmayaraq, Azərbaycanın Ermənistan ərazisinə hücum etmədiyi də sirr deyil. Bütün bunların müqabilində baş verən təxribatlarda Azərbaycanın təqsirləndirilməsi tamamilə əsassızdır.

Sülh müqaviləsinin hazırlanması ilə bağlı suala cavabında Ermənistan naziri bütün digər məsələlər kimi manipulyasiyaya yol verir. Yaxşı olardı ki, beynəlxalq ictimaiyyət arasında çaşqınlıq yaratmaq əvəzinə, Ermənistan naziri sülh müqaviləsinin hazırlanması barədə ilk təklifin kimdən gəldiyi, baza prinsiplərinin ilk olaraq kim tərəfindən verildiyi, sülh müqaviləsinin elementləri üzrə ilk layihənin Cenevrə görüşündə kim tərəfindən təqdim olunduğu, eləcə də hər bir layihəyə Azərbaycan və Ermənistanın hansı müddət ərzində rəy bildirdiyi məsələsinə aydınlıq gətirərdi və bununla daha dolğun mənzərə yaranardı.

"Ermənistan tərəfinin birtərəfli qaydada guya Azərbaycana bütün mina xəritələrini verdiyi və ən çox minalanmanın Azərbaycan tərəfindən həyata keçirildiyi barədə tamamilə əsassız iddialara gəldikdə qeyd edək ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra, ilk 8 ay ərzində ümumiyyətlə mina xəritələrinin olmasını inkar edən Ermənistanın daha sonradan beynəlxalq təzyiq nəticəsində təqdim etdiyi kiçik qisim mina xəritələrinin etibarlılığının yalnız 25 faiz təşkil etdiyi məlumdur. Bununla yanaşı, son mina partlayışlarının təqribən 55 faizdən artıq hissəsinin Ermənistan tərəfindən təhvil verilən xəritələrdən kənar ərazilərdə baş verməsi və müharibədən sonra 268 nəfərin mina qurbanı olması bəllidir. Azərbaycan ərazilərini 30 il işğal altında saxlayan və keçmiş təmas boyu əraziləri tam olaraq minalayan Ermənistanın faktları təhrif edərək guya Azərbaycanın mina təhdidinin səbəbkarı olduğunu iddia etməsi riyakarlığın son həddidir. Ermənistanda 2021-ci ildə istehsal olunmuş minaların Azərbaycan tərəfindən Ermənistanla sərhəd ərazilərdən çıxarılaraq nümayiş etdirilməsi iddiası isə ən azı minaların təmizlənməsi işinin delimitasiya olunmamış sərhəddə Ermənistanın hərbi mövqelərinin müşahidəsi altında həyata keçirilməsinin qeyri-mümkünlüyü nəzərə alınaraq elementar məntiqə və hərbi biliklərə ziddir", - deyə XİN-in Mətbuat xidməti idarəsinin rəhbəri diqqətə çatdırıb.

Həmçinin qeyd edilib ki, Ermənistan xarici işlər naziri erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması məsələsində də növbəti dəfə manipulyasiyalara yol verir. Bu məsələdə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və digər rəsmi şəxslərlə mövqelərinin uyğunlaşdırılmasını xarici işlər nazirinə tövsiyə edərdik. Armen Qriqoryan tərəfindən bildirildiyi kimi, erməni qüvvələrinin Azərbaycan ərazisindən bu ilin sentyabr ayında çıxarılması nəzərdə tutulsa da, bu, hələ baş verməyib. Azərbaycan ərazisindən hansı qüvvələrin çıxarılması barədə öhdəliyə gəldikdə isə bir daha xatırladırıq ki, 2020-ci il 10 noyabr Bəyanatının 4-cü bəndinə əsasən, məhz bütün erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması nəzərdə tutulur və bu məsələdə manipulyasiyalar yolverilməzdir.

Üçtərəfli Bəyanatın müddəalarını yanlış şərh edərək öz öhdəliklərindən boyun qaçırmaq istəyən Ermənistan xarici işlər nazirinə xatırladırıq ki, bu destruktiv fəaliyyət bölgədə sülhün bərpasına xidmət etməməklə yanaşı, ilk növbədə Ermənistanın əleyhinədir.

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Avropaya qaz nəqlini artırmaq üçün kompleks tədbirlər görülməlidir

**Hər hansı qlobal bir layihənin həyata keçirilməsində sabitlik önəmli şərtlərdəndir. Azərbaycanın iqtisadi inkişafında da bu amil əsas rol oynayır. Belə ki, bu, yeni əməkdaşlıq körpülərinin yaranmasına və daha çox ölkə ilə yaxın münasibətlərin qurulmasına imkan verir. Sabitlik həmçinin Orta dəhlizin iştirakçısı olan hər bir ölkə üçün vacibdir. Təsadüfi deyil ki, noyabrın 25-də Bakıda, ADA Universitetində keçirilən beynəlxalq konfrans məhz belə də adlanırdı: "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat".**

Prezident İlham Əliyev konfransdakı çıxışında diqqəti Azərbaycanın coğrafi mövqeyinə yönəltdi. Belə ki, bizim açıq dənizə, okeanlara çıxışımız yoxdur. Ona görə də istər enerji, istərsə də nəqliyyat layihələrini gerçəkləşdirmək üçün gərgin işləmək lazım gəlmişdir. Eyni zamanda coğrafiyamızın üstünlüyü ölkəmizin Avropa ilə Asiyanın arasında yerləşməsindədir. İki qitənin ortasında yerləşmək bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir.

Tədbirdə dövlət başçısına ünvanlanan suallardan bir çoxu da elə əməkdaşlıq və tərəfdaşlıq şəraitində həyata keçirilən qlobal layihələrimizə aid olmuşdur. Mühüm əhəmiyyət kəsb edən nəqliyyat və logistika infrastrukturu ilə yanaşı, enerji məsələlərinin də gündəmdən düşmədiyi özünü göstərmişdir.

Əlbəttə, bu da təsadüfi deyil. Avropanın Azərbaycan qazına tələbatı artıb. Bununla yanaşı, axı özümüzün də mavi yanacağa ehtiyacımız böyükdür. Dövlət başçısı bu barədə belə demişdir: "Biz türkmən qazı ilə bağlı svop əməliyyatlarına başlamışıq. Bunun səbəbi odur ki, indi sənayemizdə artım müşahidə olunur və əlavə qaz həcmlərinə böyük tələbat var. Sənaye artır, əhalimiz artır. Biz indi Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması ilə fəal şəkildə məşğuluq və buna görə təbii qaza tələbat, əlbəttə ki, artacaq. Nə edilməlidir? Əlbəttə ki, biz mövcud yataqlardan və növbəti ildən etibarən istifadəyə veriləcək yeni yataqlardan qaz hasilatını artırmağı planlaşdıran əcnəbi neft şirkətləri ilə əməkdaşlığımızı davam etdirəcəyik".

İxracı artırmaq üçün eyni zamanda mövcud boru kəməri sisteminin genişləndirilməsi lazım gəlir. "Cənub qaz dəhlizi"nin iki il əvvəl istismara verilən sonuncu seqmenti TAP (Trans-Adriatik Qaz Boru Kəməri) Avropadakı istehlakçılara ahəngdar şəkildə mavi yanacaq daşıyır. Lakin bu gün kəmərin nəql etdiyi qaz həcminin iki dəfə - 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər artırılmasına tələbat yaranıb. Bunun üçün bütün pay sahiblərinin konsolidasiya olunmuş mövqeyi və sərmayəsi lazımdır. Qeyd edək ki, ölkəmiz TAP layihəsində 20 faiz paya malikdir. Bu səbəbdən də tərəfdaşların, necə deyərlər, əl-ələ verməyi vacibdir. Eləcə də TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) genişləndirilməli və onun ötürücülük gücü 16 milyard kubmetrdən 32 milyard kubmetrə çatdırılmalıdır. Bunun üçün də əlavə sərmayə lazımdır. Prezidentimiz eyni zamanda nəzərə çatdırmışdır ki, türkiyəli həmkarlarımızla tranzitlə bağlı razılaşmalarımız da olmalıdır. Bu olmadan Avropadakı, həmçinin Türkiyədəki istehlakçıların artan ehtiyaclarını ödəmək mümkün olmayacaq. Eləcə də iki ay əvvəl istifadəyə verilmiş Yunanıstan-Bolqarıstan İnterkonnektoruna zəruri həcmləri vurmaq üçün Türkiyə ilə tranzit razılaşmamız olmalıdır. Bu barədə danışıqlar davam edir.

Bolqarıstanla Serbiyanı birləşdirən digər interkonnektor isə gələn ilin sonunda hazır olacaq. Hazırda Azərbaycan Albaniya hökuməti ilə bu ölkənin qazpaylayıcı şəbəkəsinə sərmayə qoyuluşları barədə müzakirələr aparır. Məlum olduğu kimi, Albaniyada belə şəbəkə yoxdur, çünki o, yalnız tranzit ölkəsidir. Lakin yerli tələbatı təmin etmək üçün qaza da ehtiyacı var. Digər bir layihə isə İon-Adriatik kəməridir ki, üç Balkan ölkəsini əhatə edir. Maraqlı tərəflər bu layihə ilə bağlı Avropa İttifaqının öz mövqeyini bildirəcəyini gözləyirlər.

Prezident İlham Əliyev qaz ehtiyatlarımızın zəngin olduğunu bir daha vurgulayaraq investisiya həcminin artırılmasında maraqlı olduğumuzu da qeyd etmişdir. "Abşeron", "Ümid", "Babək", "Şəfəq-Asiman" perspektivli yataqlarının adını çəkmişdir. "Azəri-Çıraq-Günəşli"nin dərin qazının işlənilməsi və "Şahdəniz"də hasilatın artırılması ilə bağlı bp ilə danışıqların nə dərəcədə irəlilədiyi barədə sualın cavabında isə demişdir: "Əməkdaşlığımızı davam etdiririk. bp Azərbaycanda strateji sərmayədardır və bildiyiniz kimi, "Azəri-Çıraq-Günəşli"nin və "Şahdəniz"in əməliyyatçısıdır. Şirkətin öz fəaliyyətini genişləndirmək planları var. "Azəri-Çıraq-Günəşli" dərin dəniz qaz yatağının işlənilməsi layihəsi hazırda heç zaman olmadığı qədər daha da zəruridir. Bilirəm ki, bp ilə SOCAR arasında həmin layihə üzərində danışıqlar çox uğurla gedir... Bazarda qaza ehtiyac var. Nəhəng potensialdan istifadə etmək vaxtı yetişib, çünki "Azəri-Çıraq-Günəşli" dərin dəniz qaz yatağında hasil ediləcək qaz ayrıca böyük qaz yatağını nəzərdə tutur".

bp ilə eləcə də "yaşıl enerji"yə keçidlə bağlı planlarımız var. Şirkətin Cəbrayılda günəş enerji stansiyasının tikintisinə sərmayə yatırmaq qərarı yüksək dəyərləndirilir. 230 meqavatlıq bu stansiya azad edilmiş ərazilərdə birinci günəş-elektrik stansiyası olacaq.

Məlum olduğu kimi, hazırda Azərbaycanda bərpaolunan enerji növlərinin inkişafı istiqamətində davamlı layihələr reallaşır. Bu ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisinə start verilib. Daha sonra - martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulub. Perspektivdə yeni layihələrin gerçəkləşməsi dayanır. Belə ki, ölkəmiz "yaşıl enerji" siyasətinə münasibətdə uzunmüddətli hədəflər müəyyənləşdirib. İşğaldan azad edilmiş ərazilərimiz "yaşıl enerji" zonası elan edilib. Şübhəsiz ki, dünyanın həmin sahədə zəngin təcrübəsi olan şirkətləri ölkəmizin bu sahədəki potensialına diqqət yönəldəcəklər.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycanın ilk Vençur Kapital Fondu - "Caucasus Ventures" yaradılıb

**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, "PAŞA Holdinq" Şirkətlər Qrupu və fərdi investorların iştirakı ilə innovasiya ekosisteminin inkişafı üçün böyük əhəmiyyət kəsb edən "Caucasus Ventures" vençur fondu yaradılıb.**

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar keçirilmiş təqdimat mərasimində dövlət və özəl sektordan tanınmış şirkətlərin təmsilçiləri, investorlar, inkubasiya və akselerasiya mərkəzlərinin məsul əməkdaşları, xarici diplomatlar, beynəlxalq təşkilatların rəhbərləri və media nümayəndələri iştirak ediblər.

Fondun yaradılmasında əsas məqsəd toxum sonrası böyümə və "A" mərhələsində olan startaplara sərmayə yatırmaqdır. Fond Azərbaycanın innovasiya ekosisteminin inkişafı üçün əlverişli şərait yaradacaq, ölkədə investisiya mədəniyyətinin formalaşmasına təkan verəcək, xarici startaplar və investorların diqqətini yerli bazara cəlb edəcək. Vençur fondu innovasiya ekosistemində maliyyə axınını təmin etməklə startapların inkişafına önəmli töhfə verəcək.

Sözügedən fondun nizamnamə kapitalı 11,3 milyon manatdır. "Paşa Holdinq" Şirkətlər Qrupu fonda 5 milyon manat və fərdi sahibkarlar 1,3 milyon manat vəsait ayırmaq haqqında razılığa gəliblər. Eyni zamanda İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi özəl tərəfdaşların təşəbbüsünə dəstək göstərərək "Caucasus Ventures"ə əlavə 5 milyon manat vəsait ayırıb.

"Caucasus Ventures" 5 il ərzində Azərbaycan, Gürcüstan, Türkiyə, Orta Asiya və Şərqi Avropa ölkələrindən olan startaplara sərmayə yatıracaq.

## Dövlət Neft Fondunun növbəti il üçün proqnozlaşdırılan gəlirləri açıqlanıb

**Dövlət Neft Fondunun növbəti il üçün proqnozlaşdırılan gəlirləri cari ilin proqnozlaşdırılan gəlirlərindən təqribən 1,8 dəfə az nəzərdə tutulub.**

AZƏRTAC Azərbaycan Respublikası Hesablama Palatasının rəyinə istinadən xəbər verir ki, fərman layihəsinə əsasən, fondun büdcə gəlirləri 8 milyard 990,9 milyon manat həcmində proqnozlaşdırılıb. Bu da 2021-ci ilin müvafiq icra göstəricisindən 6 milyard 994,8 milyon manat (43,8 faiz), 2022-ci ilin proqnozundan 6 milyard 798,2 milyon manat (43,1 faiz), 2022-ci ilin gözlənilən icra göstəricisindən isə 6 milyard 137,7 milyon manat (40,6 faiz) azdır.

2023-cü il üçün fondun büdcəsinin baza göstəricisi olan 1 barel neftin orta illik ixrac qiyməti növbəti il üçün 50 ABŞ dolları, qazın Avropa Hub qiyməti 1000 kubmetr üçün 788 ABŞ dolları (BP tərəfindən təqdim edilən məlumata əsasən), Azərbaycan manatının ABŞ dollarına qarşı orta illik məzənnəsi isə 1,7 səviyyəsində götürülüb.

## Sosial müdafiə sistemində şəffaflığın təminatı və elektronlaşma ilə bağlı QHT-lər üçün təqdimatlar edilib

**Prezidentin 2022-ci il 4 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində vətəndaş cəmiyyəti institutları ilə növbəti görüş keçirilib.**

Görüş əmək, məşğulluq, sosial müdafiə sahələrində korrupsiyaya qarşı mübarizə tədbirlərinə, şəffaflığın təminatı və bu sahələrdə xidmətlərin elektronlaşdırılması istiqamətində aparılan işlərə həsr olunub.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev son 4 ildə həyata keçirilən sosial islahatların başlıca istiqamətlərindən birinin şəffaflığın təminatı, xidmət sahələrində vətəndaş-məmur təmaslarının minimuma endirilməsinə imkan verən geniş elektronlaşma proqramının icrası olduğunu  qeyd edib. O, 2019-cu ildən yaradılan DOST mərkəzlərində sosial sahə üzrə xidmətlərin "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş məmnunluğuna uyğun təqdim edildiyini vurğulayıb. Eləcə də nazirliyin fəaliyyət sahələrində inzibati idarəçilikdən əhaliyə xidmət modelinə keçildiyi, şəffaflığın təminatında mühüm önəm kəsb edən elektronlaşma proqramının geniş tətbiqi işləri diqqətə çatdırılıb, nazirlik üzrə 175 xidmətdən 110-nun elektron formada, o cümlədən 46-sının proaktiv qaydada göstərildiyi qeyd olunub. Həmçinin 2022-ci ildə nazirlik qurumlarının 11 beynəlxalq mükafatla təltif edildiyi, 2021-2022-ci illərdə 12 beynəlxalq ISO sertifikatının, o cümlədən "Antikorrupsiya idarəetmə sistemləri" üzrə beynəlxalq sertifikatların əldə olunduğu bildirilib.

Bundan əlavə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən son illər həyata keçirilən antikorrupsiya tədbirlərindən bəhs olunub, daxili nəzarət və audit tədbirləri nəticəsində aşkar edilmiş hüquqpozmalarla bağlı görülmüş tədbirlərə, sosial xidmətlər sahəsində rəqəmsal platformaların, e-xidmətlərin yaradılması işlərinə dair təqdimatlar edilib.

Nazirlik yanında İctimai şuranın sədri professor Elşad Məmmədov, Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənənyarlı, Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni, "İnformasiya Təşəbbüslərinə Dəstək" İB-nin sədri Cəsarət Hüseynzadə, "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İB-nin sədri Əhməd Abbasbəyli, "Demokratik İslahatçı Gənclər" İB-nin sədri Vüsalə Hüseynli, sosial-iqtisadçı ekspert Rəşad Həsənov və b. sosial sahədə innovativ həllərin, e-texnologiyaların geniş tətbiqinin şəffaflığın təminatında, sosial proqramların çevik və şəffaf icrasında, proqramlara əlçatanlığın artırılmasında  əhəmiyyətli rolunu vurğulayıblar.

Görüşdə vətəndaş cəmiyyəti institutları rəhbərləri rəy və təkliflərini ifadə edib, fikir mübadiləsi aparılıb. Korrupsiyaya qarşı mübarizədə, şəffaflığın, ictimai nəzarətin təmin olunması işlərində QHT-lərlə gələcək əməkdaşlıq müzakirə olunub.

## 9 ayda 20,7 milyard dollarlıq müsbət saldo



**Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-sentyabr aylarında ölkəmizdəki hüquqi və fiziki şəxslər dünyanın 178 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişlər, 121 ölkəyə məhsul ixrac, 164 ölkədən idxal olunmuşdur.**

Məlumatda qeyd edilir ki, hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla, cari ilin 9 ayında xarici ticarət dövriyyəsi 41 milyard 256,2 milyon, o cümlədən ixracın dəyəri 30 milyard 962,9 milyon, idxalın dəyəri 10 milyard 293,3 milyon dollar təşkil etmişdir. Nəticədə 20 milyard 669,6 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

Hesabat dövründə ötən ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 71,9, real ifadədə 9,1, o cümlədən ixrac real ifadədə 13,3, idxal 1,1 faiz artmışdır.

### Xarici ticarətdə ixrac idxalı 2 dəfə üstələyir

Xarici ticarət dövriyyəsinin 89 faizi İtaliya, Türkiyə, Rusiya, Hindistan, Çin, İsrail, Yunanıstan, Birləşmiş Krallıq, Almaniya, Çexiya, Xorvatiya, Gürcüstan, İspaniya, Portuqaliya, Ukrayna, ABŞ, Vyetnam, İsveçrə, Qazaxıstan, Tunis, İran və Rumıniyanın payına düşüb. Azərbaycan ən çox məhsulu Rusiya, Türkiyə, Çin, Almaniya, ABŞ və Qazaxıstandan idxal etmişdir. İdxalda maşınlar, mexanizmlər, elektrotexniki avadanlıq və aparatlar, nəqliyyat vasitələri, kimya sənayesi məhsulları, azqiymətli metallar və onlardan hazırlanan məmulatlar, mineral məhsullar, hazır ərzaq məhsulları, içkilər, həmçinin tütün məmulatları, bitki mənşəli məhsullar, plastik kütlə və ondan hazırlanan məmulatlar, toxuculuq materialları və məmulatların dəyəri üstün olmuşdur.

İxracda isə üstünlük İtaliyaya, Türkiyəyə, Hindistana, İsrailə, Yunanıstana, Birləşmiş Krallığa və Xorvatiyaya məxsusdur. İxracın strukturunda xam neftin, təbii qaz və neft-qaz məhsullarının, meyvə və tərəvəzlərin, kimya sənayesi məhsullarının, plastik kütlə və ondan hazırlanan məmulatların çəkisi yüksək olmuşdur. Bununla yanaşı, alüminium və ondan hazırlanan məmulatların, bitki yağlarının, şəkərin, alkoqollu və alkoqolsuz içkilərin də payı ixracda çoxdur.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin verdiyi məlumata görə, cari ilin yanvar-oktyabr aylarında ölkəmizin ümumi ixracı 34,7 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 2,4 milyard dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac ötən ilin 10 ayı ilə müqayisədə 16,2 faiz artıb.  O sırada kimya sənayesi məhsullarının ixracında 2 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracında 25,7, qara metallar və onlardan hazırlanan məmulatların ixracında 24,5, çay ixracında isə 48,9 faiz artım qeydə alınıb.

Bu dövrdə aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri isə 672,1 milyon dollar təşkil edib. İxrac edilən meyvə-tərəvəz məhsulları aqrar məhsullar qrupunda 92,5 faizə çatıb. Qeyri neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı əlavə dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 29 faiz artıb.

Bu ilin oktyabrına gəldikdə, ötən ay üzrə ixracın dəyəri 5,2 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 269,1 milyon dollar təşkil edib. Hesabat dövründə yeyinti məhsulları üzrə ixracın dəyəri 73 milyon, qeyri-yeyinti məhsulları üzrə 196,2 milyon  dollara bərabər olub.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Tədarük məntəqələrinə 295,6 min tondan artıq pambıq təhvil verilib



**Kənd Təsərrüfatı Nazirliyinin açıqladığı son məlumata görə, fermerlər tərəfindən kondisiya çəkidə 295 min 645 ton pambıq yığılaraq tədarük məntəqələrinə təhvil verilib. Hazırda ölkə üzrə pambığın orta məhsuldarlığı 28,3 sentnerdən çoxdur.**

Pambıq əkilmiş 16 rayondan 7-də - Ağcabədi, Beyləqan, Bərdə, Saatlı, Tərtər, Yevlax və Zərdabda orta məhsuldarlıq göstəricisi ümumrespublika göstəricisindən yüksəkdir.

Bu il Azərbaycanın 16 rayonunda ümumilikdə 100 min hektardan artıq sahədə pambıq əkini aparılıb. Ən çox pambıq Saatlı, Ağcabədi, Sabirabad və Bərdə rayonlarının ərazisində əkilib. Bu rayonların ərazisində pambıq əkinlərinin sahəsi 11 min hektardan çoxdur. Ümumilikdə ölkə üzrə pambıq əkini sahələrinin 45 faizdən çoxu bu 4 rayonun payına düşür.

Xatırladaq ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən, bu ildən tədarük məntəqələrinə təhvil verilən pambığa görə yalnız məhsul subsidiyası verilir. Eyni qərarla məhsul subsidiyasının məbləği hər tona görə 100 manatdan 170 manata qaldırılıb.

Kənd Təsərrüfatı Nazirliyinin pambıq tədarükü və emalı müəssisələri ilə apardığı müzakirələr nəticəsində 2022-ci ildə şirkətlər tərəfindən xam pambığın alış qiyməti yanvar və avqust aylarında hər dəfə 50 manat olmaqla iki dəfə artırılıb. Ötən il 1-ci sort pambığın 1 tonu fermerlərdən 700 manata alınırdısa, bu il təhvil verilən eyni sort pambığın 1 tonuna görə fermerlərə 800 manat ödənilir.

Pambıq yığımının optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

# Beynəlxalq bloqçuların Şuşa düşərgəsi yekunlaşıb

İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu Avrasiya Regional Mərkəzinin (İƏGF Avrasiya Regional Mərkəzi) təşəbbüsü ilə həyata keçirilən "Show Me Azerbaijan (Mənə Azərbaycanı göstər) - Beynəlxalq blogerlərin Şuşa düşərgəsi" layihəsi çərçivəsində 10-dan çox ölkəni təmsil edən blogerin Azərbaycana səfəri yekunlaşıb.



İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumundan AZƏRTAC-a bildiriblər ki, layihənin əsas məqsədi Azərbaycan və Qarabağ həqiqətlərini dünyaya yaymaqdır. Bu ilin sonuna qədər Qarabağla bağlı bloqçuların çəkdiyi videoreportajların və onlara baxış sayının on milyona qədər artırılması layihənin əsas məqsədlərindən biridir.

Son iki gündə Şəki, İsmayıllı və Şamaxıya səfər edən bloqçular Şəki Xan Sarayı, Karvansaray, o cümlədən bu rayonların qədim küçələri və məscidləri ilə tanış olublar.

Daha sonra Qəbələ rayonunun Nic kəndində Cotari Alban-Udi kilsəsi, eləcə də tatların yaşadığı Lahıcda olan bloqçuların bir çoxu Azərbaycanda istər dövlət, istərsə də cəmiyyət səviyyəsində multikultural və dini dəyərlərə, müxtəlif dillərdə danışan insanların bir-biriləri ilə mehriban şəraitdə yaşamasına xüsusi önəm verildiyini bildiriblər.

Basqalda bloqçular kəlağayı emalatxanasında olublar, Azərbaycanın bu qədim geyiminin hazırlanma üsulu ilə tanış olublar.

Amerikalı bloqçu Duqlas Barnard Şəkidə "İmam Əli" məscidinin qarşısında çəkiliş edərək bu yeri Nəcəf şəhərinə bənzədib. Bloqçular öz paylaşımlarında bu şəhərin qədimliyinə və gözəlliyinə, o cümlədən zəngin mətbəxinə heyran olduqlarını bildiriblər.

Növbəti gün onlar İsmayıllı rayonuna səfər ediblər. İraqlı bloqçu Seyf Aldin Lahıc haqqında "Bura çox gözəl yerdir, insanları sadədir" paylaşımı edib.

Finlandiyadan olan Kamilla Milya, portuqaliyalı Joao Leitao Lahıcın həm qədimliyinə, həm də təbiətinə, xüsusilə Zərnəvə asma körpüsünün gözəlliyinə heyran olduğunu bildiriblər. Son olaraq Şamaxıda Cümə məscidində olan müsəlman bloqçular namaz qılıblar.

Bloqçular hər üç rayonun bir sıra təbiət məkanlarına gediblər, öz profillərində video və foto paylaşımlar yayımlayıblar.

Qeyd edək ki, daha əvvəl bloqçular Füzuli və Şuşa şəhərlərinə səfər edərək 28 il davam edən erməni işğalı nəticəsində bu şəhərlərdə baş vermiş kütləvi dağıntılarla tanış olublar, bununla bağlı sosial şəbəkələrdə müxtəlif video və şəkil paylaşımları ediblər.

## Cənubi azərbaycanlı tədqiqatçılar Şuşada




Təbriz əsilli və hazırda Fransada yaşayan azərbaycanlı tədqiqatçılar erməni işğalından azad olunmuş Şuşa şəhərinə səfər edib, buranın tarixi məkanları və əsrarəngiz təbiəti ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşı qonaqlara - Fransada yaşayan Təbriz əsilli yazıçı, tədqiqatçı-jurnalist Maşallah Rəzmi və "Ərk" İnsan Hüquqları Müdafiə Komitəsinin sədri Jalə Təbrizliyə Şuşa şəhəri, işğal dövründəki vəziyyəti və azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verib. Bildirib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri olan Şuşa şəhər mərkəzi meydanına gələn qonaqlara güllələnmiş heykəllər barədə məlumat verilib. Qeyd olunub ki, işğal zamanı ermənilər heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər əvvəlki yerlərinə qaytarılıb.

Fransada yaşayan azərbaycanlı tədqiqatçılar sonra Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları ilə tanış olublar. Onlara Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Məlumat verilib ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri memarlıq abidələri ilə yanaşı, həm də məhəllələri ilə tanınıb. Qədim Şuşada 17 məhəllə olub. Şuşanın hər məhəlləsində məscid, bulaq və hamam vardı. Ermənilər Şuşanı işğal altında saxladıqları dövrdə qədim abidələri, o cümlədən məscidləri dağıdıblar. Bulaqların suyu qurudulub. Hazırda şəhərdə aparılan bərpa-quruculuq işləri çərçivəsində məscid və bulaqlar da bərpa edilir.

Qonaqlar sonda Cıdır düzünü və Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini ziyarət edib, sonra Füzuli rayonuna yola düşüblər.

## Cənubi azərbaycanlı tədqiqatçılar Füzulidə erməni barbarlığı barədə ətraflı məlumatlandırılıblar

Fransada yaşayan Təbriz əsilli azərbaycanlı tədqiqatçılar erməni işğalından azad edilmiş Ağdam və Şuşa şəhərlərindən sonra noyabrın 29-da Füzuli rayonunda olublar.

AZƏRTAC xəbər verir ki, "Ərk" İnsan Hüquqları Müdafiə Komitəsinin sədri Jalə Təbrizli və hüquq müdafiəçisi, yazıçı-tədqiqatçı Maşallah Rəzmi əvvəlcə Füzuli şəhərinin mərkəzinə gəliblər. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı tərəfindən ermənilərin işğal zamanı törətdikləri vəhşiliklər barədə məlumat verilib. Bildirilib ki, Füzuli şəhəri və rayonun kəndləri tamamilə viran edilib, yaşayış binaları ilə bərabər, tarixi-mədəni abidələr də dağıntılara məruz qalıb. Rayonun təbiəti - ağaclar və yaşıllıqlar, su mənbələri, o cümlədən kəhriz və bulaqlar məhv edilib.

Qonaqlar sonra Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olublar. Bildirilib ki, 1993-cü ildə Füzuli rayonu erməni qəsbkarları tərəfindən işğal ediləndən sonra su anbarının Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olub. İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə suyun qarşısını kəsir, suya ehtiyac olmayan vaxtlarda isə anbarlardan suyu buraxaraq ciddi problemlər yaradırdılar.






Cənubi azərbaycanlı tədqiqatçılar Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Məlumat verilib ki, 44 günlük Zəfər yürüşü zamanı azad edilən torpaqlarda Azərbaycan dövləti tərəfindən irimiqyaslı layihələr həyata keçirilir, tikinti-quruculuq işləri aparılır. Belə layihələrdən biri də Füzuli, Zəngilan və Laçın hava limanlarının inşasıdır. Artıq Füzuli Beynəlxalq Hava Limanının inşası başa çatıb. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanı xarici ölkələrdən təyyarələr qəbul edir. Həmçinin Füzuli şəhərinin bərpası istiqamətində görüləcək işlər barədə də məlumat verilib.

Qonaqlar sonra Merdinli kəndində erməni barbarlığı ilə tanış olublar. Onlara 30 illik işğal dövründə ermənilərin ölkəmizə qarşı törətdikləri cinayətlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, erməni vandalları işğal etdikləri şəhər və kəndlər kimi Merdinli kəndini də talayıb, Yer üzündən siliblər. Bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib. Düşmən Merdinli kəndindəki məsciddən mal-qara tövləsi kimi istifadə etməklə, azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdiriblər. Kənd qəbiristanlığı da erməni vandalizminə məruz qalıb - məzarlar dağıdılıb, məzar daşları uçurulub.

Erməni barbarlığına şahid olan qonaqlara, həmçinin Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə də məlumat verilib.



# Azərbaycan və yəhudi xalqlarının dostluğu tarixin sınaqlarından keçib

Xalqımızın belə bir deyimi var: "Dost dar gündə tanınar". Bu sözləri yəhudi xalqı haqqında da deyə bilərik. Həm tarixi faktlar, həm də yaxın keçmişimizdə yaşadıqlarımız sübut edir ki, bizi bir-birimizə dost edən cəhətlər çoxdur.



AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antopologiya İnstitutunun Antopologiya Mərkəzinin doktorantı kimi tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyim "Azərbaycanda yaşayan Avropa yəhudilərinin müasir etnomədəni dinamikasının xüsusiyyətləri" adlı dissertasiya işimdə bu mövzunu hərtərəfli araşdırmağa çalışmışam. Müxtəlif vaxtlarda isə ölkəmizdə və xaricdə nəşr olunan çap mediasında "Aşkenaz yəhudilərinin adət və ənənələri haqqında", "Aşkenaz yəhudilərinin Azərbaycan ərazilərinə gəlmələrinin tarixi", "Aşkenaz yəhudiləri icmasının ictimai təşkilatları", "Azərbaycan elminin, mədəniyyətinin və incəsənətinin inkişafında yəhudilərin rolu", "Azərbaycanda yaşayan yəhudilərin subetnik qrupları haqqında", "İkinci Dünya müharibəsi zamanı azərbaycanlıların yəhudilərə münasibəti haqqında" və s. elmi məqalələrlə çıxış etmişəm.

Apardığım araşdırmalar nəticəsində belə qənaətə gəlmişəm ki, yəhudilərin Azərbaycana güclü axını tariximizdəki bir neçə mühüm mərhələyə təsadüf edir. Götürək elə Xalq Cümhuriyyəti dövrünü. Məlumdur ki, ömrü az olan, lakin bu az müddətdə azadlığımız, istiqlaliyyətimiz yolunda tarixi işlər görən Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibində yəhudilər də vardı. XIX əsrin əvvəllərində Bakıda neft mədənlərinin işə düşməsi ilə əlaqədar Azərbaycana gələn bu millətin nümayəndələri müxtəlif sahələrdə azərbaycanlılara yaxından kömək göstərmişlər.

Yəhudilərin Azərbaycana gəlməsinin sonrakı böyük dalğası İkinci Dünya müharibəsi illərinə təsadüf edir. Məhz bu zaman xalqımızın humanistliyi, qonaqpərvərliyi, tolerantlığı sayəsində alman faşizminin işgəncələrindən qurtulmağa can atan çoxsaylı yəhudi ailələri respublikamıza pənah gətirmişlər.

Bir tərtərli olaraq rayonumuzun tarixini öyrənən insan kimi deyə bilərəm ki, o zaman kiçik bir rayon olan və kişilərin əksəriyyəti cəbhədə vuruşan Tərtərdə onlarla yəhudi ailəsi isti ocaq, çörək, tibbi yardım taparaq ölümün pəncəsindən xilas olmuşdur. Hazırda Ukraynanın Xarkov şəhərində yaşayan İrina Poqoster danışır ki, onlar Tərtərdəki 3 saylı məktəbdə yerləşdirilmişdilər. "Yerli əhali müharibənin o çətin günlərində təndirdə çörək bişirib ilk növbədə qaçqın ailələrinə gətirirdilər, xəstə uşaqlara hava-su kimi lazım olan və qlükozanı əvəz edən qənd tapıb verirdilər. O illər bütün tərtərlilərin ümid yeri olan Rüstəm həkim yəhudi ailələrinə baş çəkərək, özünün xalq təbabəti üsulu ilə hazırladığı dərmanlarla xəstələri müalicə edir, cəbhədən əlsiz-ayaqsız qayıdanların yaralarına məlhəm qoyurdu. Bütün bunlar təmənnasız, yalnız insanlıq naminə görülürdü. Ana nənəm Poqester Raisa Borisovna müharibə illərində Azərbaycana pənah aparan çoxsaylı yəhudilərdən biri idi. Tərtərdə məskunlaşmış, azərbaycanlı ilə ailə qurmuş, oğul-uşaq sahibi olmuşdur".

Müharibədən sonra qaçqınlar almanlardan azad olunmuş şəhərlərə qayıtdılar və onlar, o cümlədən Poqosterlər ailəsinin üzvləri azərbaycanlılara olan böyük məhəbbəti bu gün də qəlblərində yaşadırlar.

Bir faktı da qeyd etmək lazımdır ki, Azərbaycanda heç zaman antisemitizm olmayıb və yəhudi gənclər bizim ali məktəblərdə maneəsiz oxuyublar, iş yerlərində irəli çəkiliblər. Halbuki bunu keçmiş sovet respublikalarının heç biri haqqında demək olmazdı. Bu ruhda böyüyən gənclər Azərbaycanı öz vətənləri hesab ediblər. Onlar həm I Qarabağ müharibəsində, həm də 44 günlük Vətən savaşında bu torpaq uğrunda can verib, şəhid olublar. Prezident İlham Əliyevin sözləridir: "Bu gün Azərbaycanda dünya miqyasında nadir və təkrarolunmaz mühit yaradılıb. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu, bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdı".

Bu gün ölkəmizdəki sinaqoqlarda şəhidlərimizin ruhuna, Azərbaycan və İsrail dövlətlərinin və xalqlarının, o cümlədən bütün dünyamızın barış içində yaşaması üçün dualar oxunur.

***Aygün NƏZƏRƏLİYEVA,***
***Bakı şəhəri, 47 nömrəli tam orta məktəbin tarix müəllimi***

# Xarici jurnalistlər Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər

Xarici ölkələrdəki ispandilli kütləvi informasiya vasitələrində fəaliyyət göstərən bir qrup jurnalist İsraildəki Azərbaycan diasporunun dəstəyi ilə Azərbaycana səfər edib.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində xarici jurnalistlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, xarici işlər nazirinin müavini Fariz Rzayev, gənclər və idman naziri Fərid Qayıbov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən



Rzayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ilə görüşüblər. Qonaqlara Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, Qarabağ həqiqətləri, Ermənistanın 30 illik işğal zamanı törətdiyi cinayətlər, dini-mədəni abidələri məhv etməsi, 44 günlük Vətən müharibəsi dövründə cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrinə raket hücumları barədə ətraflı məlumat verilib.



Xarici jurnalistlər noyabrın 29-da işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. İki rayonun ərazisində Ermənistanın vəhşicəsinə törətdiyi dağıntıların və vandallıq aktlarının şahidi olan jurnalistlər foto və video çəkilişlər aparıb, Xudafərin körpüsündə və Zəngilanın Ağalı kəndində olublar. Onlara postmüharibə dövründə minaların təmizlənməsi, aparılan irimiqyaslı bərpa və yenidənqurma işləri, "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürüldüyü barədə müfəssəl məlumat verilib.

Qeyd edək ki, qrupun tərkibində "El Espanol" onlayn jurnalının, "La Vanguardia" (Barselona) və "La Razon" (Madrid) qəzetlərinin, "SIC", "Mediaset Espana", "La Vanguardia", "Haaretz" media qurumlarının, "The Jerusalem Post Magazine" və "The Berlin Quarterly" jurnallarının əməkdaşları yer alıblar.



# Mədəniyyət



● Qarabağ Azərbaycandır!





## Qarabağ gündən-günə gözəlləşib düşmənə gözdağı olur







**Qarabağ bizim üçün təkcə ərazi vahidi, torpaq, yurd yeri deyil. Bu torpaqların hər qarışı minilliklərin yaddaşından soraq verən maddi-mədəniyyət abidələrimiz, tariximizin qiymətli nümunələri, mədəniyyət xəzinəmizin nadir inciləri ilə zəngindir. Əcdadlarımız hələ min illər öncə bu torpaqlarda yurd salıb, bu yerləri özlərinə vətən seçiblər. Ulularımız babalarından onlara miras qalan əmanəti özlərindən sonra gələn nəsillərə çatdırmağı vəsiyyət ediblər. Bu torpaqların sahibi kimi hər qarışında silinməz iz qoymuşuq.**

Azıx mağarası, Füzuli bölgəsində Şeyx Yaqubun (XII əsr) türbəsi, Kəlbəcər rayonunun Bağlıpəyə kəndi ərazisində yerləşən Xudavəng monastırı (XIII əsr), Aşağı Veysəlli kəndindəki Mir Əli (XIV əsr) və Əhmədallar kəndindəki türbələr (XIV əsr), Şeyx İbrahim türbəsi (XVII əsr), Əhməd Sultan türbəsi, Cəlal türbəsi (1307), Horadiz kəndindəki Cümə məscidi, Dağlıq Qarabağ ərazisində Əsgəran qalası, Cəbrayıl rayonunda "Qız qalası", Cəbrayılın Şıxlar kəndində türbə (1308) və digər türbələr, Ağdam bölgəsində Xaçın-Dərbənd kəndi yaxınlığında 12 künclü türbə, Bərdə şəhərindəki Tərtər çayı üzərində 12 tağlı körpü (XIV əsr), "Bərdə", "Axsadan baba" türbələri (XIV əsr), Kərbalayi Səfxan Qarabaği tərəfindən Bərdə şəhərində tikilmiş qoşa minarəli "İmamzadə" məscid kompleksi (1868) kimi abidələr qədim tariximizin yadigarlarıdır. "Bəhmən Mirzə" türbəsi, Şuşa şəhərində səkkizbucaqlı türbə, Pənah xan qalası, Natəvanın evi, Mamayı məscidi, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarayı, Culfalar məscidi, Hacı Yusifli məscidi, Saatlı məscidi, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Laçın ərazisində Qarasaqqal türbəsi, Soltan baba türbəsi, Şeyx Əhməd türbəsi, Sarı aşığın türbəsi (XV əsr), Cicimli kəndindəki türbələr, Quşçu kəndində "Uşaq qalası", "Böyük bulaq" abidəsi (XV əsr), Həmzə Sultan sarayı (1761) və tariximizin minilliklərindən xəbər verən digər maddi-mədəniyyət nümunələri, əcdadlarımızın qoyub getdikləri "nişanlar" bu torpağın əsl sahibi olduğumuzu təsdiq edən danılmaz sübutlardır.

Müdriklər "torpağı qorumasan, əkib-becərməyə dəyməz, əkib-becərməyəcəksənsə, qorumağa dəyməz", nadanlar isə "torpaq mənimdir, əkmirəm" deyiblər. İllər idi ki, nadanlar işğal etdikləri ərazilərdə yalnız vandallıqla, dağıtmaqla məşğul olublar.

44 günlük zəfər müharibəsində igidlərimiz düşmənin üzərinə ay-ulduzlu bayrağımızla getdilər. Düşmənin başını əzərək o torpaqlarda yenidən Zəfər bayrağımızı ucaltdılar. Qanları, canları ilə torpağa nəfəs verdilər. Müzəffər Ali Baş Komandan Şuşaya elə ilk səfəri zamanı bütün dünyaya "Biz bu torpaqları yenidən dirildib, həyat verəcəyik. Bu yerləri cənnətə çevirəcəyik" mesajını verdi.

Qısa zamanda topların, ölüm saçan silahların açıldığı Qarabağdan indi həyat nəğməsi eşidilir. İlk növbədə əsgərlərimizin keçdikləri o ucalıqdan, zirvələrdən mədəniyyət paytaxtı Şuşamıza 95 kilometrlik Zəfər yolu çəkildi... Daha sonra Füzuli Beynəlxalq Hava Limanı tikilib istifadəyə verildi. Mədəniyyətimizin paytaxtı əsl tikinti meydanına çevrilib. Düşmənin dağıdıb viran qoyduğu tarixi abidələrimizin yenidən qurulub bərpa olunması işinə start verilib. 44 günlük Vətən müharibəsində şanlı qələbənin əldə edilməsi nəticəsində Azərbaycanın işğaldan azad olunmuş bütün ərazilərində geniş quruculuq işləri aparılır, o cümlədən erməni vandalizminə məruz qalmış tarixi-dini abidələrin bərpası, yaxud yenidən qurulması sahəsində mühüm addımlar atılır. Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2021-ci ildə Daşaltı və Hadrutda məscidin təməlinin qoyulması, Zəngilanda İmam Hüseyn, Ağdamda Cümə və Qiyaslı məscidlərinin yenidən qurulması işlərinə start verilməsi, Şuşada Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidlərinin və Qazançı kilsəsinin bərpa edilməsi Azərbaycan dövlətinin milli-mənəvi, tolerant dəyərləri yüksək qiymətləndirdiyinin göstəricisidir. Biz bütün bunları kiməsə göstərmək üçün etmirik. Bunları həyat prinsiplərimiz olduğu üçün edirik.

2021-ci il oktyabrın 3-də Prezident İlham Əliyevin Tərtər rayonunun Talış kəndinə səfəri zamanı orada ermənilərin dağıtdığı alban-udi və rus-pravoslav kilsələrində olması, hər iki ibadətgahda təmir və bərpa işlərinin aparılacağını bildirməsi bütün dinlərə tolerant yanaşmanın parlaq ifadəsidir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması iqtisadi inkişafa töhfə verəcək. Hazırda həmin rayonlara sürətlə yol çəkilir. Laçında beynəlxalq hava limanı, su-elektrik stansiyalarının təməlqoyma mərasimi keçirilib, rayonda sürətlə tikinti-quraşdırma işləri gedir. Laçında ermənilərin dağıtdığı 14 kiçikhəcmli elektrik stansiyası bərpa olunmaqla yanaşı, 120 meqavat elektrik hasil edən 28 elektrik stansiyasının tikilməsi planlaşdırılır. Laçın şəhər 2 saylı məktəbin yenidənqurma və bərpası üçün dövlət başçısı vəsait ayırıb. Eləcə də Zabux kəndində məktəb tikintisinə start verilib. Zəngilan rayonuna qayıdış başlayıb. Ölkəmizdə "ağıllı kənd", Ağalı möcüzəsi dillərdə dastan olub. Zəngilan Beynəlxalq Hava Limanı artıq özünün ilk xarici qonaqlarını da qəbul edib. Zəngilanda "Dost Aqro" fəaliyyətə başlayaraq məhsul istehsalını artırır. Zəngilanın nəhəng logistik mərkəzə çevriləcəyi şübhəsizdir.

Kəlbəcər rayonu faydalı qazıntıları ilə məşhurdur. Necə deyərlər, bu rayonun altı da, üstü də qızıldır. Bu bölgədə turizmin inkişafı üçün hər cür şərait var. Hazırda Prezident İlham Əliyevin nəzarəti altında bu ərazilərdə sürətlə quruculuq və tikinti işləri gedir. Bu iki yeni iqtisadi rayonun yaranmasında strateji məqsəd Zəngəzur dəhlizi vasitəsilə qərblə şərq, şimalla cənub arasındakı yükdaşımaların intensivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi durur. Sözsüz ki, reallaşmaqda olan proqram ölkəmizin rəqabət qabiliyyətini yüksəltməklə yanaşı, iqtisadi qüdrətini də dəfələrlə artıracaqdır. Bu gün Qarabağın bütün əraziləri kimi, Kəlbəcər rayonu da geniş tikinti meydançasına çevrilib. Bu rayonda da infrastrukturun sürətlə yeniləşməsi prosesi gedir. Məşhur "İstisu" sanatoriyası bərpa edilir. Məktəb tikilir, yollar salınır... İşğaldan azad edilmiş ərazilərdə quruculuq və abadlıq işləri çərçivəsində Kəlbəcər rayonunda yeni 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası tikilib istifadəyə verilib. Xatırlatmaq yerinə düşər ki, bu günlərdə işğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı dövlət başçısının tapşırığına uyğun olaraq ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" kiçik su-elektrik stansiyaları da tikilib istifadəyə verilib. İndiyədək bu stansiyalarda 30 milyon kilovatsaat elektrik enerjisi istehsal olunub.

Qələbəmizin, qüdrətimizin rəmzi olan Şuşa şəhərində başqa bir büsat var. Şuşanın ermənilər tərəfindən dağıdılmış hər bir küçəsində, hər bir yerində abadlıq, quruculuq, təmir-bərpa işləri aparılır. Tarixi abidələrimizə yenidən həyat verilir. Şuşada infrastruktur bərpa olunur. Şəhərin elektrik enerjisi, su ilə fasiləsiz təminatı tam təchiz olunub.

Ağdamda yüksəkmərtəbəli binaların tikintisinə start verilib…

Qarabağın ağ günləri başlayıb…

Biz ermənilərin dağıdıb viran qoyduqları torpaqlara yenidən həyat veririk. Torpaq sahibini səsindən, nəfəsinin hərarətindən tanıyır. Bizim torpaq sevgimiz bütün sevgilərin fövqündə durur. Elə bu səbəbdən də torpağımızın hər qarışını düşmən işğalından azad etmək üçün minlərlə insan canını vətənə fəda edib torpaqlarımızı qanları ilə murdarlardan təmizlədilər. Şəhid qanı ilə yuyulmuş Qarabağımız hər gün bir boy da böyüyüb, düşmənə dərd olur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Yaddaş

## Özbəkistanda "Türkistan və Qafqazların unikal tarixi xəritələri" adlı sərgi keçiriləcək

**Bu ilin dekabrında Özbəkistanda Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetində ölkənin elm, təhsil nümayəndələri, alim və tədqiqatçıların iştirakı ilə "Türkistan və Qafqazların unikal tarixi xəritələri" adlı Azərbaycan-Özbəkistan-Türkiyə sərgisinin açılışı nəzərdə tutulur.**



Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və təşkilatçılığı ilə keçiriləcək sərgiyə Özbəkistan Mədəniyyət Nazirliyi, Ankaradakı Türk Tarixi və Mədəniyyəti Fondu dəstək göstərir.

Daşkənd Dövlət Pedaqoji Universitetin mərkəzi foyesində təşkil olunacaq sərgidə Mərkəzi Asiya, habelə Qafqazların ən qədim dövr, Orta əsrlər, habelə sovet dövrünə aid tarixi xəritələrinin surətləri nümayiş etdiriləcək.

Türkistanın unikal xəritələri və tarixi fotoşəkillərinin də Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetində təşkil edilən sərgidə nümayişi nəzərdə tutulub. Bu xəritələr məşhur coğrafiyaşünaslar tərəfindən tərtib edilmiş və türk xalqlarının tarixini və yayılmasını əks etdirir.

Türkistan və Qafqazlara dair tarixi xəritələrin sərgisinin keçirilməsi barədə təklif Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovun Türk Tarixi və Mədəniyyəti Fondunun rəhbəri Nizamettin Aykurtla keçirilən görüşü zamanı irəli sürülüb. Görüşdə Nizamettin Aykurt 1872-ci ildə hazırlanmış, Avropa, Kiçik Asiya yarımadası, habelə Qafqaz ərazilərini özündə əks etdirən "Yustinian hakimiyyətinin sonlarına doğru Avropa" adlı (eramızın 560-cı ilini əhatə edən) tarixi xəritənin surətini Samir Abbasova hədiyyə edib. Xəritədə Qafqaz Albaniyası və Atropatena kimi Azərbaycan dövlətləri yer alıb.

Samir Abbasov görüş zamanı xəritələr sahəsində xüsusi həssaslıq nümayiş etdirilməsinin vacib olduğunu qeyd edərək, dünyanın bir sıra muzeylərində yanlış xəritələrin sərgiləndiyini bildirib. O, regiona dair saxtalaşdırılmamış və həqiqəti əks etdirən tarixi xəritələrin Azərbaycan və Özbəkistan muzeylərinə təqdim olunmasının xüsusi əhəmiyyət daşıdığını qeyd edib və tərəflər bu mövzuda birgə əməkdaşlığı razılaşdırıblar.

● Xəbərlər

## Milli Kitabxanada "Fikrət Əmirov - 100" adlı virtual sərgi açılıb

**Görkəmli bəstəkar, Xalq artisti Fikrət Əmirovun anadan olmasının 100 illiyi münasibətilə Milli Kitabxanada "Fikrət Əmirov - 100" adlı virtual sərgi açılıb.**



Sərgidə Fikrət Əmirovun zəngin yaradıcılığı haqqında kitablar, rəsmi sənədlər, fotolar, mükafatlar və dövri mətbuat səhifələrində dərc olunan məqalələr nümayiş etdirilir.

## "Şuşa - Qarabağın dünəni, bu günü, sabahı": boyaqçılıq sənəti



**"Şuşa ili" çərçivəsində Azərbaycan İstiqlal Muzeyi tərəfindən həyata keçirilən "Şuşa - Qarabağın dünəni, bu günü, sabahı" adlı layihə davam edir.**

Layihə çərçivəsində növbəti təqdimat Şuşanın boyaqçılıq sənətinə həsr olunub.

Qarabağda boyaqçılıq sənətinin əsas mərkəzi Şuşa şəhəri idi. XIX əsrin əvvəllərində burada fərdi şəkildə işləyən boyaqçı sənətkarlardan əlavə, 3 böyük boyaqxana fəaliyyət göstərirdi. Bu haqda məlumat verən mənbələrdən birində deyilirdi: "Şuşada pambıq ipliyini, ipək və yunu boyamaq üçün 3 boyaqxana var ki, onlardan birində ancaq göy rəngə, qalan ikisində isə göy rəngdən başqa digər müxtəlif rənglərə boyayırlar".

Qarabağ ərazisinin müxtəlif növ boyaq bitkiləri ilə zəngin olması burada boyaqçılıq sənətinin inkişafına güclü təsir göstərmişdi. Qırmızı rəng və onun müxtəlif çalarlarını almaqda əvəzsiz xammal hesab edilən boyaqotu (qızılboya) tədarükü Qarabağ xanlığında da inkişaf etmişdi. Burada hər il tədarük olunan 10 min pud boyaqotunun bir hissəsi xarici bazarlara çıxarılır, digər qismi isə yerli istehsala sərf olunurdu.

Azərbaycanın digər yerlərində olduğu kimi, Şuşada da boyaqçılar tut yarpağı, ceviz gərzəyi, nar qabığı, alma, ərik, heyva, gavalı, şaftalı, səndəl ağacı və digər bitkilərdən istifadə edərək öz məhsullarına 50-yə qədər rəng çaları verməyi bacarırdılar.

Zaman keçdikcə toxuculuğun, xüsusilə də xalçaçılıq sənətinin daha da inkişafı boyaqçılıq işinin də inkişafına güclü təkan verdi. Artıq XIX əsrin sonlarında Şuşada fəaliyyət göstərən boyaqxanaların sayı 8-ə çatmışdı. XX əsrin əvvəllərində Şuşa boyaqxanalarının istehsal gücü daha da artmışdı.

## Bakıda turizm sammiti keçiriləcək

**Dekabrın 8-də Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə turizm sahəsindəki inkişaf tendensiyalarını, o cümlədən marketinq, regional inkişaf və turizm siyasəti məsələlərini müzakirə etmək məqsədilə "Azərbaycan Turizm Sammiti-2022" tədbiri keçiriləcək.**



Tədbirdə "Turizm sektorunda dövlət siyasəti və bazar tənzimlənməsi: Azərbaycanda əsas istiqamətlər və yanaşmalar", "İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişafı", "Əsas hədəf bazarlarında marketinq fəaliyyəti" və "Turizm sənayesində mövcud vəziyyət və planlar" mövzularına həsr olunmuş 4 panel çərçivəsində müzakirələr aparılacaq.

Bakı Konqres Mərkəzində reallaşacaq tədbirdə turizm sənayesinin üzvləri, dövlət və özəl sektorun nümayəndələri iştirak edəcəklər.

## Sumqayıt Dövlət Dram Teatrında yeni layihə



**Sumqayıt Dövlət Dram Teatrında son illər yeni layihələr əsasında tamaşalar hazırlanır. Bu günlərdə Sumqayıt Musiqi Kollecinin kollektivi ilə birgə Ə.Haqverdiyevin "Kimdir müqəssir" vodevili əsasında hazırlanmış tamaşanın premyerası keçirilib. İstedadlı rejissor Fuad Kazımovun quruluş verdiyi tamaşa alqışlarla qarşılanıb.**

Teatrın direktoru, Əməkdar artist Vidadi Məmmədov bildirib ki, bu, kolleclə əməkdaşlığın uğurlu nəticəsi kimi dəyərləndirilməlidir. İlk dəfə səhnədə canlı musiqi aktyor oyununu müşayiət edib. Könül Bəkirovanın rəhbərlik etdiyi musiqi qrupu tamaşaya fərqli ovqat verib.

Tamaşanın quruluşçu rəssamı Nizami Dadaşov, icraçı rəssamı Arif Müzəffərov, musiqi tərtibatçısı isə sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevdir. Oyunda iki heyət çıxış edib. Premyera axşamında obrazları Elay Xasıyev, Vəfa Qurbanova və Elmir Mehdiyev canlandırıblar.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

● Ədəbiyyat xadimləri

# Həyat həqiqətlərini bədii dildə qələmə alan yazıçı

**Bədii yaradıcılığa müharibə illərində başlayıb. O zaman çox gənc idi. 1922-ci il noyabrın 22-də Bakıda dünyaya gələn Hüseyn Abbaszadənin uşaqlıq illəri də o qədər ürəkaçan keçməyib. 1941-ci ildə, on yeddi yaşında isə müharibənin ağrı-acılarını yaşayıb. Orta məktəbi bitirən kimi orduya səfərbərliyə alınıb, Dörd il, 1941-1945-ci illərdə Şimali Qafqaz, Leninqrad, 1-ci və 4-cü Ukrayna cəbhələrində döyüş yolu keçib. Müharibədə şücaətlərinə görə, "Qırmızı ulduz" ordeni ilə təltif edilib. İlk şeirləri cəbhə qəzetlərində dərc olunub.**



### Qələbədən arzulara doğru...

O illərdə iştirak etdiyi, yaddaşına həkk olunan çətin döyüşlər gənc Hüseyn Abbaszadə üçün yalnız zəngin həyat məktəbi olmayıb, həm də yaradıcılıq yolunun müəyyənləşməsində böyük rol oynayıb.

Müharibənin ağrılarını o həm də canında daşıyırdı. Böyük Vətən müharibəsində ağır yaralanıb. Yaralı vəziyyətdə qatarla Şimali Qafqaza aparılıb. 1945-ci ilin 9 may günü qələbə xəbərini də o zaman eşidib. Müalicə olunub. Bir müddət sonra tərxis edilib və Bakıya qayıdıb.

Müharibədən yalnız topçu zabit kimi deyil, həm də şair kimi dönən gənc Hüseyn Abbaszadə yarımçıq qalmış arzularını həyata keçirməyə başlayıb. Ali təhsil almaq üçün sənədlərini Mirzəağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Teatrşünaslıq fakültəsinə verib və qəbul edilib. 1948-ci ildə Azərbaycan Yazıçılar İttifaqının (indiki Azərbaycan Yazıçılar Birliyi) üzvü olub.

"Pioner" jurnalında əmək fəaliyyətinə başlayıb. Daha sonra "Göyərçin" jurnalının redaksiyasında çalışıb. 1964-1966-cı illərdə baş redaktor, 1966-1971-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin, 1972-1975-ci illərdə isə yenidən "Göyərçin" jurnalının baş redaktoru olub. 1975-1991-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi vəzifəsində çalışıb.

### "Dünyadan gör necə insanlar gedib..."

Yaradıcılığa yeni başladığı vaxtlarda Üzeyir bəy Hacıbəyli ilə tanış olması da Hüseyn Abbaszadə üçün ən unudulmaz xatirələrdən biri idi. İstedadlı bəstəkar Ağabacı Rzayevanın Hüseyn Abbaszadənin şeirinə bəstələdiyi mahnını təhlil edən Üzeyir bəy şeirin müəllifini görmək istəyib. O, gənc şairə musiqi mətni yazmağı hər şairin bacarmadığını deyib və tövsiyə edib ki, bəstəkarlarla daim əlaqə saxlasın.

Şeirləri ilə gəldiyi ədəbiyyat zaman keçdikcə onu daha da cəlb edib, cazibəsinə salıb. Hüseyn Abbaszadə gənclik coşqusu ilə qələmə aldığı şeirlərdən başlanan yaradıcılıq yolunu nəsr əsərləri ilə davam etdirib. Müxtəlif mövzularda hekayələr, povestlər, romanlar yazıb. "Uçurumdan keçən yol", "Dağ dağa rast gəlməz", "Təsəlli", "Meynə", "Çəmbərəkənd balladası", "Ocaqçı", "Köhnə sandıq", "Büllur mürəkkəbqabı və bənövşəyi "Jiquli", "Siz kimsiniz?" və digər əsərlərində həyat həqiqətlərini əks etdirib.

Yazıçının daimi mövzularından biri də müharibə idi. Çoxlarından fərqli olaraq Hüseyn Abbaszadə cəbhə, döyüşlər barədə başqalarından eşitdiklərini, oxuduqlarını deyil, həm də gördüklərini qələmə alırdı.

H.Abbaszadə həm də bir sıra şair, yazıçı, bəstəkar və alimlər barədə xatirələrini yazıb. Həmin xatirələr yazıçının "Dünyadan gör necə insanlar gedib..." kitabında toplanıb.

Hüseyn Abbaszadə Azərbaycan tarixində, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının, elminin inkişafında böyük xidmətlər göstərmiş bir çox şəxsiyyətləri yaxından tanıyıb, onlarla ünsiyyətdə olub, dostluq edib. Hələ Teatr institutunun tələbəsi ikən Hüseyn Abbaszadə aktyor və rejissor Sidqi Ruhullanın yaradıcılığından diplom işi yazıb.

Dahi bəstəkar Üzeyir bəyi isə o, yeniyetməlik illərində yaxından görmüşdü. Onda on dörd-on beş yaşlarında olub. Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasından bir səhnəni məhəllənin uşaqları ilə səhnələşdirib, küçədə oxuyublar. Yoldan ötən Üzeyir bəy onları görüb. Yaxınlaşıb, "Koroğlu" operasına baxıb-baxmadıqlarını soruşub. Baxmadıqlarını söyləyiblər. Bəstəkar cibindən bilet çıxarıb, uşaqlara verib, onları operaya baxmağa dəvət edib.

Hüseyn Abbaszadənin qələmə aldığı xatirələrdə eyni zamanda o vaxtların siyasi hadisələrinin ağır kölgəsini, böyük sənətkarların üzləşdikləri ağrı-acıları görmək mümkündür. Yazıçı özü də bu hadisələrdən tamamilə kənarda qalmayıb.

Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan, böyük nəsr əsərlərinin müəllifi kimi tanınan yazıçı Hüseyn Abbaszadənin kino sahəsində də xidmətləri olub. Əsərləri əsasında çəkilən "Dənizə çıxmaq qorxuludur" (1973) və "Dörd bazar günü" (1975) filmləri kinosevərlər tərəfindən maraqla qarşılanıb.

Hüseyn Abbaszadə 1979-cu ildə Əməkdar incəsənət xadimi fəxri adına, 1984-cü ildə Dövlət mükafatı laureatına, 1991-ci ildə "Xalq yazıçısı" fəxri adına, 1997-ci ildə "Şöhrət" ordeninə layiq görülüb.

Yazıçı 2007-ci ildə, səksən beş yaşında dünyasını dəyişib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*




# 20 İL SONRA...

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1 | **Niderland** | 3 | 2 | 1 | 0 | 5-1 | 7 |
| 2 | **Seneqal** | 3 | 2 | 0 | 1 | 5-4 | 6 |
| 3 | Ekvador | 3 | 1 | 1 | 1 | 4-3 | 4 |
| 4 | Qətər | 3 | 0 | 0 | 3 | 1-7 | 0 |

A qrupunun sonuncu turunda ən maraqlı qarşılaşma Ekvador və Seneqal yığmaları arasında oynanıldı. Qalib gələcək komanda 1/8 finala yüksələcəkdi. Əzmkar, meydançanın bütün zonalarında daha yaxşı təsir bağışlayan Afrika təmsilçisi 2:1 hesabı ilə qələbə qazanaraq 20 ildən sonra mundialın 1/8 finalına yüksəlib.

Maraqlısı da odur ki, Seneqal millisinin baş məşqçisi Aliu Sisse 2002-ci ildə futbolçu kimi 1/8 finala yüksələn komandasını bu dəfə çalışdırıcısı olaraq bu uğura çatdırıb.

Həmin dövrdə yığma Yaponiya və Cənubi Koreyanın evsahibliyi etdiyi mundialı 7-ci sırada tamamlayıb. Bu, həm də ölkənin buna qədər dünya çempionatlarında əldə etdiyi ən böyük uğurdur. İndi isə seneqallıların daha yeni nailiyyət qazanmaları üçün yaxşı fürsət yaranıb.

Qeyd edək ki, yığmanın dəyəri 296,7 milyon avrodur. Komandanın heyətində "Çelsi"dən Eduard Mendi, Xalidu Kulibali, "Bavariya"dan Sadio Mane kimi ulduz futbolçular yer alır.

Ekvador millisi isə 2006-cı ildə keçirilən dünya çempionatında qrup mərhələsindən çıxmaqla tarixi uğura imza atıb. Komanda 1/16 finalda İngiltərə yığmasına uduzub - 0:1. Ekvador millisinin Amerika kubokunda ən böyük uğuru 4-cü olmağıdır. Komanda iki dəfə - 1959 və 1993-cü ildə turnirdə bu yeri tutub. Kollektiv 2021-ci ildə baş tutan Amerika kubokunu 8-ci sırada bitirib.



* * *

Qrupun digər matçında 1/8 final şansını itirən Qətər qrupun lideri Niderlandla görüşüb. Meydan sahiblərini 2:0 hesabı ilə məğlub edən "narıncılar" qrup qalibi kimi 1/8 finala vəsiqə qazanıb.

Qeyd edək ki, Niderlandın beynəlxalq arenada ən böyük uğuru iki dəfə Avropa çempionu olmaqdır. "Uçan hollandlar" 1976 və 1988-ci ildə keçirilən yarışı qazanıblar. Komandanın dünya çempionatındakı ən yaxşı göstəricisi isə 2-ci olmaqdır. Bu uğura 2010-cu ildə yiyələniblər. Niderland Rusiyada baş tutan (2018) son dünya çempionatının final mərhələsində yer almayıb.

Niderlandın heyətinin dəyəri 494,40 milyon avrodur. Komandanın ən dəyərli oyunçusu Matteys de Lixtdir. "Bavariya"da (Almaniya) çıxış edən müdafiəçinin qiyməti 70 milyon avrodur. Komandanın heyətində "Barselona"dan Frenki de Yonq, Memfis Depay, "Liverpul"dan Vircil van Dayk, "Mançester Siti"dən Natan Ake kimi ulduz futbolçular yer alır. Niderlandın hazırda ən gənc oyunçusu Devin Renşdir. Baş məşqçisi isə Lui Van Qaldır.

## *Ötən günün nəticələri*

**A qrupu**

Ekvador- Seneqal 1:2
Niderland- Qatar 2:0

## *30 noyabr təqvimi*

**D qrupu**

Tunis- Fransa (19:00)
Avstraliya- Danimarka (19:00)

**C qrupu**

Polşa- Argentina (23:00)
S.Ərəbistanı- Meksika (23:00)




# Fernandu Santuş çox razıdır



**Portuqaliya millisinin baş məşqçisi Fernandu Santuş mundialın qrup mərhələsinin 2-ci turunda Uruqvaya qalib gəldikləri matç (2:0) barədə danışıb.**

Bu qələbə ilə 1/8 finala adlayan yığmanın çalışdırıcısı komandasının çıxışından razı qaldığını deyib: "Bu, əla oyun idi və qalan heç bir şeyin əhəmiyyəti yoxdur. Komandamız çətin rəqibə qarşı əla oyun nümayiş etdirdi. Boşluqlar tapıb matça nəzarət etməyi, hücum yaratmağı bacardıq. Biz əks-hücumda oynayaraq Uruqvayın istədiyini etməsinə mane olduq. İlk iyirmi dəqiqə çətin keçdi və bu, Uruqvayın xeyrinə idi. Amma sonra ikinci hissədə özümüzü toparlamağı bacardıq. Oyunumuzda nəyi inkişaf etdirmək lazımdır? Bunu oyunçularla müzakirə etməliyik. Topla kombinasiyaları təkmilləşdirməli və rəqiblərin cərimə meydançamıza yaxınlaşmasının qarşısını almalıyıq. Yaxşılaşdırmalı olduğumuz çox şey var. Amma komandada müsbət məqamlar da az deyil".

Santuş zədəli futbolçusu Nuno Mendeşin durumu barədə də danışıb: "Nuno Mendeş... O, sabah və ya bir gün sonra sınaqdan keçiriləcək. Bir növ əzələ ağrısı hiss etdi. Ümid edirik ki, bu, mürəkkəb bir şey deyil".

Mütəxəssis 2018-ci ildə mundialın 1/8 finalında Uruqvaya uduzduqları görüşü də xatırlayıb: "2018-ci ildə məğlubiyyətlə müqayisədə hazırkı oyunumuz fərqlidir. 4 il geridə qalıb. O zaman 1/8 finalda qarşılaşırdıq. Bu dəfə Uruqvay qalib gələ bilərdi, amma biz qalib olduq. Mərhələ adlamaq böyük məmnunluq hissi doğurur. İstədiyimiz bu idi. Komandam kompaktdır, oyunçularımızın çox yaxşı ruhu var. Biz lider olacağımıza hələ əmin deyilik, amma birinci olmaq istəyirik".

Qeyd edək ki, ilk turda Qanaya qalib gələn (3:2) Portuqaliya yığması Uruqvayı da üstələməklə 3-cü turun nəticəsindən asılı olmayaraq 1/8 finala vəsiqəni təmin edib. Komanda son turda dekabrın 2-si Cənubi Koreya ilə qarşılaşacaq.

# Braziliya yenə təkrarladı

"DÇ-2022"nin 2-ci turunda İsveçrəyə qalib gələn (1:0) Braziliya millisi pley-offa vəsiqəni təmin edib. Komanda ilk iki oyunda rəqiblərə qapısına bir zərbə belə vurmağa imkan verməyib. Buna qədər yalnız Fransa millisi 1998-ci ildə keçirilən mundialda bunu bacarmışdı.

Qeyd edək ki, Braziliya millisi ilk turda Serbiyaya 2:0 hesabı ilə qalib gəlib.




# Abubakardan tarixi rekord



**Kamerun millisinin hücumçusu Vensan Abubakar dünya çempionatında tarixi rekorda imza atıb.**

O, buna "DÇ-2022"nin qrup mərhələsinin 2-ci turunda Serbiya ilə oyunda (3:3) qol vuraraq və qol ötürməsi verərək nail olub. O, mundial tarixində ehtiyat oyunçular skamyasından meydana daxil olduqdan sonra bunu bacaran ilk afrikalı futbolçudur.

Qeyd edək ki, Abubakar 63-cü dəqiqədə komandasının 2-ci qolunu vurub, 66-cı dəqiqədə isə bərabərlik qolunun ötürməsini verib.

# Belçika millisində xaos

**Belçika millisinində gərginlik davam edir. Belə ki, Kevin De Brüyne Eden Hazard və Yan Vertonqenlə dava etdikdən sonra baş məşqçi Roberto Martineslə söhbət edib.**

Kevin mütəxəssisə bildirib ki, "DÇ-2022"nin qrup mərhələsinin sonuncu turunda Xorvatiyaya qarşı oyunda Eden Hazard meydana çıxmamalıdır. Əks halda o, özü görüşdə iştirak etməyəcəyini vurğulayıb. Bildirilib ki, mütəxəssis futbolçunu sakitləşdirməyə çalışıb və ona kimin oynayacağı ilə bağlı qərarın yalnız məşqçi tərəfindən verildiyini deyib.

Qeyd edək ki, dünən Kevin De Brüyne, Eden Hazard və Yan Vertenqon arasında böyük mübahisə yaşanıb. Buna futbolçuların bir-birlərinin oyunundan razı qalmaması səbəb olub. Lukakunun müdaxiləsindən sonra məsələnin daha da böyüməsinin qarşısı alınıb.

# Taysondan Messiyə dəstək

**"DÇ-2022"nin qrup mərhələsinin 2-ci turunda Meksika ilə oyundan sonra paltardəyişmə otağındakı hərəkətinə görə peşəkar boksçu Kanelo Alvares tərəfindən təhdid olunan Argentina yığmasının kapitanı Lionel Messini əfsanəvi boksçu Mayk Tayson müdafiə edib.**

Amerikalı özündən 24 yaş kiçik olan meksikalı həmkarına xəbərdarlıq edib. 56 yaşlı Tayson argentinalı superulduza heç kimin toxunmağa cürət edə bilməyəcəyini deyib: "Kanelo adlı bir şəxs Messini təhdid edib. Əgər Messiyə toxunmağa cürəti çatsa, illər sonra yenidən rinqə çıxmaq məcburiyyətində qalacam".



Qeyd edək ki, Lionel Messi 2:0 hesabı ilə qalib gəldikləri görüşün ardından paltardəyişmə otağında Meksika millisinin formasını ayağı ilə itələyib. Kanelo Alvares də bu oyunçu ilə üzüzə gələcəyi təqdirdə onu döyəcəyini söyləyib.

# "İrəli, Portuqaliya!"

**Portuqaliya millisinin kapitanı Krıştiano Ronaldu "DÇ-2022"nin qrup mərhələsinin 2-ci turunda Uruqvaya 2:0 hesabı ilə qalib gələrək 1/8 finala yüksəldikləri oyunu şərh edib.**

O, özünün sosial şəbəkə hesabında yazıb: "Dünya çempionatının pley-off mərhələsinə yüksəldik! Əla iş, komanda! Zəngin tarixə malik rəqiblə qarşılaşıb, gücümüzü və oyun keyfiyyətimizi göstərdik. Biz döyüşürük və buna görə də arzumuz canlıdır! İrəli, Portuqaliya!"



# "Mundialda qəribə nəticələr var"

**"Bu, hazırkı dünya çempionatının ən maraqlı oyunu idi. Bununla belə, nəticədən məyusuq. Hesabda 3:1 öndə idik. Oyunu istədiyiniz kimi sona çatdırmaq üçün ağıllı olmalı və rasional hərəkət etməlisiniz. Bəzi səhvlər bizə baha başa gəldi".**

Bu sözləri Serbiya millisinin baş məşqçisi Draqan Stoykoviç "DÇ-2022"nin qrup mərhələsinin 2-ci turunda Kamerunla 3:3 hesabı ilə heç-heçə etdikləri oyunu şərh edərkən deyib: "Hesab 3:3 olsa da, biz bir az üstün idik. İndi daha bir qrup matçının nəticəsini gözləyirik. Bu mundialda qəribə nəticələr var. Qalib gəlmək asan deyil və biz sona qədər qələbəyə inanmalıyıq. İndi ən vacibi növbəti oyunda güvənə biləcək futbolçuların vəziyyətini görməkdir".

Qeyd edək ki, Serbiya G qrupunda 1 xalla 4-cü pillədə qərarlaşıb. Komanda qrup mərhələsinin sonuncu turunda dekabrın 2-də İsveçrə ilə qarşılaşacaq.




# Alonso növbəti mərhələyə yüksələcəklərinə inanır



**Uruqvay millisinin baş məşqçisi Dieqo Alonso "DÇ-2022"nin qrup mərhələsinin 2-ci turunda Portuqaliyaya qarşı oyundan (0:2) sonra fikirlərini bildirib.**

O deyib: "Biz ən yaxşıya inanmalıyıq, çünki bu, hələ son deyil. Uruqvay millisi qrupdan çıxmaq şansını itirməyib. Növbəti matçda üç xal qazanıb daha da irəli getmək üçün əlimizdən gələni edəcəyik. İndi Portuqaliyaya məğlubiyyəti qəbul etməliyik və Qana ilə oyuna hazırlaşmalıyıq".

Qeyd edək ki, Uruqvay H qrupunda 1 xalla sonuncudur. Komanda son oyununu Qanaya qarşı keçirəcək.

*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*

## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq, könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 23 noyabr 2022-ci il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 5 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

**"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən lisenziyaları ləğv edilən fiziki şəxs olan sığorta agentlərinin**

**SİYAHISI**

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Hüseynov İlkin Ağahüseyn oğlu | 13.02.2013 | 000861 | 1002402702 |
| 2 | Həsənov Mahir İsmayıl oğlu | 05.03.2012 | 000575 | 1801641102 |
| 3 | İsmayılov İlham Nəriman oğlu | 18.03.2011 | 000417 | 1002030862 |
| 4 | Qarayeva Samirə Arif qızı | 25.09.2019 | SA-0140 | 1701052502 |
| 5 | Ağayeva Kəmalə Qazıbəy qızı | 21.07.2009 | 000208 | 3800259592 |

# Rusiyanın sülhməramlı kontingentinin müraciətlərimizə etinasız yanaşması təəssüf doğurur

Rusiya Federasiyasının sülhməramlı kontingentinin müraciətlərimizə etinasız yanaşması təəssüf doğurur.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası ərazisindəki yaşayış məntəqələrimizin adlarının uydurma erməni toponimləri ilə qeyd olunması, o cümlədən "Dağlıq Qarabağ ərazisi" ifadəsinin işlənməsi ilə bağlı bir daha qeyd etmək istəyirik ki, bu, YOLVERİLMƏZDİR.

"Rusiya Federasiyasının sülhməramlı kontingentini rəsmi məlumatlarında qeyd etdiyimiz yanlış ifadələrdən istifadə etməməyə çağırırıq və bu çağırışımıza əməl olunacağına ümid edirik. Bundan başqa, ölkəmizin adının da paylaşdıqları xəritədə düzgün qeyd olunmasını tələb edirik.

Bir daha xatırlatmağı özümüzə borc bilirik ki, Rusiya Federasiyasının Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində dərc olunan Rusiya Federasiyasının sülhməramlı kontingentinin 29.11.2022-ci il tarixli rəsmi məlumatında "Dağlıq Qarabağ ərazisi" kimi qeyd olunan ərazi Qarabağ iqtisadi rayonudur, "Mardakert" və "Martuni" kimi adlandırılan Azərbaycan yaşayış məntəqələrinin rəsmi adları isə müvafiq olaraq AĞDƏRƏ, XOCAVƏNDDİR.

Sülhməramlı kontingentin həmin məlumatda qeyd etdiyi guya Azərbaycan Ordusunun bölmələri tərəfindən Şuşa istiqamətində atəş açılması və nəticədə iki nəfərin yaralanması barədə xəbərin də heç bir real əsası yoxdur, tamamilə yalandır. Bu məlumatı qəti surətdə təkzib edirik", - məlumatda qeyd edilib.


**Azercell abunəçilərinin nəzərinə**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 01.12.2022-ci il saat 23:00-dan etibarən 02.12.2022-ci il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətinin təmin edilməsi üçün stolüstü pul emal edən, pul sayan avadanlıqların satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 21 noyabr 2022-ci il tarixli qərarına əsasən "HALAL-P" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Satınalmalar komissiyası*

# Minlərlə polis küçələrə çıxdı

## Brüsseldə asayiş keşikçiləri də etiraz aksiyasına başladı



Belçikanın paytaxtı Brüsseldə polis əməkdaşları etiraz aksiyası keçiriblər. Küçələrə çıxan minlərlə polis iş şəraitinin yaxşılaşdırılmasını tələb ediblər. Nümayiş həmkarlar ittifaqlarının tələbi ilə polis əməkdaşı Tomas Monjuanın təxminən üç həftə əvvəl qeydiyyatda olan radikal islamçı tərəfindən öldürülməsindən sonra təşkil edilib.

"CQSP" polis həmkarlar ittifaqının sözçüsü Eddi Quainonun dediyinə görə, bu, ehtiyac duyulduğu resurslara görə polisin hakimiyyətə qarşı qəzəbinin ifadəsidir: "Bu həm də Tomasın qətli üzərində düşünmək vaxtıdır və əlbəttə ki, polisin dinlənilməsi üçün bir fürsətdir".

Etirazçılardan biri isə insanların polislərə hörmətlə yanaşmamasından şikayətlənir: "Əhali artıq bizə hörmət etmir. İşləyəndə problemlərlə üzləşirik, zorakılıqdan əziyyət çəkirik, işimizi görməyə mane olurlar, bu, artıq qəbuledilməzdir".

Nümayiş paytaxtda baş verən iğtişaşlardan sonra Belçika polisinin üzləşdiyi tənqidlər fonunda baş tutub. Noyabrın 27-də onlarca gənc futbol üzrə dünya çempionatının matçından sonra şəhərin mərkəzini dağıdıb. Hüquqmühafizə orqanlarının əməkdaşları da öz növbəsində siyasətçiləri fəaliyyətsizlikdə günahlandırıblar. Brüsseldə və digər şəhərlərdə Belçika üzərində qazanılan gözlənilməz qələbə ölkə əhalisinin təxminən 5 faizini təşkil edən geniş Mərakeş etnik icmasının nümayəndələrinin şiddətli reaksiyasına səbəb olub .

Belçikanın paytaxtında onlarca aqressiv gənc avtomobilləri, elektrik skuterləri və zibil qutularını çevirərək yandırıb, vitrinləri sındırıb.

Polis kütləni dağıtmaq üçün təzyiqli sudan və gözyaşardıcı qazdan istifadə edib. Təxminən 10 nəfər saxlanılıb.

Talanlarla əlaqədar polis şəhərin mərkəzini bağlayıb, metro və tramvayların hərəkəti dayandırılıb. Antverpendə, Lyejdə, Niderlandın Amsterdam, Haaqa və Rotterdam şəhərlərində də iğtişaşlar baş verib.

***R.CƏFƏROV,***
***"Azərbaycan"***

# Makronun cinayətləri araşdırılır

## Fransanın milli maliyyə prokurorluğu istintaqı genişləndirir



Son vaxtlar Fransa qəzetlərinin manşetləri Emmanuel Makronun seçki kampaniyalarının mümkün qeyri-qanuni maliyyələşdirilməsi ilə bağlı xəbərlərlə doludur. Fransanın milli maliyyə prokurorluğu və üç istintaq hakimi Amerikanın "McKinsey" konsaltinq şirkəti ilə Beşinci Respublika prezidentinin yaxın ətrafı arasında əlaqəni üzə çıxarmağa çalışırlar.

"McKinsey" tərəfindən korporativ vergilərin ödənilməməsi və çirkli pulların yuyulması ilə bağlı əvvəlki ittihamlara "favoritçilik" ifadəsi də əlavə edilib. Bu o deməkdir ki, araşdırılan məsələlər arasında Amerika ofisinin Fransada hökumət müqavilələri bağlayarkən imtiyazlara sahib olub-olmaması mülahizəsi var.

Emmanuel Makronun adının cinayət əməllərində hallanması ilk dəfə deyil. Beş il əvvəl qalmaqallı siyasətçi korrupsiyada şübhəli bilinirdi. Maliyyə naziri olduğu müddətdə o, Las-Veqasda ziyafət təşkil etmək üçün tender keçirmədən bir reklam firmasını seçmişdi. Həmin tədbirin rəsmi məqsədi ABŞ-də fransız biznesinin təşviqi olunması idi. Təxminən eyni zamanda Makronun bəyan etdiyi məbləğlərin əslində qazandıqları ilə uyğun gəlmədiyi ortaya çıxdı. Belə qənaətə gəlindi ki, Fransanın gələcək lideri vergi xidmətini aldatmağa çalışıb. Bundan sonra isə prezidentlik kampaniyası zamanı bütün seçiciləri aldatmağa cəhd edib.

"Le Figaro" qəzeti yazır ki, Fransa maliyyə prokurorluğu "McKinsey işi üzrə ibtidai istintaqı genişləndirəcək və Emmanuel Makronun seçki kampaniyasının maliyyələşdirilməsi şərtlərini yoxlayacaq. İstintaqlar həmçinin "favoritçiliyə" və onun prezident tərəfindən gizlədilməsi şübhələrinə də aiddir.

Fransa mətbuatı dövlət başçısının mümkün cinayət əməlləri ilə bağlı səs-küylü başlıqlar seçib. Qəzetlərin birinci səhifələrində Prezident Makronun hər iki seçki kampaniyasının Amerikanın "McKinsey" konsaltinq şirkəti tərəfindən qeyri-qanuni şəkildə maliyyələşdirilməsi və bu xərclərin rəsmi olaraq heç bir yerdə göstərilməməsi ilə bağlı ittihamlar yer alıb. Maraqlısı odur ki, xeyriyyəçi iş adamları öz namizədlərinin qələbəsindən sonra böyük məbləğdə dövlət kontraktlarına yiyələniblər. Bundan əlavə, Beşinci Respublika ərazisində fəaliyyət göstərən şirkət yüz milyonlarla avronu fırlatsa da, 9 il ərzində heç bir korporativ vergi ödəməyib. Yelisey Sarayı əvvəlcə susub, amma sonradan izahat verməli olub.

Bununla bağlı Makron deyib: "Biz artıq seçki kampaniyası zamanı bütün bunlar haqqında danışmışıq. Mən də şərhlər vermişəm. Vergidən yayınma ittihamlarını mətbuatdan öyrəndim. Qoy ədalət məhkəməsi öz işini görsün. Bu, normaldır". Fransız siyasətçiləri üçün özəl investorlardan və əcnəbilərdən pul almaq yad hal deyil. Sabiq prezident Nikola Sarkozi kosmetika konserninin sahibi olan Betankur ailəsindən dəfələrlə "bəhrələnib" və seçki kampaniyası üçün Müəmmər Qəzzafidən 50 milyon avro almaqda ittiham olunub. Sarkozi artıq prezident Makronun dövründə korrupsiyada və əcnəbilərdən rüşvət almaqda ittiham edilərək həbsxanaya göndərilib. Ola bilər ki, bu yolla Makron potensial rəqiblərindən qurtulub. Amma sonda özü də oxşar qalmaqalın fiqurantı oldu… Və bu dəfə, çətin ki, asanlıqla yaxasını qurtara bilsin.

***R.HİLALOĞLU,***
***"Azərbaycan"***


**UNHCR**
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

### Layihə təkliflərinin verilməsi üçün müraciət: No. RFP/AZE/014/2022

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyi

➢ **AZƏRBAYCANDA MƏCBURİ KÖÇKÜN VƏ MÜNAQİŞƏDƏN ZƏRƏR ÇƏKMİŞ ŞƏXSLƏR ÜÇÜN HÜQUQİ YARDIM VƏ MƏSLƏHƏT XİDMƏTİ**

fəaliyyətinin həyata keçirilməsi üçün layihə təkliflərini qəbul edir.

- Tender ölkə daxilidir.
- Ətraflı məlumatı **http://www.azerweb.com** və ya **https://azerbaijan.un.org/en/208715-rfp-provision-legal-aid-and-councelling-idp-and-other-conflict-affected-individuals** internet səhifəsindən əldə edə bilərsiniz.
- Sualların qəbulu üçün son tarix 29 noyabr 2022-ci il Bakı vaxtı ilə saat 23:59-dur.
- **12 dekabr 2022-ci il Bakı vaxtı ilə saat 23:59-a** qədər daxil olan təkliflər etibarlı sayılacaq.

**UNHCR**
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

### Request for Project Proposal: No. RFP/AZE/014/2022

The Office of the United Nations High Commissioner for Refugees in Baku, Azerbaijan invites you to submit project proposals on:

➢ **PROVISION OF LEGAL AID AND COUNSELLING TO IDP AND OTHER CONFLICT-AFFECTED INDIVIDUALS IN AZERBAIJAN.**

- The tender is open at a country level.
- For details, please visit **http://www.azerweb.com or https://azerbaijan.un.org/en/208715-rfp-provision-legal-aid-and-councelling-idp-and-other-conflict-affected-individuals** website.
- The deadline for receipt of questions is 23:59 hrs. BAKU time on 29 November 2022.
- Offers should be submitted by **12 December 2022 at 23:59 hours** Baku time.








***Yasamal rayonu, Yeni Yasamal yaşayış massivi, Talıblı küçəsi 4 ünvanda giriş 19, 14-cü mərtəbə, 2270 saylı mənzilə dair Elvin Nuşirəvan oğlu Məmmədov ilə "Qlobal Azəri" MMC arasında 31.03.2012-ci il tarixdə bağlanmış müqavilə itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik İradə Hüseynova və AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin üzvləri akademik

**MUSA İSMAYIL OĞLU RÜSTƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6507
Sifariş 3384
Qiymәti 40 qəpik